AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodik jurnal*

2022, 4 (37)

BAKI-2022

# Tarix, insan və cəmiyyət

Elmi-nəzəri və elmi-metodik jurnal № 4 (37), 2022

*Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 16 aprel 2005-ci il tarixdə qeydə alınmış (№ 1279), 2005-ci ildən Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda nəşr edilmişdir. 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin təsisçiliyi ilə nəşr edilir.*

*Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən 2020-ci ildən tarix və antropologiya elmi istiqamətləri üzrə "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısı"na daxil edilmişdir.*

## REDAKSİYA HEYƏTİ

**Tarix üzrə elmlər doktoru, professor Cəfər Cəfərov** *(baş redaktor)*
**Tarix elmləri doktoru, professor Abbas Seyidov** *(baş redaktorun müavini)*
**Tarix elmləri doktoru, professor İradə Hüseynova**
**Tarix elmləri doktoru, professor Anar İsgəndərov**
**Tarix elmləri doktoru, professor Oqtay Sultanov**
**Tarix elmləri doktoru, professor Xəqani Məmmədov**
**Tarix üzrə elmlər doktoru, professor Fəzail Vəliyev**
**Antropologiya üzrə elmlər doktoru, professor Əliağa Məmmədli**
**Tarix üzrə elmlər doktoru Eynulla Mədətli**
**Tarix üzrə elmlər doktoru, dosent Sevinc Əliyeva**
**Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Yasin Qaraməmmədli**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Ərəstun Mehdiyev**
**Tarix üzrə fəlsəfə doktoru Kərəm Məmmədov**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Naibə Əhmədova** *(məsul katib)*

**“Tarix,insan və cəmiyyət”elmi-nəzəri və elmi-metodik jurnalının “Şuşa ili”nə həsr olunmuş xüsusi buraxılışına Baş redaktordan**

## Ö N S Ö Z

Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan Qarabağ bölgəsi tarixi inkişafın bütün mərhələlərində istər strateji, istərsə də geoiqtisadi baxımdan böyük əhəmiyyət daşımışdır. Bu bölgənin ictimai-siyasi mühitinin və sosial-mədəni həyatının formalaşmasında elm və təhsilin müstəsna dərəcədə rolu olmuşdur. Məlumdur ki, Qarabağ regionunun ictimai həyatının və sosial-mədəni mühitinin formalaşmasında Şuşa şəhərinin rolu olduqca böyükdür. Xüsusilə də XVIII əsrdən başlayaraq Şuşa şəhərinin sosial – mədəni həyatında baş verən intibah prosesi təkcə bu şəhərlə hüdudlanmamış, Azərbaycanın digər bölgələrinin elm-təhsil və mədəni inkişafına da ciddi surətdə təsir etmişdir.

1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən əsası qoyulan Şuşa şəhəri qısa zamanda bölgənin mədəniyyət, elm-təhsil mərkəzinə çevrilə bilmişdir. Çünki Azərbaycanın Qarabağ bölgəsində min illər boyu inkişaf edən və formalaşan sivilizasiya ənənələri bu şəhərdə də təşəkkül tapmış və sonrakı mərhələlərdə mədəni, elmi mühitin inkişafına mühüm töhfələr vermişdir. Hələ Qarabağ xanlığı dövründə Şuşa şəhərində onlarla məktəb, mədrəsə, ədəbi məclislər fəaliyyət göstərmiş, bu mədəni mühitdə onlarla görkəmli ictimai-siyasi xadim və ziyalılar yetişmişdir.

Şimal Azərbaycan 1828-ci ildə çar Rusiyası tərəfindən işğal olunduqdan sonra işğalçı rejimin sosial-mədəni həyatda həyata keçirdiyi müstəmləkəçilik siyasəti cəmiyyətin ictimai və mədəni mühitinə ciddi zərbə vurdu. Millətin ruhuna, təfəkkür tərzinə zidd olan yad ideyaların, millilikdən kənar qeyri-ənənəvi təhsil dəyərlərinin gerçəkləşdirilməsi məqsədilə çar Rusiyası XIX əsrin 30-cu illərində Azərbaycanda dünyəvi xarakterli ibtidai sinif məktəbləri – qəza məktəblərinin açılması məqsədilə ilkin layihələr təqdim etdi. Çar Rusiyasının 1829-cu və 1835-ci illərdə təsdiq etdiyi Zaqafqaziya məktəbləri haqqında “Əsasnamə”yə uyğun olaraq, əhali arasında rus dilini yaymaq, onlara ibtidai təhsil vermək məqsədilə ilk olaraq Azərbaycanda rusdilli məktəblərin açılmasına başlandı.

1830-cu il dekabrın 30-da Şuşada təsis edilən ilk qəza məktəbi ilə Azərbaycanda ilk dünyəvi rus məktəbinin bünövrəsi qoyuldu.Qəza məktəblərinin meydana gəlməsi və azərbaycanlıların bu məktəblərə cəlb olunması o dövr üçün böyük mədəni hadisə idi. XIX əsrin ikinci yarısından etibarən ümumtəhsil sistemində aparıcı rolu böyük əksəriyyəti ibtidai məktəblərdən ibarət olan rus təhsil müəssisələri oynamağa başladı. 1874-cü ildə ilk şəhər məktəbifəaliyyətə başladı. Şuşa şəhərində fəaliyyət göstərən bu Avropa tiplidünyəvi təhsil məktəbləri Azərbaycanda dünyəvi təhsil sisteminin formalaşmasında mühüm rol oynadı.

XIX əsrin 60-70-ci illərindən Azərbaycanda milli şüurun formalaşmasında ictimai-siyasi fikrin və maarifçilik hərəkatının böyük rolu vardır. 1875-ci ildə Şuşa Xeyriyyə Cəmiyyətinin nəzdində fəaliyyət göstərən qız məktəbi, 1881-ci ildə Şuşa realnı gimnaziyası, 1893-cü ildə Şuşa şəhərində fəaliyyətə başlayan Rus-Azərbaycan məktəbi, 1911-ci ildə Şuşa qız məktəbi, 1914-cü ildə Şuşa ali ibtidai məktəb və digər təhsil ocaqları Qarabağ bölgəsində, bütövlükdə isə Azərbaycanda maarifçilik hərəkatının vüsət almasında müstəsna rol oynamışdır. Məhz bunun nəticəsi idi ki, Əhməd bəy Ağaoğlu, Yusif Vəzir Çəmənzəminli, Firudin bəy Köçərli, Səfərəli bəy Vəlibəyov, Bədəl bəy Bədəlbəyov, Fərhad Ağazadə, Haşim bəy Vəzirov, Azad bəy Əmirov və Azərbaycanın bir çox görkəmli ictimai-siyasi xadimləri, pedaqoqları, mədəniyyət nümayəndələri Şuşa elm-təhsil mühitinin yetirmələri olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti xalq maarifinin, elm və mədəniyyətin inkişafını dövlət quruculuğunun təməl prinsiplərindən, ən vacib atributlarından saymaqla, xalq maarifinin məzmun və struktur cəhətdən müstəqil dövlətçilik ənənələrinə uyğun yenidən qurulmasını milli hökumətin əsas vəzifələrindən biri kimi bəyan etmişdi. Cümhuriyyət dövründə (1918-1920) Azərbaycanın digər bölgələrilə yanaşı Qarabağ regionunda və Şuşa şəhərində də elm və təhsilin inkişafına ciddi dəstək verilmişdir.

SSRİ dövründə də Azərbaycan SSR-nin mədəniyyət beşiyi olan Şuşa şəhəri elmin,təhsilin,mədəniyyətin inkişafına öz töhfələrini vermişdir. Xüsusilə Ümummilli lider Heydər Əliyevin Azərbaycan SSR-də hakimiyyəti dövründə dövlət tərəfindən Şuşa təhsilinə həmişə böyük diqqət yetirilmişdir.XX əsrin 70-ci illərində Şuşa şəhərinin sürətli inkişafı Ümummilli liderHeydər Əliyevin adı ilə sıx bağlıdır.Şəhərin inkişafına dair xüsusi qərarlar məhz Ulu Öndərin təşəbbüsü ilə qəbul edilmişdir.Həmin vaxtdan Şuşada quruculuq işləri geniş vüsət almış, mədəniyytət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır.Ulu Öndərin fəaliyyətinin mühüm istiqamətlərindən biri Qarabağda milli ruhun oyadılması olmuşdur. Hər şeydən əvvəl Qarabağ tarixini, mədəniyyətini, incəsənətini, iqtisadi inkişafını mükəmməl bilən Heydər Əliyev bu məsələyə çox həssaslıqla yanaşmış və şəhərin inkişafına böyük qayğı göstərmişdi.

Şuşa şəhərində görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin məzarı üstündə 1980-1981-ci illərdə abidə, məqbərə tikilmiş və 1982-ci il yanvarın 14-də yağan güclü qarın altında Ümummilli lider Şuşada şairin məqbərəsini böyük təntənə ilə açmışdı. Bununla yanaşı, səfər zamanı Heydər Əliyev Şuşada "Poeziya evi"ni açaraq, Vaqif poeziya günlərində iştirak etdi.Bu tarixi səfər zamanı Şuşadakı abidələrin bərpa işləri ilə maraqlanan Heydər Əliyev müvafiq göstərişlər verərək işlərin davam etdirilməsinə dair bir sıra təkliflərini də söyləmişdi. Ümummilli liderin, eyni zamanda, Şuşa məscidinə getməsi bir tərəfdən, onun dini dəyərlərə olan ehtiramının və dərin bağlılığının göstəricisi

idisə, digər tərəfdən azərbaycanlı əhalinin milli və dini dəyərlərə sahib çıxmalarının vacibliyinə olan nümunə idi.

1982-ci il iyulun 29-dan - avqustun 2-dək Qarabağa bir il içərisində ikinci dəfə səfər edən Heydər Əliyevin bilavasitə iştirakı ilə Şuşada şairə Xurşidbanu Natəvanın abidəsinin açılışı oldu. Eyni zamanda Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 1982-ci ildə Şuşa şəhər 1 nömrəli orta məktəbin 150 illik yubileyi təntənəli şəkildə keçirilmişdir.

Ümummilli liderin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə Şuşa şəhərinin və Qarabağ bölgəsinin siması xeyli dəyişdi. Heydər Əliyevin göstərişi ilə Xankəndidə Pedaqoji İnstitut açıldı və orada Azərbaycan bölməsi yaradıldı. Bu, azərbaycanlı ziyalıların daimi iş yeri ilə təmin olunmasına, Qarabağda yeni elmi-mədəni mühitin formalaşmasına, azərbaycanlı əhalinin ali təhsil almasına və doğma yerlərə daha sıx bağlanmasına əlverişli şərait yaratmışdı.

Ümummilli lider Heydər Əliyev Şuşanın Azərbaycan üçün nə dərəcədə əhəmiyyətli olduğunu bildirərək qeyd edirdi ki, "...Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir. Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır. Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".

Azərbaycan Prezidenti Heydər Əliyevin 1998-ci martın 20-də Novruz bayramı münasibətilə qaçqınlar və məcburi köçkünlər üçün keçirilən bayram şənliyindəki Nitqində qeyd edirdi ki, "...Şuşa təkcə şuşalılar üçün deyil, hər bir azərbaycanlı üçün əziz bir anlayışdır, deyə bilərəm ki, Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Ona görə də Şuşa təkcə yaşayış məkanı deyildir. Şuşa bizim milli rəmzimizdir, mədəniyyətimizin, tariximizin rəmzidir...".

Şuşanın abidələr şəhəri olduğunu söyləyən ümummilli lider Heydər Əliyev onun Azərbaycan üçün müstəsna əhəmiyyətini yüksək qiymətləndirərək bildirmişdir ki, "Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur".

Təəssüflər olsun ki,1992-ci ilin əvvəllərindən başlayaraq Azərbaycanın Qarabağ bölgəsinin bir hissəsi erməni iğalçıları tərəfindən işğal olundu. 1992-ci il mayın 8-də Azərbaycanın qədimmədəniyyət mərkəzi olan Şuşa şəhəri də düşmən işğalına məruz qaldı. Ermənistanın işğalçı ordusunun təcavüzü nəticəsində Şuşanın 25 məktəbi, 31 kitabxanası, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət

parkı, 2 sanatoriya, turist bazası, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq sağlamlıq məktəbi talan edilmiş, yandırılmış və dağıdılmışdır. Haqq işi uğrunda apardığımız Vətən Müharibəsində Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın müzəffər ordusu 44 gündə Qarabağ bölgəsini düşmən tapdağından azad etdi. 2020-ci ilin noyabr ayının 8-də Azərbaycanın üçrəngli şanlı bayrağı Şuşa şəhərinə sancıldı. Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ordumuzun Ali Baş Komandanı İlham Əliyev öz Nitqində qeyd etmişdir ki, "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi!Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq!Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq.2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır.Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!".

Hazırda işğaldan azad edilən ərazilərdə dağıdılan elm və təhsil infrastrukturunun bərpası istiqamətində mühüm işlər görülür. Qarabağda həyata keçirilən infrastruktur layihələrinin başında məhz təhsil müəssisələrinin yenidən qurulması, məktəblərin və ali təhsil ocaqlarının bərpası dayanır. Düşmənin məhv etdiyi tarixi məktəb binalarını geri qaytara bilməsək də, orada müasir tələblərə tam cavab verəcək, Azərbaycan təhsilinə əhəmiyyətli töhfə vəd edən təhsil ocaqlarının tikintisi planlaşdırılır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Sərəncamı, elm və təhsil müəssisələrinin üzərinə böyük elmi, pedaqoji və mənəvi vəzifələr qoymuş, bu Sərəncamdan irəli gələn tələblərə uyğun olaraq Azərbaycan Dövlət Pedaqoji Universitetində Şuşa şəhərinin 270 illik yubileyi münasibəti ilə çoxsaylı mədəni tədbirlər, elmi-praktik konfranslar, elmi seminarlar keçirilmiş və bu gün də həmin tədbirlər davam etməkdədir. Universitetin professor-müəllim heyəti bu günkü elmi-praktik konfransın yekunu olaraq, Pedaqoji Universitetin "Tarix,insan və cəmiyyət"elmi-nəzəri və elmi-metodik jurnalı növbəti sayını xüsusi buraxılış olaraq məhz Şuşa şəhərinin 270 illik yubileyinə həsr etmişdir. Bu xüsusi buraxılışda Azərbaycan Dövlət Pedaqoji Universitetinin və digər elm-təhsil müəssisələrin alimlərinin, Qarabağ bölgəsi və Şuşa şəhərinin tarixi, mədəniyyəti, ədəbi mühiti, incəsənəti və digər məsələləri ilə bağlı elmi məqalələri yer almışdır. Ümid edirik ki, bu məqalələr elmi tədqiqat xarakterli olmaqla yanaşı, postmünaqişə dövründə dövlətimizin Qarabağ iqtisadi rayonu və Şuşa şəhərinin elm-təhsil quruculuğu sahəsindəki fəaliyyətində elmi-nəzəri baza rolunu oynayacaqdır.

***T.e.d.,professor Cəfər Məmməd oğlu Cəfərov***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru***

# XX ƏSRİN 70-80-Cİ İLLƏRİNİN SOVET TARİXŞÜNALIĞINDA QARABAĞ MƏSƏLƏSİ

**Naibə Əhmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
naiba.ahmedova@mail.ru

***Açar sözlər:*** *Şəhərlərin tarixi, Şuşa,Qarabağ məsələsi, tarixşünaslıq*

**Xülasə**

*XX əsrin 70-80-ci illərində Azərbaycan tarixinin bütün məsələləri üzrə tarixşünaslıq sahəsində tədqiqatlar genişləndi, Quzey Azərbaycanın Rusiya tərəfindən işğal problemi, ayrı-ayrı xanlıqların tarixi inkişafı və onların Rusiyaya "birləşdirilməsi" prosesinin tədqiq olunması mühüm hadisələrdən biri idi.Sovet tarixşünaslığında Qarabağ tarixi üzrə dərin tədqiqatlar demək olar ki, aparılmamışdır. Ermənistanın Dağlıq Qarabağa əsassız ərazi iddiaları müstəqillik ərəfəsində Qarabağ tarixi ilə bağlı mənbələrin öyrənilməsini gündəmə gətirdi.Məqalədə XX əsrin 70-80-ci illərində sovet tarixşünaslıq elmində Qarabağ tarixi üzrə yaranan əsərlərin müqayisəli təhlili verilmiş və mühüm elmi nəticələr əldə edilmişdir.*

# КАРАБАХСКИЙ ВОПРОС В СОВЕТСКОЙ ИСТИОГРАФИИ 70-80-Х ГГ. XX ВЕКА

**Наиба Ахмедова**

***Ключевые слова:****история городов, Шуша, Карабахский вопрос, историография.*

**Резюме**

*В 70-х и 80-х годах XX века расширились исследования в области историографии по всем вопросам истории Азербайджана, проблема оккупации Северного Азербайджана Россией, историческое развитие отдельных ханств и процесс их «объединения».с Россией было одним из важных событий. В советской историографии глубокие исследования его истории Карабаха практически не проводились. Необоснованные территориальные претензии Армении к Нагорному Карабаху выдвинули на повестку дня изучение источников, связанных с историей Карабаха накануне обретения независимости.В статье проведен сравнительный анализ работ по истории Карабаха 70-80-х гг. XX века в советской историографии, был дан и получены важные научные результаты.*

# THE KARABAKH QUESTION IN SOVIET HISTOROLOGY OF THE 70-80S OF THE XX CENTURY

**Naiba Ahmadova**

***Key words:*** *history of cities, Shusha, Karabakh issue, historiography*

**Summary**

*In the 70s and 80s of the XX century, researches in the field of historiography related to all issues of Azerbaijan history, the problem of the occupation of Northern Azerbaijan by Russia, the historical development of individual khanates and the process of their "unification" expanded.It was one of the important events with Russia.In Soviet historiography, in-depth studies of his history of Karabakh were practically not carried out. The unfounded territorial claims of Armenia to Nagorno-Karabakh put on the agenda the study of sources related to the history of Karabakh on the eve of gaining independence.In the article,a comparative analysis of the works related to the history of Karabakh in the 70-80s of the $20^{th}$ century in Soviet historiography was given and important scientific results were obtained.*

Zaman-zaman Azərbaycan xalqının tarixinin tədqiqi sərt yasaqlara məruz qalmış, tarixi həqiqətlərin obyektiv işıqlandırılması mümkün olmamışdır. Real tarixlə onun tədqiqinə həsr edilmiş əsərlər arasındakı təhrif və bitərəflik hakim ideologiyaya xidmət edirdi. Sovet dövründən başlayaraq tarixi tədqiqatların aparıldığı elmi-tədqiqat müəssisələrinin yaranması ilə bir sıra yazılı mənbələrin nəşri sahəsində müəyyən işlər görülsə də, dövrün bir sıra tarixşünaslıq məsələləri tədqiqatçıların diqqət mərkəzindən kənarda qalmış, lazımınca öyrənilməmiş və ya təhrif olunaraq saxtalaşdırılmışdır.Bu problem əlyazması halında qalmış bir çox əsərlərin lazımınca öyrənilməməsi və çoxu fars dilində olan həmin qaynaqların elmi-tənqidi mətni və tərçüməsinin nəşr olunmasında tədqiqatçıdan müəyyən hazırlıq və əlyazmalar üzərində işləmək vərdişi tələb etməsilə əlaqədardır.

1970-1985-ci illərdə SSRİ miqyasında tarix elminin, o cümlədən tarixşünaslığın inkişafına istiqamət verən bir sıra müşavirə və konfranslar keçrilmişdir. Sovet tarix elminin tərkib hissəsi kimi Azərbaycan tarix elminin tədqiqat istiqamətini Sov.İKP MK və ona tabe olan Azərb.KP MK-nın qərar, qətnamələri müəyyən edirdi. Xüsusən Azərb. KP MK-nın 5 avqust 1969-cu il və 29 oktyabr 1971-ci il Plenumunun materialları Sovet tarixşünaslığının istiqamətləndirilməsində mühüm rol oynadı. Azərb.KP MK-nın Plenumunda (oktyabr 1971-ci il) bildirildi ki, ictimai elmlərlə məşğul olan alimlər tarixi keçmişi, müasir dövrü qiymətləndirərkən aydın partiya mövqeyində durmalı, burjuaziyanın ən kiçik təzahürlərinə qarşı belə barışmaz olmalı, burjua alimlərinə qarşı mübarizənin ön cərgəsində getməlidir.

Azərbaycan KP MK-nin 1969-cu il iyul Plenumunda Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi seçilməsi ilə 70-80-ci illərdə respublikanın həyatında inkişafın təməli qoyuldu. Bu mənada 70-80-ci illərin birinci yarısına aid elmi ədəbiyyatda verilmiş xarakteristikanı və M.S.Qorbaçovun bölgüsünün mexaniki şəkildə Azərbaycana aid edilməsi gerçək həqiqəti əks etdirmir. Müstəqillik dövründə sovet tarixşünaslığında bu dövrə fərqli qiymət verilmişdir.

Sovet dövründə Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi zamanda (1969-1982) Qarabağa çox böyük diqqət ayırmış və bu istiqamətdə sistemli və məqsədyönlü fəaliyət göstərmişdi.Qarabağ tarixini, mədəniyyətini,incəsənətini mükəmməl bilən Heydər Əliyev, onun mərkəzi Şuşa şəhərinin inkişafına həssaslıqla yanaşmışdır.

XX əsrin 70-80-ci illərində Azərbaycan tarixinin bütün məsələləri üzrə tarixşünaslıq sahəsində tədqiqatlar genişləndi, Quzey Azərbaycanın Rusiya tərəfindən işğal problemi, ayrı-ayrı xanlıqların tarixi inkişafı və onların Rusiyaya "birləşdirilməsi" prosesinin tədqiq olunması mühüm hadisələrdən biri idi.

Sovet tarixşünaslığında Qarabağ tarixi üzrə dərin tədqiqatlar demək olar ki, aparılmamışdır. Ermənistanın Dağlıq Qarabağa əsassız ərazi iddiaları müstəqillik ərəfəsində Qarabağ tarixi ilə bağlı mənbələrin öyrənilməsini gündəmə gətirdi.

Q.Qeybullayev "Qarabağ (etnik və siyasi tarixinə dair)" əsərində xanlıqlar dövründə Qarabağ əhalisinin etnik tərkibinin öyrənilməsinə diqqət yetirmiş, əhalinin böyük əksəriyyətinin türklərdən ibarət olduğunu əsaslandırmışdır[6,s.5]. Müəllif kitabının ön sözündə yazır ki, çağdaş erməni tarixşünaslığında Azərbaycanın Kür və Araz çayları arasındakı ərazisinin, o cümlədən Dağlıq Qarabağın bütün tarix ərzində Ermənistanın tərkib hissəsi olması ehkamı hakimdir. Tarixi faktların yanlış yozumuna əsaslanan erməni ekstremistləri əzəli torpağımız olan bu ərazinin Ermənistana birləşdirilməsi iddiasını irəli sürürlər. Z.Bünyadov, İ.Əliyev, R.Göyüşov və başqalarının əsərlərində tarixi faktlar əsasında bu konsepsiya tənqid olunmuş, saxtakarlara cavab verilmişdir.

Bu dövrdə ölkənin sosial-iqtisadi inkişafında demoqrafik proseslərə və şəhərlərin tarixinin öyrənilməsinə maraq artdı. Əvvəllər şəhərlərin öyrənilməsində diyarşünaslıq istiqaməti əsas idisə, bu istiqamət öz yerini kompleks məsələlərin həllinə yönəltdi. Azərbaycan tarixşünaslığında eyni xronoloji çərçivəsi və kompozisiyası olan bir sıra şəhərlərin tarixi yazıldı. E.B. Muradəliyevanın "XIX əsrin ikinci yarısında Şimali Azərbaycan şəhərləri" adlı dərs vəsaiti bu baxımdan maraqlıdır[7].

Şuşa şəhərinin salınma tarixi, quruluşu barədə maraqlı məlumatlar A.Salamzadə, E.Avalov, R.Salayevin birgə yazdıqları "Azərbaycanın tarixi

şəhərlərinin bərpası və qorunma problemi" adlı kitabda[12],habelə E.Avalovun "Şuşa şəhərinin arxitekturası" monoqrafiyasında işıqlandırılmışdır[8].

Ş.Cəmşidov Qarabağ xanı İbrahimxəlil xanın Car-Balakənə qaçması barədə tarixşünaslıqda hökm sürən fikri "İbrahim xan Şuşa qalasını nə üçün tərk etmişdi?" məqaləsində təkzib etmiş, Ağa Məhəmməd şah Qacarın topçularını susdurduqdan sonra yolların bağlandığını görüb, çarəsizlikdən Balakənə getmiş Avar hakimi Ümmə xana sığınmışdır[2].

Qarabağ tarixi üzrə 10 əlyazma N.Axundov tərəfindən toplanaraq "Qarabağnamələr" silsiləsi adı ilə iki hissədə (1989-1991) nəşr olundu[1]. N.Axundov "Qarabağ salnamələri" əsərinin I fəslində "Qarabağnamələr" və onların müəllifləri barədə məlumat verməklə yanaşı, "Qarabağnamələr" toplusuna daxil olan salnamələrdən əlavə XX əsrin başlanğıcında Mirzə Xosrov Axundov-Şaiqin "Qarabağ tarixi", Məhəmmədağa Müstəhidzadənin "Qarabağnamə" əsərləri yazdığını, bu iki əsərin əvvəlki salnamələri təkrarladığını və onların da "Qarabağnamələr" küliyyatına daxil edildiyini qeyd edir. Müəllif İbrahimxəlil xanın mayor Lisaneviç tərəfindən günahsız qətlə yetirildiyini, Vərəndə məliyi Cümşüdün fitnəkarlığının bu işə təkan verdiyini söyləyir, Amerika alimi A.Murelin bu qənaətdə olduğunu yazır.

Akademik İ.Əliyev "Dağlıq Qarabağ: tarix, faktlar, hadisələr" əsərinin tarixşünaslığında ilk dəfə Qarabağ xanlığının Azərbaycan dövləti olduğu təsbit edilir, ermənilərə aid olmadığı göstərilir. Dağlıq Qarabağın tarixi keçmişinə qısaca nəzər salan müəllif erməni tədqiqatçılarının uydurmalarına tutarlı faktlarla cavab verir[9]. Qarabağın əzəli Azərbaycan torpağı olduğunu bir daha təsdiqləyir. Əsərdə xanlığın sosial-iqtisadi quruluşu, sosial-siyasi əlaqələri barədə bəzi məlumatlar verilir.

X.Xəlilov "Qarabağın etnik tarixindən" adlı məqaləsində 1823-cü il Qarabağ əyalətinin kameral təsviri əsasında Qarabağ xanlığında əhalinin sayı, şəhər və kənd əhalisinin etnik tərkibini aydınlaşdırır [3]. M.Gülmalıyevin "XVIII əsrin son rübü – XIX əsrin birinci yarısında Azərbaycan kəndinin sosial-iqtisadi strukturu" əsərində Qarabağ xanlığının tarixinin müəyyən məsələləri tədqiq edilir.

1970-1985-ci illər dövrü dövlət sənədlərində "inkişaf etmiş sosializm" dövrü adlandırılırdı. Lakin M.S.Qorbaçovun Sov.İKP MK-nın Baş Katibi seçilməsi və hakimiyyətə gəlməsi ilə dövrə münasibət dəyişdi. Sov.İKP-nin Aprel (1985-ci il) Plenumundan sonra SSRİ-də partiya, dövlət sənədlərində və elmi ədəbiyyatda bu dövr "durğunluq" (zastoy – N.Ə.) dövrü adlandırıldı.

Əslində M.S.Qorbaçovun diktəsi ilə Sovet dövlətinin bütöv 15 illik tarixinə, müəyyən nöqsanlar olsa belə, bu çür damğa vurmaq ədalətsizlik, qərəzlilik idi. Xüsusən 1970-1979-cu illərdəki həyatın müəyyən sahələrində irəliləyişlər aydın sezilirdi. Həm də ümumən SSRİ-yə aid edilmiş bu konsepsiyanın mexaniki surətdə Azərbaycana da aid edilməsi yanlışlıq idi.

Çünki müttəfiq respublikalar arasında Azərbaycan özünü iqtisadi cəhətdən təmin etmək gücünə malik dörd respublikadan biri idi.

1985-1988-ci illərin sovet tarixşünaslığının təhlili zamanı aydın olur ki, bu dövrdə tarixçilər ictimai-siyasi məsələlərə əvvəlki dövrlərdən bir qədər fərqli yanaşmış, yenidənqurma siyasəti tarixi tədqiqatların nisbətən demokratikləşməsinə şərait yaratmışdır. İrəli sürülən aşkarlıq və demokratikləşdirmə xətti elmi tədqiqatların şəffaf aparılmasına, tariximizin təhrif və saxtalaşdırmalardan təmizlənməsinə ümid oyatmışdır.

Azərbaycan tarixinin ən gərgin və ziddiyyətli dövrlərindən biri də 1988-1990-cı illər dövrüdür. Yuri Pompoyevin "Qarabağ qan girdabında" kitabında Dağlıq Qarabağ münaqişəsinin əsas səbəbləri göstərilir [11]. Müəllif rus tarixçisi N.N.Şavrovun "Zaqafqaziyada rus işinə yeni təhlükə: Muğanın özgə xalqlara qarşıdakı satışı" kitabında "Zaqafqaziyada yaşayan 1 milyon 300 min erməninin 1 milyonu əyalətin yerli əhalisi olmayıb, bizim tərəfimizdən köçürülüb" fikrinə əsaslanaraq onların Qarabağ bölgəsinin yerli əhalisi olmadığını sübut edir[13]. O, ermənilərin böyük dövlətlərin əlində siyasi alət olduğunu faktlarla göstərir, yaranmış hərbi-siyasi şəraitdən onların hər zaman istifadə etməyə cəhd etdiklərini göstərir.

Müstəqillik ərəfəsində mənbələrin toplanması, tərcüməsi və nəşrinə diqqət artmışdır. Z.Bünyadovun redaktorluğu ilə "Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə" toplusunun nəşri bu istiqamətdə ilk addımlardan biri olmuşdur.Bu toplu erməni işğalının ideoloji əsaslarını ifşa etmək baxımından əhəmiyyətlidir və topluya Qarabağ tarixi ilə bağlı bir sıra məqalələr daxil edilmişdir. Burada İ.Əliyevin "Qarabağ qədimdə", X.Xəlilovun "Qarabağın etnik tarixindən", F.Məmmədovanın "Alban etnosu haqqında", P.Şükürovanın "İbrahimxəlil xanın Qarabağdakı mülkləri haqqında" sənədlər (qəbalə) toplanmışdır. Sovet dövründə ilk dəfə Ə.Qubaydulin aqrar münasibətlərə və kənd təsərrüfatının vəziyyətinə dair yazdığı məqalələrində Qarabağ xanlığının sosial-iqtisadi həyatını tədqiq etmişdir.

Dövrün tədqiqatlarında 1905-ci ilin erməni-Azərbaycan münaqişəsi azərbaycanlıların ümummilli mübarizəsi konteksində dəyərləndirilirdi. Azərbaycan burjuaziyasının, o cümlədən milli burjuaziyanın fəaliyyəti zəif öyrənilmişdir.

Beləliklə, qeyd etmək lazımdır ki, XX əsrin 70-80-ci illərində Azərbaycan tarix elmində böyük uğurlar əldə edilmişdir.Lakin milli burjuaziyanın sahibkarlıq fəaliyyəti, milli burjua ziyalılarının yaranması, milli-azadlıq hərəkatı, milli partiya və təşkilatların yaranması, müsəlman-türk qırğınları və s. tariximizin ağ ləkələri sayılır. Bu mövzuların işlənməsi Moskva tərəfindən yasaq edilmiş, ya saxtalaşdırılmış, ya da təhrif olunmuşdur.

## Ədəbiyyat

1.Axundov, N. Qarabağ salnamələri. Bakı:-1989
2.Cəmşidov Ş. İbrahim xan Şuşa qalasını nə üçün tərk etmişdi? //Azərbaycan gəncləri qəzeti, 1974
3.Xəlilov, X. Qarabağın etnik tarixindən //Azərbaycan SSR EA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası.,1988 №3
4.Kommunist.- 2 noyabr 1971-ci il.
5.Qaffarov, T. Azərbaycan tarixi (1920-1991). Bakı: - 1999.-280 s.
6.Qeybullayev, Q.Qarabağ (etnik və siyasi tarixinə dair). Bakı:- 1990
7.Muradəliyeva, E.B. XIX əsrin ikinci yarısında Şimali Azərbaycan şəhərləri. Bakı: -Bakı Universiteti,-1981.- 277 s.
8.Авалов, Э.В. Архитектура города Шуши. Баку, 1977
9.Алиев, И.Г. Нагорный Карабах:История.Факты. События. Баку: -1989.
10.История Азербайджана по документам и публикациям. Под ред. З.М.Буниятова. Баку:- Элм,- 1990
11.Помпоев, Ю.А. Кровавый омут Карабаха. Баку:-Азербайджан, -1992. 208 с.
12.Саламзаде, А.В. Авалов, Э.В. Салаев, Р.Д. Проблемы сохранизации и реконструкции исторических городов Азербайджана. Баку:- 1979
13.Шавров, Н.Н. Новая угроза Русскому Дълу въ Закавказьъ: Предстоящая Распродажа Мугани Инородцамъ. С.-Петербургъ. Типографія Редакціu періодическихъ изданій Министерства Финансовъ.1911.Баку: - Элм, - 1990. - 156 с.

# XVII ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİNİN ƏSGƏRİ TƏŞKİLATI (PYETRO DELLA VALLENİN "SƏYAHƏTNAMƏ" Sİ ƏSASINDA)

**Həcər Əhmədova**
**Bakı Dövlət Universiteti**
**hajarqahmadova@gmail.com**

**Açar sözlər:** Şah I Abbas, Pyetro Della Valle, qızılbaşlar, qorçular, qulamlar, topçular, tüfəngçilər

**Xülasə**

*Azərbaycan Səfəvi dövlətinin əsgəri təşkilatı haqqında aparılmış tədqiqatlardan belə qənaətə gəlmək mümkündür ki, Şah I Abbasın (1587-1629) hakimiyyəti dövründə həyata keçirilmiş ordu islahatı Səfəvi hərbi təşkilatını mükəmməl bir səviyyəyə çatdırdı. Şah I Abbas Səfəvi ordusunu Osmanlı nümunəsində yenidən komplektləşdirdi. Məhz Səfəvilərin XVI əsrdə itirdiyi torpaqların yenidən geri qaytarılmasında və imperiyanın əvvəlki qüdrətinin bərpa olunmasında Şah I Abbasın hərbi islahatının əhəmiyyətli dərəcədə təsirləri oldu. İstər dövrün Avropa səyyahlarının əsərlərində, istərsə də bugünkü tarixşünaslıq əsərlərində məsələ ilə bağlı tutarlı faktları misal gətirdik. Xüsusən italyan səyyah Pyetro Della Valle dostuna yazdığı məktublarda qeyd etdiyimiz dövrlə bağlı geniş məlumatlar əks etdirmişdir. Şah I Abbasın bəzi hərbi yürüşlərində iştirak etmiş səyyah Səfəvi ordusu haqqında dəyərli məlumatlar vermişdir.*

## ВОЕННАЯ ОРГАНИЗАЦИЯ СЕФАВСКОГО ГОСУДАРСТВА АЗЕРБАЙДЖАН В НАЧАЛЕ XVII ВЕКА (НА МАТЕРИАЛЕ "ПУТЕШЕСТВИЯ" СИ ПЬЕТРО ДЕЛЛА ВАЛЛЕ)

**Хаджар Ахмедова**

**Ключевые слова:**Шах I Аббас, Пьетро делла Валле, гызылбаш, горчу, гулами, артиллеристы, стрелки.

**Резюме**

*Из проведенных исследований военной организации Сефевидского государства Азербайджана можно сделать вывод, что армейская реформа, проведенная во время правления шаха I Аббаса (1587-1629), довела сефевидскую военную организацию до совершенного уровня. Шах Аббас I перестроил армию Сефевидов по османскому образцу. Военная реформа шаха I Аббаса оказала значительное влияние на восстановление земель, утраченных Сефевидами в XVI веке, и восстановление былого*

*могущества империи. Как в трудах европейских путешественников того времени, так и в современных историографических работах мы приводили примеры соответствующих фактов по данному вопросу. В частности, итальянский путешественник Пьетро Делла Валле в своих письмах к другу предоставил обширную информацию об упомянутом периоде. Путешественник, участвовавший в некоторых военных походах шаха I Аббаса, дал ценные сведения о сефевидской армии.*

## MILITARY ORGANIZATION OF THE SAFAVID STATE AT THE BEGINNING OF THE XVII CENTURY (BASED ON TRAVELING OF PIETRO DELLA VALLE)

**Hajar Ahmadova**

**Key words:** Shah I Abbas, Pietro Della Valle, golden gizilbashlar, gorchular, gulamlar, topchular (artillerymen), tufenkchiler (riflemen)

**Summary**

*From the research conducted on the military organization of the Safavid state of Azerbaijan, it is possible to conclude that the army reform carried out during the reign of Shah I Abbas (1587-1629) brought the Safavid military organization to a perfect level. Shah Abbas I rebuilt the Safavid army on the Ottoman model. The military reform of Shah I Abbas had a significant impact on the restoration of the lands lost by the Safavids in the 16th century and the restoration of the former power of the empire. Both in the works of European travelers of the time and in today's historiographical works, we have given examples of relevant facts on the issue. In particular, the Italian traveler Pietro Della Valle provided extensive information about the mentioned period in his letters to his friend. A traveler who participated in some military campaigns of Shah I Abbas gave valuable information about the Safavid army.*

XVII əsrin əvvəllərində Azərbaycan Səfəvi dövlətinin əsgəri təşkilatı haqqında danışarkən ilk növbədə Şah I Abbasın (1587-1629) hərbi sahədə həyata keçirdiyi islahatlar nəzərdə tutulur. Səfəvi hökmdarı Şah I Abbasın daxili və xarici siyasətdə əldə etdiyi nailiyyətlər hər şeydən öncə, həyata keçirdiyi uğurlu islahatların nəticəsi olmuşdur. Bu islahatlar içərisində ən önəmlisi isə hərbi sahədə qazanılmış qələbələrin birbaşa mənbəyi olan ordu islahatıdır. Azərbaycan tarixşünaslığının banisi olan Abbasqulu ağa Bakıxanov “Gülüstani-irəm” əsərində qeyd etmişdir: “ Şah Abbas məmləkəti abad etmək və rəiyyətin asayişinə baxmaq işlərində dünyada məşhurdur. Qoymuş olduğu bir çox mülki və əsgəri qanunlar, İran şahları üçün rəhbər olmuşdur. Sultanların

ləyaqətini onların xüsusi məziyyətlərinə görə təyin edən Avropa tarixçiləri belə, bu elmi sevən padşaha "Böyük" ləqəbi vermişdilər. O, xalq arasında indi də adil sifətilə tanınmaqdadır" [1,s.152].

Şah I Abbas hərbi islahat keçirib, yeni nizami ordu təşkil etmişdi. İ.P.Petruşevski bu barədə yazır ki, 44 min nəfərdən ibarət nizami qoşun yaradıldı. Topçu və tüfəngçilər farslardan, süvari qulamlar isə müsəlmanlığı zorla qəbul etdirilən, gürcü və çərkəzlərdən təşkil edilmişdi. Doğrudur, bu qızılbaş tayfaların, qeyri-nizami qoşununu (çəriyi) çox zəiflətdi, ancaq onların rolunu axıra qədər yox edə bilmədi. Lakin İ.Petruşevskinin tüfəngçi və topçuların farslardan təşkil edilməsi haqqındakı fikri dövrün mənbələrində bu barədə verilən məlumatlarla uzlaşmır [4,s.238].

Azərbaycan Səfəvi dövlətinin əsgəri təşkilatı haqqında müxtəlif mənbələrdə, eləcə də tarixşünaslıq əsərlərində dəyərli məlumatlar verilmişdir. Belə mənbələrdən biri də italyan səyyah Pyetro Della Vallenin məktublar şəklində olan səyahətnaməsidir.

Pyetro Della Valle yazır: " Şah adamları ilə birlikdə ayaqqabılarını çıxarıb divanxanaya daxil oldu. Ayaqqabıları çıxarmaq yalnız hörmət əlaməti olaraq deyil, təmizlik və rahatlığa görədir. Onlar ancaq çöldə gəzəndə ayaqqabıdan istifadə edirdilər. Şah divanxanaya daxil olanda yanımdakılar mənə işarə etdilər. Sol tərəfimdə corci-basci (korçubaşı) dayanmışdı. Korçubaşı ən yüksək hərbi vəzifə hesab edilirdi. Əyalətlərdə olan yüzbaşı, minbaşı kimi vəzifələr korçubaşına tabe idi. Bunlar yüksək vəzifələr hesab olunurdu və qızılbaşlar bu vəzifələrə təyin edilirdi. Korçubaşı yanıma gəldi və sanki mənə dəstək olaraq əlini qolumun altına tutdu" [10,s.648].

Pyetro Della Vallenin qeydləri haqqında tədqiqat aparan görkəmli alimlərimizdən biri, tarix elmləri doktoru, professor Zabil Bayramlı "Azərbaycan Səfəvi dövlətinin əsgəri təşkilatı" adlı məqaləsində qeyd etmişdir:" Pyetro della Valleyə görə, qorçu termini türk dilindəki "qorumaq" sözündən əmələ gəlib və "qoruyan, gözləyən, qayğı göstərən" mənasını ifadə edir. Qorçular Qızılbaş olub xan, sultan deyil, birbaşa Şaha tabedirlər" [6,s.1].Eyni faktlara Zabil Bayramlının " Azərbaycan Səfəvi imperatorluğu: Dövlət quruluşu" əsərində rast gəlmək mümkündür. Qorçularla bağlı Pyetro Della Vallenin qeydləri İdris Abbasov və Günel Bayramovanın həmmüəllif olduqları "Türk dilinin qrammatikası" adlı əsərində də təsdiq olunur.

Tavernyenin gündəliyində qorçuların mənsub olduğu türk ellərinin həyat tərzi ilə bağlı nöqsanlara baxmayaraq onların hərbi keyfiyyətləri, Şah I Abbasın dövründə onlara münasibət və təminatları tarixi həqiqətə uyğun bir səpkidə təsvir olunmuşdur. O yazır ki, hamısı süvari olan qorçulara cirə və yaxşı məvacib verilir. Bəzən qorçuların içindən elə şəxslər çıxır ki, onlar ölkənin ali idarəsində yüksək vəzifəyə sahib olurlar. Adətən onları "qızılbaş" adlandırırlar. Deyirlər padşahın 22 min qorçusu var ki, hamısı cəsarətli, igid olub, müharibə

meydanında heyranedici hünərlər göstərirlər. Şah I Abbas bu qoşunu aradan götürüb onların yerində qulamları yerləşdirmək üçün çox çalışmışdı, çünki onlardan qorxurdu və bəzən yaxınlarına deyirdi ki, yalnız qorçular ölkə iqtidarına qarşı çıxıb ona müqavimət göstərə bilər. Bu səbəbə görə də, onların bəzi imtiyazlarını ləğv edib qulamlara verdi. Ancaq bu iş tez dayandı, o, öz arzusunu tamamilə və vaxtında həyata keçirə bilmədi. Qorçuların sərdarı qorçubaşı adlanır və onların özlərindən olurdu. Şah başqa tayfalardan onlara sərdar təyin edə bilməzdi [4,s.233]. Qorçu alayı minbaşı, yüzbaşı və onbaşıların başçılıq etdiyi minlik, yüzlük və onluqlara bölünürdü. Qorçubaşı ildə 150 tümən, minbaşı 70 tümən, yüzbaşı 30 tümən, onbaşı 15 tümən məvacib alırdı. Sıravi süvarinin hər birinə isə 10 tümən və ya 15 tümən verilirdi. Bundan əlavə, hər üç ildən bir şahın iştirakı ilə qorçuların paradı, yaxud onlara ümumi baxış keçirilirdi ki, bu zaman onlara məvaciblərinin üçdə bir hissəsindən çox ənam verilir. Bu ənam birinə az, birinə çox, xülasə hər kəsə qabiliyyəti və bacarığına görə ödənilir. Şah böyüklərdən birini öldürmək istəyəndə bu işi qorçulardan biri yerinə yetirirdi [4,s.234].

Pyetro Della Valle qeyd edir: "Şah yaxşı idarəçidir və əsgərlərinə tez-tez məvacib verməməyi xoşlayır ki, başlarını asanlıqla qaldıra bilməsinlər. Həm də məqsəd onların çox pul xərcləməməsi idi. Düşünürdü ki, az miqdarda pul onlar üçün kifayətdir" [10,s.144].

Pyetro Della Valle həmçinin fars dilindən daha çox rəsmi dairələrdə türk dilindən istifadə olunduğunu qeyd etmişdir. "Sizə bir məqamı da deyim ki, əvvəllər yazdığım məktubda da göstərdiyim kimi, Persiyada türk dili hamı tərəfindən istifadə olunur. Bəlkə də fars dilindən çox bu dildə danışılır. Bu, özünü ən çox da saray və yüksək dairələrdə biruzə verir. Buralara daha yaxşı bələd olduqdan sonra bunun səbəbini deyə bilərəm. Ona görə yox ki, persiyalılar (biz onlara farslar deməyəcəyik, çünki o dövrlərdə Persiyada yaşayanlar və ümumən, o ərazilərdə məskunlaşanların hamısını fars adlandırmaq olmaz) türk dilinə öz dillərindən çox hörmət bəsləyirlər. Persiya ordusu,demək olar ki bütövlükdə türk mənşəli qızılbaşlardan ibarətdir. Şahın müxtəlif millətlərdən olan xidmətçiləri türk dilində danışır, hətta fars dilini bilmirlər. Buna görə də, təkcə yüksək rütbəlilər deyil, elə şahın özü də hamı tərəfindən başa düşülsün deyə türkcə danışır. Buna görə də, bu dil bütün sarayda, qadınlar və ümumən camaat arasında danışılır. Ölkənin zadəgan zümrəsi olan ordu türk dilində danışdığından əhali arasında bu dil ehtiramla qarşılanır. Bununla yanaşı, yerli dil olan fars dili də hörmətli məqama sahibdir, qanun və sərəncamlar bu dildə verilir" [2,s.130]. Sarayda, orduda türk dilində danışılması faktını əksər mənbələr və bu mənbələri araşdıran tarixçilər təsdiq edir. Alman səyyahı Engelbert Kempfer yazır ki, cəsarətləri ilə şöhrət qazanmış, boylu-buxunlu qorçular türk soyundandırlar. Səfəvi dövlətinin idarəsində güc və söz sahibi olan qorçuların soykökü haqqında Engelbert Kempferin dəyərli məlumatı

fransız səyyah Jan Şardenin yuxarıda qeyd olunan fikrinin doğruluğunu təsdiq edərək tamamlayır [4,s.233]. 1617-ci ildə Qəsri-şirin istiqamətindən Səfəvi ərazisinə daxil olaraq qızılbaş əsgərləri ilə yol gedən Pyetro Della Valle yazır ki, onların hamısı öz aralarında türkcə danışırdılar, bu dil Səfəvi dövlətində fars dilindən daha çox işlənir, dövlət və hərb dilidir. Pyetro Della Valle bunun səbəbini ordunun, əyanların, dövlət məmurlarının türk soylu olması, türk dilinin hərb dili olması ilə izah etmişdir. Səyyah təbəələrin Şah I Abbasa çox inanmaları, onun başına and içmələrini, Həmədanda bir nəfərin digərinə müəyyən bir şey diləmək istədikdə türkcə "Şah Abbas muradını versin" deməsini xüsusi vurğulamışdır. Pyetro Della Vallenin yazdığına görə, qızılbaş əsgərlərinin hamısı təmiz türklərdir, qeyri-türk millətlərin üstünlük təşkil etdikləri qulamlar isə türkcədən başqa dil bilmirlər, zabitlər, əmirlər və şahın göstərişi və əmrləri də türk dilində verilir [3,s.43].

İsgəndər bəy Münşinin tüfəngçilər haqqında qeydlərindən açıq şəkildə aydın olur ki, bu alaylar yaradılarkən onların əsgərlərinin etnik kimliyi nəzər alınmamış, vilayətlər üzrə təşkil edilmişdi [4,s.238].Tüfəngçilər şaha məxsus qoşun növü olub, əsgərləri rəiyyət və əkinçilərdir ki, xışın arxasından gətirib onları tüfəngçi ediblər. İlk vaxtlar onlar mahallar üzrə səfərbər edilirdi və ilboyu maaş aldıqlarına görə ehtiyac olan kimi dərhal təyin olunmuş hərbi xidmət yerinə gəlirdilər. Onlar əvvəllər piyada qulluq edir, ancaq hər dörd və ya beş nəfərinə azuqə və sursatlarını daşımaq üçün bir qatır, yaxud yabı verilirdi. Savaşlar zamanı qoşunun hərəkət məsafəsinin uzaqlığı və çevik hərəkəti nəzərə alınmış və onların hər birinə at verilmişdir. Onların hər yüz nəfərinin rəisi yüzbaşı və ümumi başçıları tüfəngçibaşı adlanırdı[4,s.239].Yüksək rütbəli tüfəngçilər illik 4-5 tümən məvacib alırdı. Pyetro Della Valle qeyd etmişdir ki, tüfəngçilərin ümumi sayı 20000 nəfərdir. Tavernyeyə görə, 40000-50000, E.Kempferə görə 50000, Şardenə görə isə 12000 nəfər olmuşdur [4,s.239].

Cemelli Kareri isə tüfəngçilərin ümumi sayının 50000 nəfər olduğunu bildirərək yazırdı ki, onların çoxu kənd əhlidir və silahları qılınc və tüfəngdən ibarət olub, hər biri ildə 4, yaxud 5 tümən maaş alır. Əyalət xanları ayda bir dəfə onları təlim-məşq keçməyə vadar edirlər ki, onlar silah işlətməkdə çox bacarıqlı olmuşdular. Onların əmirlərinə tüfəngçibaşı deyirlər [4,s.239]. Tavernye qeyd etmişdir ki, daim hərbçilər tüfəngçi alayının cəsarətinin olmadığını söyləyərək döyüşə çıxa bilmədiklərini məsxərəyə qoymuşlar. Lakin fransız səyyah tüfəngçilərin yaxşı döyüşçü olduğunu vurğulamışdır. Silahları uzun və qısalüləli fitilli tüfənglərdən ibarət olub, bu tüfənglərin lüləsinə bərkidilmiş dirsək qundağa bağlanılırdı. Tüfəngçi at, yaxud ayaq üstə, uzanmış halda dirsəyi lülədən açıb dayaq kimi istifadə edir və rahat atəş aça bilirdi [4,s.240].

"Təzkirətül-müluk" da "qulamane sərkare xassey-i şərifə" adı ilə göstərilən hərbi alay isə dövrün başqa qaynaqlarında, elmi ədəbiyyatlarda qulamla

bərabər “qullar” adı ilə qeyd olunmuşdur [4,s.240]. Şarden yazır ki, onlara qul deyildikdə, bu onların digər hərbi alay əsgərləri ilə müqayisədə azadlıqlarının məhdud olması mənasını ifadə etmir. Əksinə Şah I Abbasın bu seçmə alaya o qədər hüsn-rəğbəti vardı ki, onları özünün “süvari yeniçəriləri” adlandırırdı [4,s.240]. Pyetro Della Valle Şah I Abbasın qulamları tüfənglə də təchiz etməyə çalışdığını qeyd etmişdir. Çünki bu dövrdə artıq soyuq silahlar öz əhəmiyyətini itirmişdi. Qulamlar hərbi hazırlıqlarına görə qorçulardan o qədər fərqlənməsələr də, sayları onlardan bir qədər az idi. Onlar şahın nəzarəti altında təlim keçir və şahdan savayı heç kimə tabe deyildilər. Şahı qoruyan qulamların arasında əqrəbalıq əlaqələri olmadığına görə, onların birliyi və dövlətə qarşı çıxması da mümkün deyildi. Qulamlar hərbi xidmətə ömürlük qəbul olunur və onlar hərbi xidmətdən imtina edə bilməzdilər. Onlar şimal ölkələri, yəni V.Minorskinin qeyd etdiyi kimi, Gürcüstan, Şimali Qafqaz əhalisi içərisindən kiçik yaşlarında ələ keçirilmiş uşaqlardan ibarət olub, islam dini qəbul etdirildikdən sonra təlim-tərbiyələri xüsusi qaydada yerinə yetirilirdi. Belə ki, Səfəvi ölkəsinə gətirilən uşaqların yaxud da burada yaşayan xristian ailələrinin uşaqlarından da seçilirdilər [4,s.240]. Onların içərisində yetkin yaşında olub, maddi marağına uyğun olaraq şahın hərbi xidmətinə könüllü gəlib, islamı qəbul edən gürcülər də vardı. Qulamların çoxunun ata-babaları xristian olub birinci, yaxud ikinci nəslə islam qəbul etdirilmişdi. F.Sümer yazır ki, Şah I Abbas kölələri tədarük edib yetişdirmək üçün bir təşkilat da qurdu. Bu, yeniçəri ocağının daha kiçik nisbətdə bir bənzəri idi. Bu ocağın rəisinə qullarağası deyilirdi [4,s.241]. Pyetro Della Valle qeyd etmişdir ki, qulların sayı 30000 idi. Şarden bu sayın 10000, E.Kempfer isə 15000-18000 nəfər olduğunu yazır. Tavernye də eyni məlumatı gündəliyində əks etdirmişdir. O, yazır ki, yeni qoşun növü olan qulamların rəisi qullarağası adlanırdı. Qullarağası qulamların başçısıdır. Bu qulamların hamısı şahın qızılla aldığı nökərləridir. Onlar müxtəlif tayfa və millətlərdən olub, nəsilbənəsil qulam adlanırlar. Şah onların xidmətindən çox razıdır və onlara etimadı var. Onların çoxu isə müsəlmanlığı qəbul etmiş gürcülərdir. Ümumilikdə, qulamların sayı 18000 nəfərə çatır və hər biri 5 və ya 8 tümən məvacib alır, hamısı süvaridir [4,s.241]. Cemelli Kareri hər qulamın illik məvacibinin 6-7 tümən olduğunu qeyd edir. Şardenə görə isə qulamların illik məvacibi 6-10 tümən və tüfəngçilərinki isə bunun yarısı qədər olub, hər iki alayın əsgəri heyətinə dövlət karxanasında hazırlanmış, üzərində xüsusi nişan olan silahlar pulsuz verilir, ancaq onlar paltarı öz hesablarına alırdılar. Tavernyeyə görə, qulamlarla müqayisədə qorçular ağıllı, yüksək fikirli adamlar idilər. Onlar məvaciblərini boş yerə sərf edən qulamlardan fərqli olaraq pul yığır, qoyun və keçi alırdılar. Tavernye bunu onların köçəri olub mal-qara, qoyun və başqa heyvanlardan ibarət var-dövlətlərinin olması ilə əlaqələndirir [4,s.242].Qulamlar müxtəlif xalqlardan olduqlarına görə, onların arasında birlik yox idi. Şah istədiyi vaxt onları öz əlləri ilə cəzalandıra və tənbeh də bilir.

Onların hansına işarə etsə, dərhal özünün irəliləyişi xatirinə dostunun başını kəsər, yaxud onu bəlaya düçar edər. Qulamların silahları qılınc, ox-kamandan ibarət olub, bəzilərinin qolçağı, zirehi və təbərzini də vardır. Onların bu ölkədə yeri-yurdu olmadığına görə, məkan və yerlərini təyin edən yurdçuları da yox idi. Ona görə də onlar rast gəldikləri istənilən yaxşı yerdə yerləşib çadırlarını qururdular [4,s.242].Pyetro Della Valle də qulamların qeyri-türklərdən təşkil edildiyini qeyd edir və onların türk dilində danışmasını və bu dilin yüksək nüfuzundan xəbər vermişdir.Hətta o qeyd etmişdir ki, onlar fars dilindən heç nə bilmirlər.Pyetro şahdan məvacib alan ordunun ümumi sayının 100000 olmasından danışır ki, onun 30000 nəfəri sərhəddə mühafizə xidmətində olub, buranı heç vaxt tərk etmirdi. Yerdə qalan 70000 nəfərlə birlikdə, zabitlərin ailəsi, xidməti heyəti nəzərə alınsa, ordunun ümumi sayı 200000-300000 nəfərə çatır [4,s.251]. Şardenə əsasən Şah I Abbasın vəfatı əsnasında sarayı qoruyan 10000 nəfər istisna olmaqla, ordunun ümumi sayı 120000 nəfərdən ibarət olub, onun 50000 nəfərini üç yeni alay təşkil edirdi. Bu vaxt sarayı qoruyan 10000 nəfər nəzərə alınmadıqda, vilayət qoşunlarının sayı 70000 nəfərdən çox deyildi[4,s.251].

I Şah Abbasın zamanında Səfəvi məmləkətində olan Pyetro della Valle bu 32 el və obanın on altısının sağ qolu, on altısının da sol qolu təşkil etdiyini yazır. Pyetro yazır ki, hər bir qızılbaş azad, yəni sərbəst olub, istədiyi vaxt öz maaşına göz yuma, yaxud xidməti yerini dəyişə bilərdi. Ancaq müharibə vaxtı başçıya, yəni maaş verənə sözsüz tabe olmalı və hərbi qanun-qaydada əməl etməyə borclu idilər. Əsgərlərin hər birinin illik maaşı 5 tüməndən az olmurdu ki, bu yaxşı at almağa və bir il dolanışığa tam çatırdı. Qoşunun komanda heyəti və məmurların maddi durumu daha yaxşı olub, onlar xidmət dərəcəsinə görə məvacib alırdılar. Orduda elə adlı-sanlı adamlar vardı ki, onların illik maaşı 300-400 tümənə çatırdı[6,s.1].

Şah I Abbasın islahatları dövlətin möhkəmləndirilməsində əhəmiyyətli dərəcədə rol oynadı. Tarix elmləri doktoru, professor Zabil Bayramlı və Boran Əzizin həmmüəllif olduqları “Azərbaycan Evliya Çələbinin 1654-cü il səyahətnamə” sində adlı əsərində qeyd edir ki, 1618-c ilin yazında Xəlil paşanın türk və tatar qoşunu Azərbaycana daxil olub Təbrizə doğru irəlilədi. İspaniya elçisi don Qarsiya de Silvanın gündəliyində də qeyd olunur ki, Qəzvin şəhərindən Təbrizə qədər Səfəvi qoşunu yerləşdirilməsinə baxmayaraq, şah Təbriz və Ərdəbil şəhərlərinin ətrafındakı qala divarlarının dağıdılması, əhalisinin isə Mazandarandakı Fərəhabada köçürülməsi əmrini vermişdi. Hətta Ərdəbil türbəsinin qiymətli əşyaları, ata-babalarının sümükləri də həmin şəhərə köçürülməli idi. Elçiyə görə, şahın bu əmri Ərdəbildə ciddi narazılıqla qarşılanmışdır. Qarçiqay xanın ordusu ilə Təbrizin əhalisi təhlükəsiz yerlərə köçürüldükdən sonra şəhərdən çıxdı. Təbrizi müqavimətsiz tutan Osmanlı ordusu Şərqə doğru hərəkət etməyə başladı. Bu zaman onların yaxınlaşdığını

öyrənən Şah Abbas Ərdəbil əhalisini də başqa yerə köçürdü. Bir tərəfdən savaş gedir, digər yandan tərəflər arasında sülh danışıqları da davam edirdi. Ancaq bu danışıqlara baxmayaraq osmanlılar və Krım tatarları Səfəvilərin əsas qüvvəsinə həlledici zərbə vurmağa çalışırdılar. Lakin savaş qaydalarını gözəl bilən Şah Abbas Osmanlı ordusunu boşaldılmış bölgələrdə çətin yollarla arxasınca aparıb yorurdu[5,s.23]. Səfəvi ordusunun güclü olmasından bəhs edən Evliya Çələbi Səfəvilərlə Osmanlılar arasında baş vermiş Sərab düzü döyüşündə osmanlıların 26000 əsgər öldürdüyünü göstərir [7,s.72].

Beləliklə, Şah I Abbas hərbi islahatında Osmanlı dövlətinin yeniçəri hərbi institutunu örnək qəbul edərək, qulam, tüfəngçi nizami alaylarını yaratmış və bir qədər sonra isə topçu takımını da təşkil edib, əsgəri təşkilatı təkmilləşdirərək dövləti hərbi-siyasi baxımdan gücləndirməyə müvəffəq olmuşdur. Şah I Abbas islahatları və daxili siyasətindəki uğurları sayəsində bir tərəfdən bürokratik dövlət aparatını genişləndirmiş, digər tərəfdən mərkəzi hakimiyyəti möhkəmləndirməyə müvəffəq olmuş və onun türk əmirlərindən ibarət olan mərkəzi və yerli idarələrə qeyri-türk elementlərini də qismən cəlb etməsi dövlətin cənub, cənub-şərq bölgələrindəki mərkəzdənqaçma hərəkatlarının qarşısının alınması işinə xidmət etmişdir [3,s.120].

İtalyan səyyah Pyetro Della Vallenin "Səyahətnamə" si Azərbaycan Səfəvi dövlətinin XVII əsrin əvvəllərindəki əsgəri təşkilatının araşdırılması və Şah I Abbas islahatlarının tədqiqi baxımından unikal mənbədir.

**Ədəbiyyat**


1. Abbasqulu ağa Bakıxanov. Gülüstani-irəm. Bakı,2019
2. Abbasov İdris, Bayramova Günel. Türk dilinin qrammatikası, Bakı,2020
3. Bayramlı Zabil, Şabıyev Bəymirzə. Azərbaycan Səfəvi dövləti (XVI-XVII əsrlər). Bakı,2016
4. Bayramlı Zabil. Azərbaycan Səfəvi imperatorluğu: Dövlət quruluşu. Bakı,2020
5. Bayramlı Zabil, Əziz Boran. Azərbaycan Evliya Çələbinin 1654-cü il Səyahətnaməsində. Bakı,2000
6. Bayramlı Zabil. Azərbaycan Səfəvi dövlətinin əsgəri təşkilatı. Azgundem.az
7. Çələbi Evliya. Səyahətnamə yeddinci cild. İstanbul,1970
8. İsgəndər bəy Münşi Türkman. Tarixe aləmaraye-Abbasi, fars dilindən çevirən: t.e.d, prof, Fərzəlibəyli Şahin. Bakı,2010
9. Məmmədova Şükufə. Xülasət-ət-təvarix Azərbaycan tarixinin mənbəyi kimi. Bakı,1991
10. Viaggi di Pietro della Valle, il pellegrino part II, The New York library,reference department

# ŞUŞA MAARİF SİSTEMİNİN YETİŞDİRDİYİ İCTİMAİ-SİYASİ XADİMLƏR

**Zakir Kərimov**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**Zakir.Kerimov.1955@mail.ru**

***Açar sözlər:****Şuşa şəhəri,işğal,maarif,xadimləri.*

**Xülasə**

*Şuşa Azərbaycanın ən gənc şəhərlərdəndir,ərazicə çox böyük deyil. Lakin Azərbaycanın sosial-siyasi ,iqtisadi və mədəniyyət tarixində nüfuzlu çəkiyə malikdir.Şəhər həqiqi mənada Azərbaycanın mədəniyyət beşiyidir, mədəniyyətimizə korifey sənətkarlar bəxş etmişdir.Bu şəhərin yetişdirmələri olan ictimai-siyasi xadimlər Azərbaycan naminə,onun azadlığı və tərəqqisi uğrunda böyük fədakarlıq göstərmişlər,mübarizənin ön cərgəsində olmuşlar. Bu məqalədə həmin şərəfli insanların bəziləri-Ə.Mehmandarov, Ə.Ağaoğlu, Ü.Hacıbəyov, S.S.Axundov, S.Vəlibəyov və F.Köçərlinin fəaliyyətindən qısaca bəhs olunur.*

# ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИЕ ДЕЯТЕЛИ, ПРОШЕДШИЕ ОБУЧЕНИЕ В СИСТЕМЕ ОБРАЗОВАНИЯ ШУШИ

**Закир Керимов**

***Ключевые слова:*** *город Шуша, оккупация, просвещение, деятели.*

**Резюме**

*Шуша – один из самых молодых городов Азербайджана, его площадь не очень велика.Однако он имеет влиятельный вес в общественно-политической, экономической и культурной истории Азербайджана. Город является колыбелью культуры Азербайджана в подлинном смысле, он дал нашей культуре прославленных деятелей искусства. В этой статье kpaтко упоминается деятельность некоторые из этих почетных люди - А.Мехмандаров, А.Агаоглу, У.Гаджибеков, С.С.Ахундова, С.Велибекова и Ф.Кочарли.*

# SOCİO-POLİTİCAL FİGURES TRAİNED BY THE SHUSHA EDUCATİONAL SYSTEM

**Zakir Karimov**

***Key words:*** *Shusha city, occupation, enlightenment, figures*

**Summary**

*Shusha is one of the youngest cities in Azerbaijan, its area is not very large.However, it has an influential weight in the socio-political, economic and cultural history of Azerbaijan. The city is the cradle of culture of Azerbaijan in the true sense, it has given our culture illustrious artists. In this article, some of those honorable people - A. Mehmandarov, A. Agaoglu, U. Hajibeyov, S. S. Akhundov, S. Valibeyov and F. Kocharlithe activities of are briefly mentioned.*

**Giriş**

Şuşa təkcə şuşalılar üçün deyil,bütün azərbacanlılar üçün əziz bir şəhərdir,əziz bir torpaq,əziz bir qala,əziz bir abidədir(H.Əliyev).

Şuşa! Bu ad nəqədər əziz, doğma, munis və mehriban bir ana-vətəndir. Şuşa o qədər gözəl bir yerdir ki, onun adı qarşısında daima diz çökərək xaki-payını hörmətlə öpmək mənim ən müqəddəs vəzifəm olub. Bu şəhər uğrunda hər bir varlıqdan: candan, maldan, həyatdan və sairədən keçmək, al qanlara bulanmaq, məhv olmaq mənim üçün ən müqəddəs bir səadət və şərəfli bir haldır[8,s.311].

Bu emosional sətirlər əslən şuşalı, şair, dramaturq, nasir, “Şuşanın tarixi” əsərinin müəllifi Həsən İxfa Əlizadəyə (1893-1972) məxsusdur.

Müəlifin söylədiklərini 2020-ci il noyabrın 8- də qəhrəman Azərbaycan əsgəri öz canı-qanı bahasına Şuşanı Ermənistan ordusunun işğalından azad edərək gerçəyə çevirdi.

Şuşa şəhəri Vətənimizin sosial-siyasi və mədəni həyatına yüzlərlə istedadlı şəxs bəxş etmişdir.Onlardan bəzilərini qeyd edək.

Şuşada hökumət idarəsində kiçik məmur vəzifəsində çalışan Mirzə Mustafa bəyin ilki Əbdülkərim bəy (bəzi tarixi ədəbiyyatda Kərim bəy də yazılır) 1854-cü il dekabrın 2-də Şuşada dünyaya göz açmışdır. Bu şöhrətli ziyalı nəslin ailə ənənələrini davam etdirmək üçün o oğlu Əbdülkərim bəyi məktəb yaşına çatanda Şuşa qəza məktəbinə qoydu. Məktəbin əlaçı şagirdi olan bu uşaq Qarabağ məktəblərini yoxlayan dövrünün tanınmış pedaqoqu K. L. Çermakın diqqətini cəlb edir. Onun təkidli xahişindən sonra bu uşaq onun rəhbərlik etdiyi Bakı realnıməktəbinə oxumağa göndərildi. 1872-ci ildə tam orta təhsil alaraq buməktəbi qızıl medalla bitirən 18 yaşlı Əbdülkərim bəy Peterburq Hərbi Tibb Cərrahlıq Akademiyasına daxil olur.

O, tələbəlik illərində Peterburqun Ali Qadın Tibb Kurslarında təhsil alan və dostlaşdığı Aleksandra Mixaylovna Dolqanovla ilə evlənir. Bu izdivacdan 1882-ci ildən gələcəyin məşhur həkimi, akademik Mixail Dmitriyeviç Tuşinski – Mixail Əbdülkərim bəy oğlu Mehmandarov doğulur.

Əbdülkərim bəy təhsil illərində mütərəqqi fikirli tələbə-gənclərlə yaxından tanış olmuş və bu görüşlər, bu tanışıqlar onun dünyagörüşünün, ictimai-siyasi baxışının formalaşmasına, yeni əhval-ruhiyyəli bir gənc kimi yetişməsinə böyük təsir göstərmişdi.

Ə. Mehmandarov 1877-ci ildə Akademiyanı əla qiymətlərlə bitirib, təyinat üzrə Peterburq qospitalına göndərildi. O, sonralar imperiyanın müxtəlif hərbi qospitallarında çalışsa da öz xalqının tibb işçilərinə böyük ehtiyacı olduğunu nəzərə alıb mülki tibbi xidmətə keçir. Yelizavetpol quberniyasının Cavanşir qəzasına həkim göndərilir.

O, öz həyatını nəinki Qarabağ əhalisinin səhiyyə, həm də mədəni-maarif işlərinə və təhlükəsizliyinə həsr edir.

O, 1893-cü ildə vəba xəstəliyi ilə bağlı Tiflisdə keçirilən Qafqaz həkimlərinin I qurultayında iştirak edir, tibb xidmətini yarıtmazlığından bəhs edir, vəziyyəti düzəltmək üçün tövsiyələr verir.

1895-ci ildə Ə. Mehmandarov Şuşa qəzasında kənd həkimliyi vəzifəsinə dəyişildi və fəaliyyətini Ağdamda davam etdirdi. Burada kiçik bir stasionar-xəstələri qəbul otağı təşkil elədi, həmvətənlərinə tibb xidmət göstərdi. İki il müddətində Ağdamda səhiyyə sahəsində dönüş yaratdı. Sonra daha məsul vəzifəyə - Şuşa qəza həkimi vəzifəsinə irəli çəkildi və eyni zamanda Şuşa həbsxanası lazaretinin müdiri təyin edildi. 55 min əhalisi olan Şuşa qəzasında Əbdülkərim bəy yeganə həkim idi və ona ancaq iki feldşer kömək edirdi. O, mülki əhaliyə, hərbi vəzifəlilərə xidmət etməklə yanaşı, məhkəmə tibb işlərinin araşdırılması, müxtəlif epidemik xəstəliklərlə mübarizə aparırdı.

1897-ci ildə tibb fəaliyyətinin 20 illiyi münasibətilə Ə. Mehmandarov ikinci dərəcəli Anna ordeni ilə təltif edildi. Vətənpərvər və insanpərvər həkim Şuşa qəzasının 4 iri kəndində beş-altı çarpayılılıq stasionar açdı.

1905-ci ildə Qarabağda başlanan erməni-müsəlman davasında Ə.Mehmandarov birinci olaraq qabağa düşmüş, qeyrətli oğulları başına toplayıb Şuşanın müdafiəsini təşkil etmiş, camaatı kütləvi qırğınlardan qorumuşdu. O, qanlı döyüşlər gedə-gedə şəhərin müsəlmanlar yaşayan aşağı hissəsində xəstəxana və yetim qalmış uşaqlar üçün məktəb də açmışdı. O vaxtlar hələ çox gənc olan Yusif Vəzir Çəmənzəminlinin rəhbərliyi ilə realnı məktəbin bir neçə yuxarı sinif şagirdi həm təmənnasız xəstəxanada çalışır, həm də məktəbdə dərs deyirdilər.

1906- cı ilin əvvəlində Qarabağda ikinci dəfə erməni – müsəlman qırğını alovlanmağa başlayanda Bakıda görkəmli jurnalist və ictimai xadim Əhməd bəy Ağayev xalqı birləşdirmək, onu erməni bəlasından, rus süngüsündən

qorumaq üçün hərbi-siyasi təşkilat – “Difai” partiyası, yəni “Qafqaz ümum-müsəlman müdafiə komitəsi” yaratdı. Bu təşkilatın müxtəlif şəhərlərdə o cümlədən də, Şuşada şöbəsi açıldı. Ə. Mehmandarov onun sədri kimitezliklə qeyrətli vətən oğullarınıbir yerə yığaraq erməni və rus silahlı dəstələrinə qarşı mütəşəkkil mübarizə aparmağa başladı. Bunun nəticəsində Şuşada qanlı döyüşlər azərbaycanlıların qələbəsi ilə başa çatdı.Maraqlıdır ki,bəzi tədqiqatçılar “Difai”inin Şuşada yarandığı fikrini irəli sürürlər.

Ə. Mehmanarov dövrünün tanınmış ziyalıları Əhməd bəy Cavanşir, Mustafa bəy Behbudov, Nəcəf bəy Vəzirov, Cəlil Məmmədquluzadə, Əbdür-rəhim bəy Haqverdiyev, Həmidə xanım Cavanşir, Üzeyir bəy Hacıbəyov və başqaları ilə tez-tez görüşür, əhalinin mədəni səviyyəsini artırmaq üçün birgə yollar arayıb axtarırdılar. Xüsusilə də O, Həmidə xanımla sıx əlaqə saxlayır və camaatın xeyrinə olan tədbirləri birgə həyata keçirirdilər [4,s.92].

1911-ci ildə Ə. Mehmandarov Şuşa şəhər həkimi vəzifəsinə keçirildi.O, işini vicdanla, namusla yerinə yetirdiyi üçün 4-cü dərəcəli Vladimir ordeni və Romanovlar sülaləsinin 300 illik yubiley medalı ilə mükafatlandırıldı.

Ə. Mehmandarov “Şuşa Xeyriyyə Cəmiyyəti” nin sədri kimi geniş fəaliyyət göstərirdi.1911-ci ildə onun təşəbbüsü ilə Şuşada qız məktəbi açıldı.

Sovet hakimiyyəti qurulduqdan sonra da o həkimlik fəaliyyətini davam etdirdi.XX əsrin 20-ci illərində onun başçılığı altında Şuşa feldşerlik məktəbində 43 tibb işçisi və 70 sanitar hazırlanmış və çalışmaq üçün başqa qəzalara göndərilmişdi.Bu böyük ürəkli insan öz şəxsi maliyyə vəsaitindən xəstələrə pul yardımı da edirdi[4,s.93-94].

Ermənilərin təhriki ilə sovet inzibati orqanları tərəfindən təqib və işgəncələrə məruz qalan Ə. Mehmandarov 1929-cu il dekabrın 20-də vəfat etdi.Lakin ermənilər yenə də ondan əl çəkmədilər.1947-ci ildə Bakıda “Difai” təşkilatı üzvlərinin siyahısını tərtib etdilər. Ə. Mehmandarovu adını siyahının əvvəlinə yazdılar.Şuşalı azərbaycanlıların xahişi ilə XX əsrin 60-cı illərində Şuşa şəhər xəstəxanası və şəhərin küçələrinin birinə Ə. Mehmandarovun adı verildi.Ermənilərin onun adını götürmək cəhdi uğursuzoldu.

Ə.Mehmandarov xalq üçün çalışan şəxslərə yardım əlini uzadırdı. Xalq qəhrəmanı Salman Əlibəyov (1877-1919) Gəncə quberniyasının Cavanşir qəzasında kəndli ailəsində doğulmuşdur. O, Qarabağda öz dövrünün savadlı adamlarından idi.Kənd məktəbini qurtardıqdan sonra Qori müəllimlər seminariyasına daxil olur. Lakin inqilabı əhvali-ruhiyyəsinə görə“zərərli ünsür” kimi seminariyanın son sinfindən qovulmuşdur. S. Əlibəyov həmin gündən etibarən öz şüurlu həyatını Şuşa, Cavanşir, Gorus, Zəngəzur və digər qəzalarda kəndlilər arasında inqilabi işə həsr edir. Az sonra ələ keçən S. Əlibəyov Cavanşir qəzasına sürgün edilir. Mülkədarlar çar polisi ilə əlbir olub S. Əlibəyovu öldürmək istəyirdilər. Bundanxəbər tutan doktor Əbdülkərim bəy S. Əlibəyovu Şuşadan Zəngəzur qəzasına müəllim göndərməyə nail olur.

Burada da kəndlilər arasında iş apardığı üçün o, 1919-cu ildə bəylər tərəfindən öldürüldü[7,s.24].

Əhməd bəy Ağaoğlu 1869-cu ildə Şuşa şəhərində doğulmuşdur. Atası Qarabağın Qurdlareli tayfasından Mirzə Həsən bəy, anası Sarıcalı tayfasından Tazə xanım idi. Əmisi onun müctəhid kimi yetişdirmək istəyirdi, 6 yaşında ikən ona fars və ərəb dili müəllimləri tutub. Anası onu məmur kimi görmək istədiyi üçün ailədən gizli şəkildə evə rus dili müəllimi gətirib. Müəllim üç il ərzində rus dili ilə yanaşı hesab, tarix və coğrafiya fənlərini də öyrədib. Şuşada gimnaziya açıldıqdan sonra Əhməd bəy imtahan verərək 3-cü sinfinə daxil olub. Bu zaman o, 45 şagird arasındakı 3 türkdən biri idi, onların çoxu erməni idi.

Əhməd bəy 1886-cı ildə Şuşa gimnaziyasının 6-cı sinfini bitirib. Ali məktəbə daxil olmaq üçün 7 sinif şərt olduğu üçün bir il də Tiflis gimnaziyasında təhsil alıb. 1887-ci ildə gimnaziyanı bitirib Peterburqa yola düşüb, buradakı Texnologiya İnstituna girməyə hazırlaşır. Lakin bütün imtahanlardan uğurla keçsə də, onu yəhudi hesab edən müəllim cəbr imtahanından kəsib, bununla da Əhməd bəyin, Rusiyadakı təhsil həyatı baş tutmayıb. Bu hadisədən qəzəblənən Əhməd bəy Rusiyanı tərk edib ali təhsil almaq üçün Parisə yola düşür, 1888-ci il 8 yanvarda Parisə çatır[2,s.4].

Əhməd bəy Sorbonna Universiteti yanındakı Paris Hüquq Məktəbinin tələbəsi olur, eyni zamanda Ali Təcrübi tədqiqatlar məktəbində dövrün tanınmış alimlərinin mühazirələrinə qatılır. 1888-1894-cü illərdə Parisdə yaşayan Ağaoğlu, Ali Təcrübi Tədqiqatlar Məktəbi ilə yanaşı Canlı Şərq Dilləri Məktəbinin məşğələlərinə də qatılır, buradakı müəllimləri arasındakı Ceyms Darmstater, Pol Şeffer, Barbye de Meynard kimi tanınmış şəxslər olub.Onun Parisdə tanış olduğu şəxslər arasında məşhur islam dini-siyasi xadimi və filosofu Seyid Camaləddin Əfqani (1839-1897) də vardı.

1892-ci ildə Əhməd bəy şərqşünasların Londonda keçirilən IX konqresində iştirakçısı olub, şiəlik məzhəbinin İranın qədim dini təlimlərindən biri – məzdəkilərlə əlaqələrinə dair məruzə ilə çıxış edir. Əhməd bəy 1894-cü ildə o təhsilini bitirib Parisdən İstanbula gəlir, "İttihad və Tərəqqi"nin orqanı olan "Sureyi-ümmət" qəzetində məqalələrlə çıxış edir.Az sonra atasının ölümünü eşidib Qafqaza qayıdır, Tiflisə yerləşir,gimnaziyada fransız dilində dərs deyir. 1896-cı ildə Şuşa realni məktəbinin fransız dili müəllim təyin olunur. Burada el arasında "Firəng Əhməd" adlanır.

Əhməd bəy 1897-ci ildə H.Z. Tağıyevin dəvəti ilə Bakıya köçüb, "Kaspi" qəzetinin redaktoru olur, Ə. Topçubaşovla əməkdaşlığa başlayır.
1905-ci ildə Bakıda Əli bəy Hüseynzadə ilə birlikdə H. Z. Tağıyevin vəsaiti ilə "Həyat" qəzetini buraxmağa başlayıb. 1906-cı ildə "İrşad" qəzetini, Tərəqqi (rus və türkcə) qəzetini nəşr etdirib.

O eyni zamanda elmi yaradıcılıqla məşğul olur: “Axund və islam” ,“İslama görə və islamda qadın”,”Könülsüz olmaz”,”Dövlət və fərd”,”Sərbəst və azad insanlar ölkəsində” və başqa əsərlərini yazmışdır.Sonuncu əsərdə insanların azad və xoşbəxt yaşayacağı cəmiyyətin cizgilərini cızmış, xeyrixahlıq və xeyriyyəçilik haqqında düşüncələrini şərh etmişdir.

1905-ci ildə Əhməd bəy Peterburqa gedərək Rusiya müsəlmanlarının maraqlarını müdafiə edir.

20 fevral 6 mart 1906-cı ildə Tiflisdə Qafqaz canisini İ. Vorontsov – Daskovun sədrliyi altında keçirilən erməni müsəlman barışdırıcı qurultayında Azərbaycan nümayəndələri arasında yer almışdır.

1909-cu ildə Türkiyədə ikinci məşrutə elan edikdikdən sonra bu ölkəyə gedib İttihad və Tərəqqi cəmiyyətinə qoşulur,ictimai-siyasi həyatda fəal iştirak edir.Ə.Ağayev Bakını ışğal etməyə gələn Qafqaz İslam Ordusunun komandanı Nuru paşanın siyasi müşaviri kimi Vətənə gəlmişdir.1919-cu ildə ermənilərin təhriki ilə ingilislər tərəfindən Malta adasına sürğün edilmişdir. 1921-ci ildə ingilis əsirlərinə dəyişdirilərək azadlıq əldə etmişdir.Təzyiqlərə baxmayaraq ömrünün sonunadək insanların azadlıq və tərəqqisi uğrunda çalışmışdır.

Hacıbəyov (Hacıbəyli) Üzeyir Əbdül Hüseyn oğlu (18.IX.1885-23.XI.1948) Şuşa qəzasının Ağcabədi kəndində kənd mirzəsinin ailəsində anadan olmuşdur.

Valideynləri Ağcabədidən Şuşaya köcdükdən sonra ilk təhsilini buradakı ikisinifli rus-Azərbaycan məktəbində almışdır. Şuşanın musiqi-ifaçılıq həyatı Üzeyirin musiqi tərbiyəsinə müstəsna təsir göstərmişdir.

Qori müəllimləri seminariyasındakı təhsil illəri (1866-1904-cü illər) Üzeyir bəyin dünyagörüşünün formalaşmasında müstəsna əhəmiyyəti olmuşdur. Seminariya illərində dünya mədəniyyətinin mütərəqqi nailiyyətləri ilə yaxından tanış olmuş, musiqiçi təhsilinə yiyələnmişdir. Seminariya qurtardıqdan sonra 1904-cü ildən Hadrut (Ağoğlan) kəndinə müəllim kimi çalışmağa başlamışdır.

1905-ci ildə Üzeyir bəy Bakıya köçüb Bibiheybətdə, sonralar “Səadət” ruhani xeyriyyə cəmiyyətinin məktəbində dərs demişdir.

“Səadət” məktəbi(1908-1911) Bakıda “Səadət” müsəlman xeyriyyə cəmiyyəti tərəfindən açılmışdır. Ü. Hacıbəyov 1908-ci ilin yayında müsabiqə yolu ilə “Səadət” məktəbinə rus dili, hesab və təbiyyat müəllimi təyin olunmuşdu. Üzeyir bəyin qardaşı Ceyhun Hacıbəyli həmin məktəbdə alman və fransız dillərini rəsm fənnlərini tədris edirdi. “Səadət” məktəbinin müdiri Ə. Hüseynzadə idi[8,s.186-187].

Ü.Hacıbəyov xeyriyyəçilik işlərində də fəal iştirak edirdi.Bu məqsədlə teatr tamaşaları təşkil edirdi[1,9].

Ü. Hacıbəyov "İttihad", "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "Qlobal", "Yeni qlobal" qəzetlərində, "Molla Nəsrəddin jurnalında "Ordan-burdan", "O yan-bu yan" və s. başlıqlar altında gizli imzalarlarla dövrün aktual sosial-siyasi, maarifçiləri məsələlərinə dair çoxlu məqalə, felyeton və satirik miniatürlər dərc etdirmişdir.

Ü. Hacıbəyov 1908-ci il yanvarın 12-də (yeni stillə 25-də) Bakıda H. Z. Tağıyevin teatrında tamaşaya qoyulan "Leyli və Məcnun" operası ilə təkcə Azərbaycanda deyil, bütün müsəlman şərqində opera sənətinin əsasını qoymuşdur.

XIX əsr Azərbaycan pedaqoji fikir tarixinin görkəmli simalarından biri də Səfərəli bəy Şıxhəsən bəy oğlu Vəlibəyovdur (1861-1902). O, Zaqafqaziya Qori Müəllimlər Seminariyasını bitirən ilk üç azərbaycanlıdan biri olmuş, ömrünün on doqquz ilini pedaqoji işə sərf etmişdir. Bu müddətdə o, onlarla istedadlı gənc yetirmişdir ki, bu gənclər elm, maarif, ədəbiyyat və incəsənətin müxtəlif sahələrində, habelə ictimai-siyasi işlərdə fəal çalışmış, vətənə və xalqa namusla xidmət etmişlər. C. Məmmədquluzadə, N. Nərimanov, S. S. Axundov və bir çox başqaları ibtidai təhsillərini C. Vəlifbəyovdan almış, tələbkar və qayğıkeş müəllimlərini minnətdarlıqla yad etmişlər. S. Vəlibəyov böyük ədib, müəllim S. S. Axundovun doğma dayısıdır.

1861-ci ildə Şuşada anadan olmuş, ərəb, fars dillərini öyrənmiş, sonra 1875-1879-cu illərdə Şuşa şəhər məktəb təhsil almışdır. Şuşaya gələn A.Q. Çernyayevski onu Qori seminariya ikinci sinfinə qəbul etmişdir.

Təhsilini bitirən Səfərəlibəy Vəlibəyov seminariyanın nəzdindəki məktəbdə saxlanmış,1881- 1896-cı ilədək burada dərs demişdir. Bu məktəbdə uşaqlar seminariyanın əsas şöbəsinə hazırlanırdı və seminariyanın yuxarı siniflərində oxuyan tələbələr təcrübə dərsləri keçirdilər. Məktəbi idarə etməyi Çernyayevski Səfərəli Vəlibəyova tapşırmışdı.S. Vəlibəyov ancaq bu məktəbdəki fəaliyyəti ilə kifayətlənməmiş, ictimai və pedaqoqu fəaliyyətini yay tətili zamanı da davam etdirmişdir. 1883-cü il yay tətili zamanı Şuşada istirahət edən zaman burada bir məktəb açaraq 25 uşaqlara savad öyrədirdi [3,s.212].

Azərbaycan realist nəşrinin böyük nümayəndələrindən olan Süleyman Sani Axundov (1875-1939) Azərbaycan məktəb və pedaqoji fikir tarixinə böyük demokrat, tanınmış müəllim, məşhur maarifçi, uşaq ədəbiyyatının görkəmli nümayəndəsi kimi daxil olmuşdur. O, 1875-ci il oktyabrın 3-də Şuşa şəhərində bəy ailəsində doğulmuşdur. Hələ körpə ikən atasız qalan S. S.Axundovun təlim-tərbiyəsi ilə bilavasitə dayısı, görkəmli maarif xadimi S. Vəlibəyov (1861-1902) məşğul olmuşdur. O, 1889-1890-cı tədris ilində Qori müəllimlər seminariyasına daxil olmuş, 1894-cü ildə seminariyanı bitirdikdən sonra Bakıdakı rus-Azərbaycan məktəbinə müəllim təyin olunmuşdur.O, Bakıda yüzlərlə yoxsul uşaqların dostu idi [ 3,s.237-249]

1918-ci ildə AXC-nin yaratdığı ilk maarif komissarlığının üzvi kimi məktəblər üçün proqram tərtibində, məktəblərin avadanlıqla təchizatında çalışmış və s.O, Sovet hakimiyyəti qurulduqdan sonra Qarabağ Təhsil İdarəsinin rəisi təyin olunmuşdur.Uşaqlar üçün "Qorxulu nağıl"lar hekayələr seriyasını yazmışdır.

Şuşa maarif sisteminin Azərbaycanın ictimai-siyasi və mədəni həyatına bəxş etdiyi görkəmli şəxsiyyətlərdən biri maarifçi Firudin bəy Əhməd bəy oğlu Köçərlidir (1863-1920). Bu şəhərdə dünyaya göz açmış F. Köçərli ilk təhsilini Şuşa 4 sinifli rus məktəbində almışdır. Həmin məktəbin 3-cü sinifində oxuyarkən A. O. Çernyayevski tərəfindən müəllimlər seminariyasına aparılmış və seminariyanın hazırlıq sinfinə qəbul olunmuşdur. 1885-ci ildə seminariyanı bitirdikdən sonra İrəvan gimnaziyasına Azərbaycan dili müəllimi vəzifəsinə təyin edilmiş, 10 il burada çalışmış, səmərəli pedaqoji fəaliyyəti ilə fərqlənmişdir. Buna görə də Qafqaz Tədris Dairəsi popeçitelinin 1895-ci il 30 oktyabr tarixli əmri ilə Qori müəllimlər seminariyasına dəyişdirilmişdir.

1910-cu ildə F. Köçərli Qori seminariyasının Azərbaycan şöbəsinin müdiri təyin edilmiş, onun təşəbbüsü ilə həmin şöbə 1918-ci ildə Qazağa köçürülmüş və o, 1920-ci ilə qədər Qazax müəllimlər seminariyasının müdiri təyin olunmuşdur[5,s.44]."Azərbaycan"qəzeti nömrələrinin birində Qazax camaatını seminariyanın fəaliyyətində F.Köçərliyə maddi və mənəvi dəstək göstərməyə çağırdı.

Firudin bəy Köçərli 4 iyun 1920-ci ildə Gəncədə Sarkis Danilyanın diktəsi ilə XI Qızıl Ordunun 7-ci xüsusi bölməsinin rəisi Libermanın imzaladığı və fövqəladə komissar Həmid Sultanovun qərarı ilə qətlə yetirilmişdir [3,s.199].

Nəticə

Şuşa maarif sisteminin yaranışı şəhərin əsasının qoyulması ilə başlanmışdır.Bunun nəticəsində bu şəhər Azərbaycanın mədəniyyət mərkəzlərindən birinə çevrilmişdir.Şuşa mühiti dahi mədiniyyət xadimləri ilə yanaşı, bütün türk müsəlman dünyasının tərəqqisi üçün çalışan mübariz ictimai-siyasi xadimlər yetişdirmişdir.Bu insanlar nəsillərə örnəkdir.Şuşa şəhərinin tariximizdəki rolunu yüksək qiymətləndirən Azərbaycan Respublikası Prezidentı İ.Əliyev 31 dekabr 2021-ci ildə Dünya azərbaycanlılarının həmrəyliyi günü və Yeni il münasibəti ilə xalqımıza ünvanladığı təbrik müraciətində 2022-ci ili "Şuşa ili"elan etdi və həmin ilin yanvarın 5-də bu barədə sərəncam imzaladı.

## Ədəbiyyat

1.Azərbaycan müharibəsində can fəda edən şühədaların ailəsi mənfəətinə- Azərbaycan qəzeti,№262(9141),1dekabr 2022-ci il.
2.Əhməd bəy Ağaoğlu.Şuşa,Peterburq və Paris xatirələri(Atatürkə iki məktub).Çapar yayınları .Bakı,2006,124s.
3.Əhmədov H.Azərbaycan məktəb və pedaqoji fikir tarixi.Elm və təhsil .Bakı,2014 ,431s.
4.Quliyev V. Ötən günlərimi qaytaraydılar. Şuşa nəşr. Bakı. 2001,400s.
5. Quliyev V.180 yaşlı Şuşa məktəbi.Şuşa nəşr.,Bakı.2010,200s.
6.Həsən İxfa Əlizadə. Şuşa şəhərinin tarixi s.310-349: Qarabağnamələr (2-ci kitab). Bakı. Yazıçı, 1991,450 s.
7.Teymur Miralayev.Azərbaycanın qızıl qvardiyaçıları və qırmızı partizanları Azərbaycan Dövlət Nəşriyyatı. Bakı.1975.İST,130s.
8.Üzeyir dünyası. Üzeyir Hacıbəyli ensiklopediyası.2014,262s.

# HERALDİKANIN DİGƏR PREDMETLƏRİ : MİNİATÜRLƏR

**Afiq Abdullayev**
**AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu**
**afigabdullayev@mail.ru**

**Açar sözlər:** *heraldika, kartuş, qrotesk, serex, şeen*

**Xülasə**

*Məqalədə heraldikanın elementlərindən, heraldika elminin tədqiqat sahələrindən və simvolik xarakter daşıyan maddi mədəniyyət nümunələrindən bəhs edilir. Xüsusilə də, heraldika elminin predmetinə daxil olan miniatürlərin Yaxın Şərqdə və Mərkəzi Asiyada, o cümlədən Azərbaycanda inkişaf tarixi və istifadə edilməsi araşdırılmışdır. Miniatür əsərlər simvolların və heraldik elementlərin istifadə edildiyi incəsənət nümunəsi kimi həm ədəbi, həm tarixi, həm arxeoloji və etnoqrafik məlumatların öyrənilməsində mühüm əhəmiyyət kəsb edir.*

# ДРУГИЕ ПРЕДМЕТЫ ГЕРАЛЬДИКИ : МИНИАТЮРЫ

**Афиг Абдуллаев**

**Ключевые слова:** *геральдика, картуш, гротеск, серех, шеен*

**Резюме**

*В статье описывается об элементах геральдики, областях исследований геральдической науки и образцах материальной культуры носящих символический характер. В частности, исследована история развития и использования миниатюры, входящих в предмет геральдической науки, на Ближнем Востоке и в Центральной Азии, в том числе в Азербайджане. Миниатюрные произведения как образец искусства, в котором используются символы и геральдические элементы, имеют большое значение при изучении как литературных, так и исторических, археологических и этнографических данных.*

# OTHER İTEMS OF HERALDRY : MİNİATURES

**Afig Abdullayev**

**Key words:** *heraldry, cartouche, grotesque, serekh, sheen*

## Summary

*The article deals the elements of heraldry, research areas of heraldic science and samples of material culture that have a symbolic character. In particular, is studied the history of the development and use of miniatures included in the subject of heraldic science in the Middle East and Central Asia, including Azerbaijan. Miniature works as an example of art, in which symbols and heraldic elements are used, are of great importance in the study of both literary and historical, archaeological and ethnographic informasions.*

Heraldika tarix elminin köməkçi elmi tədqiqat sahəsidir. Tarixi hadisələrin araşdırılması zamanı rəmzi əlamət və ya simvolik xarakter daşıyan heraldik elementlərin istifadə edildiyi müxtəlif maddi mədəniyyət nümunələri (tuğralar, tumarlar, damğalar, döymələr, bullalar, möhürlər, monetlər, markalar, medallar, rozetlər, ordenlər, gerblər, emblemlər, sancaqlar, bayraqlar, kartuşlar, amuletlər, talismanlar, skeptronlar, ekslibrislər, miniatürlər, uniformalar, monoqramlar, anaqramlar, digər əşyalar, alətlər və s.) heraldikanın predmetinə və ya tədqiqat sahəsini daxil olur. “Heraldik elementlər” dedikdə isə əsasən rəmzi əlamət və ya simvolik xarakter daşıyan daşlar, metallar, rənglər, hərflər, rəqəmlər, təsvirlər (astral, həndəsi, insani, nəbati, heyvani və s.), müxtəlif işarələr, fiqurlar və s. nəzərdə tutulur [2, s.11]. Bu heraldik elementlər həm də “heraldikanın əlifbası” sayılır.

Heraldika elmi mahiyyət etibarilə rəmzi əlamət və ya simvolik xarakter daşıyan heraldik elementlərin əks olunduğu maddi mədəniyyət nümunələrinə əsasən insanların məfkurəsinə, mədəniyyətinə, mənsubiyyətinə, ideologiyasına, mifologiyasına və qnesologiyasına aid məlumatları araşdırmağa və aşkarlamağa yönəlmiş elmi tədqiqat sahəsidir [1, s.46]. Heraldika təkcə tarix elminin köməkçi sahəsi deyil, həm də memarlıq və incəsənət sahəsi kimi təzahür edir.

## Miniatürlər

Heraldik simvolların da öz əksini tapdığı miniatür əsərlər bədii üslubu və məxsusi zərifliyi ilə fərqlənən rəssamlıq nümunəsi olsa da, miniatür əsərlərdə elmi, ədəbi və tarixi mövzular, xəttatlıq nümunələri də təsvir edilmişdir. Bu cür sənət əsərlərinə müxtəlif əşyalar və alətlər, o cümlədən xalça, parça, divar, keramika üzərində, əsasən də elmi, bədii və tarixi kitabların səhifələrində rast gəlinir. Miniatür əsərlər həm də bizə həmin dövrdə tarixi

hadisələr, müxtəlif ictimai məsələlər, zümrələr (saray ərkanı, tacirlər, hərbiçilər, sənətkarlar, əkinçilər, maldarlar və s.), memarlıq nümunələri, arxeoloji və etnoqrafik materiallar, tarixi hadisələr və s. barəsində təsviri məlumat verir.

"Miniatür" sözü latınca "mini-are" sözündən götürülüb, hərfin, xəttin və ya rəsmin "minium (qırmızı-narıncı rəng) boyanmasıdır ki, adətən əlyazma kitabları bəzəmək üçün belə əlvan rənglərdən istifadə edirdilər. Lakin zamanla latın dilində "minor (daha kiçik)" sözü ilə "minium" sözü birləşdirilərək "miniatür" sözü yaranmışdır. Bu sənət sahəsi fransız dilində "miniature", italyan dilində "miniatura" və s. kimi tələffüz edilmişdir [4, s.10]. Orta Əsrlərdə Avropada kitabların ilk səhifəsində ilk sözün ilk hərfi qırmızı-narıncı rəngdə boyanırdı və bəzənirdi. Osmanlı dövlətində isə miniatür sənəti "hürdenakş" adlanmışdır [9, s.3].

Türk xalqları mədəniyyətində miniatür sənətinin ilk nümunələri VIII əsrdə Uyğur dövlətinin Turfan bölgəsində məbəd divarlarına çəkilən sujet və kompozisiya rəsimləri sayılmışdır. Bu rəsimlərdə mənzərələr canlı və rəngli, şəxslər isə ədəbi ifadə ilə "ay üzlü", "qısa boylu", "badam gözlü" təsvir edilmiş və bu cür təsvirlər sonradan "türkmən üslubu" adlanmışdır [3,s.851,854]. Bəzi müəlliflərin fikrincə, Uyğur miniatür sənətinin kökləri Maniheist dini kitablarında olan rəsmlərə söykənir. Belə nümunələrdən biri də Uyğur xaqanı Bögü Xaqanın Mani dinini qəbul etməsinin təsvir edildiyi freskalı səhnə rəsmidir [9, s.5; şəkil 1].

İslam dininin yayılmasından sonra miniatür sənəti İslam dininin mədəniyyətinə sirayət etmişdir. Bizans dövlətinin təsiri ilə freska rəsimləri və Uyğur dövlətinin təsiri ilə miniatür rəsmləri qısa zamanda İslam mədəniyyətinə daxil olmuşdur. Əməvilər sülaləsi dövründə Qüdüs şəhərində Qübbətus-Səhra məscidinin, Şam şəhərində Əməviyyə məscidinin, Kuseyr-Amra sarayının divarlarında [şəkil 2], Abbasilər sülaləsi dövründə Cəvsakul-Hakani sarayının [şəkil 3], Balkuvara sarayının divarlarında da minaturlara bənzər möhtəşəm rəsimlər təsvir edilmişdir [9, s.3-5]. Ərəb Xilafəti zamanı şəxsləri təsvir etmək günah sayılsa da, rəssamlar mənzərə təsvirlərinin çəkilməsinə davam etmişdirlər. XI əsrdə isə şərq və qərb ölkələrinin miniatür sənəti nümunələri Səlcuqlu imperiyası zamanı bu bölgədə mədəni mübadilə yaratmağa başladı. Belə ki, Səlcuqlu imperiyası və Monqol imperiyası dövründə insan rəsmi çəkmək ciddi qəbahət sayılmadığı üçün XI əsrdən sonra miniatür sənətində insan təsvirləri yenidən istifadə edilibdir. Miniatür sənəti sürətlə inkişaf edərək Şam, Mosul, Konya, Herat, Şiraz, Bağdad, Tərbiz, Marağa, İsfahan, Diyarbakır və s. mədəni inkişafın müşahidə edildiyi şəhərlərdə, Səlcuqlular, Məmluklar, Baburilər, Osmanlılar, Hülakilər, Cəlairilər, Qaraqoyunlu və Ağqoyunlu, Səfəvilər dövlətlərində tərəqqi dövrü yaşamışdır.

Uyğur miniatür üslubuna bənzər təsvirlər XV əsrə qədər davam etsə də, ümumiyyətlə miniatür sənəti türk-islam mədəniyyəti daxilində XIX əsrə qədər

rəsm sənəti kimi əhəmiyyətini qorumuşdur. Avropada və Rusiyada isə XV əsrdən etibarən ikonaların və digər kilisə kitablarında sujetlərin təsvirində miniatur sənətindən geniş istifadə edirdilər [4, s.11]. Bu sənətin məşhurlaşması nəticəsində demək olar ki, Orta Əsrlərdə bir çox ədəbi və tarixi əsərlərə rəssamların miniatür və illustrasiya çəkməsinə rast gəlinmişdir. Şərq miniatür sənətinin Qərb miniatür sənətindən bir fərqi də budur ki, qərb rəssamları daha çox kult (kutsal) sayılan detalları təsvir edirdilərsə, şərqdə rəssamların miniatürləri həm kult sayılan, həm də ictimai mövzuda olan dini və ədəbi mövzuları əhatə edirdi.

Ümumiyyətlə, Orta Əsrlər miniatür sənətinin inkişafında Təbriz başda olmaqla Azərbaycan şəhərlərinin mühüm rolu olmuşdur. Azərbaycan şəhərlərində əsasən kitab illüstrasiyası kimi inkişaf edən miniatür sənəti XIII-XV əsrlər Təbriz və Marağa kimi miniatür məktəblərinin yaranması və miniatür sənətinin intibah dövrü kimi tanınmış, Səfəvilər dövləti zamanı öz zirvəsinə yüksəlmişdir. XIII əsrdə Təbriz və Marağa şəhərləri Hülakilər dövlətinin siyasi, iqtisadi və mədəni mərkəzi kimi inkişaf edirdi. Bu dövrdə Təbriz şəhərində Qazaniyyə və Rəşidiyyə kimi elm-sənət məhəllələri salınmışdı. Bu məhəllələrdə böyük kitabxanalar və emalatxanalar yaradılmışdı. Beləliklə, monqolların özləri ilə gətirdiyi Çin-Türkistan rəssamlıq ənənələri ilə Ərəb-Mesopotamiya rəssamlıq ənənələri sintez kimi öz təsirini qarşılıqlı göstərirdi [5, s.7]. Bu cür mədəni sintez təsadüfi deyildir. Məlum olduğu kimi hələ bundan əvvəl, yəni XI-XII əsrlərdə türk-islam mədəniyyətinin sintez şəklində intibah dövrü başlamışdı. Bu dövrdə Azərbaycan miniatür sənətinin ən məşhur nümunələri sırasında "Vərqa və Gülşah" əsərinə, "Mənafi Əl-Heyvan" əsərinə, "Camiət-təvarix" əsərinə, "Şahnamə" əsərinə və s. əsərlərə çəkilən miniatürləri qeyd etmək olar. Əslən Xoy şəhərindən olan nəqqaş, xəttat və rəssam Məhəmməd bin Abdulmömin XIII əsrin əvvələrində "Vərqa və Gülşah" əsəri üçün 70-ə qədər miniatür rəsmlərini çəkmişdir [3, s. 852; şəkil 4]. Hərb sahəsində ən məşhur miniatür nümunələrini özündə ehtiva edən və bütün dünyada məşhur olab bu əsər hazırda Türkiyənin İstanbul şəhərində Topkapı muzeyində sax-lanılır. Hülaki hökmdarı Qazan xanın vəziri Fəzlullah Rəşidəddin də "Camiət-təvarix" əsərini yazarkən bəzi hadisələri və mənzərələri miniatür sənətinin nümunələrini kimi rəsm etdirməyə başlasa da, Rəşidəddinin öldürülməsindən sonra əsər yarımçıq qalmışdır [3, s.852; şəkil 5]. Xüsusilə XIV əsrdə Təbriz şəhərində dövrün məşhur rəssamlarından olan Əhməd Musa, Əbülxay və Şəmsəddin tərəfindən "Şahnamə" əsərinə çəkilən miniatürlər və illustrasiyalar həmin ənənələri sintez şəklində daha möhtəşəm təzahür etdirir [5, s.8].

XV əsrdə Təbriz və Marağa şəhərləri siyasi və iqtisadi təlatüm yaşadığı üçün bu şəhərlərdə miniatür sənətinin inkişafında qismən durğunluq yaranmışdır. Bu dövrdə Cəfər Təbrizi, Pir Seyid Əhməd, Xacə Əli Müsəvvir, Qəvaməddin, Qiyasəddin və s. kimi miniatür rəssamlarının Teymurilər

dövlətinin mərkəzi olan Herat şəhərinə köçürülmüş və nəticədə bu rəssamların Herat miniatür məktəbinin inkişafında müstəsna xidmətləri olmuşdur [5, s.9]. Herat şəhərində məhz bu rəssamların yanında dərs alan Kəmaləddin Behzad dövrün ən məşhur rəssamları arasında öz dəsti-xətti ilə fərqlənmişdir. Kəmaləddin Behzadın şair Sədinin "Bustan" əsərinə, tarixçi Şərəfəddin Əli Yezdinin "Zəfərnamə" əsərinə və s. əsərlərə çəkdiyi miniatürlər və illustrasiyalar həm miniatür sənətinin inkişafına xidmət etmişdir, həm də Heratda rəssamlıq məktəbinin zənginliyinin göstəricisidir.

Həmçinin, bu dövrdə Şirvanşahlar dövlətində də miniatür sənəti inkişaf edirdi. Bu dövrdə məşhur miniatür rəssamı Əbdül Baqi Bakuvinin əsərləri xüsusi fərqlənir. Qeyd etmək lazımdır ki, müxtəlif yeniliklərə baxmayaraq, bütün qonşu ölkələrdə Təbriz miniatür məktəbinin aparıcı rəssamlıq ənənələri daima müşahidə edilmişdir. XVI əsrin əvvəllərində Səfəvilər dövlətinin yaranması və Səfəvi şahlarının elmə, ədəbiyyata, mədəniyyətə xüsusi diqqət ayırması və himmət göstərməsi, Teymurilər dövlətindən Herat şəhərini və Ağqaoyunlu dövlətindən Şiraz şəhərini alması, bu şəhərlər kimi mədəniyyət mərkəzlərinə nəzarət etməsi, bu şəhərlərdə olan sənətkarları Təbrizə gətirməsi Təbriz şəhərində miniatür sənətinin inkişafında yenidən canlanma yaratmış, Təbriz miniatür məktəbinin yenidən məhsuldar fəaliyyəti üçün zəmin hazırlamışdır [8, s.18]. Məhz bu dövrdə Təbrizdə Sultan Məhəmməd və oğlu Mirzə Əli, Kəmaləddin Behzad, Mir Müsəvvir və oğlu Mir Seyid Əli, Müzəffər Əli, Dost Məhəmməd, Şah Mahmud Nişapuri, Sadiq bəy Əfşar, Ağa Mirək İsfahanı və s. kimi görkəmli rəssamlar fəaliyyət göstərmişdir [5, s.10]. Nizami Gəncəvinin "Xəmsə" adlanan əsərlərinə miniatürlər və illustrasiyalar çəkən, həmçinin Təbriz miniatür məktəbinə rəhbərlik edən Sultan Məhəmmədi bu sahədə peşəkarlıq səviyyəsinə görə rəssam Kəmaləddin Behzad ilə müqayisə etmək heç də təsadüfi deyildir.

Təbriz miniatür məktəbi təkcə miniatür sənətinin inkişafını deyil, həm də bu miniatürlərin kompozisiyası (obraz, sujet, epizod, peyzaj və s.) barədə məlumat verən hissələrdə kalliqrafiya (xəttatlıq) sənətinin inkişafını təmin edirdi. Bir çox ədəbi əsərə çəkilən miniatürlərdə təsvir barədə bir və ya bir neçə qitə xüsusi xəttatlıq ilə yazılmışdır. Miniatür əsərlərində kalliqrafik yazılarda əsasən sülüs, nəsih, rika, reyhani kimi hüsni-xətt nümunələri ilə yanaşı digər xəttatlıq yazı nümunələrindən də istifadə edilirdi.

Təbriz miniatür məktəbi ilə yaxından tanış olan alman alimi F.Şults Təbriz miniatür məktəbini həmin dövrün miniatür sənətinə yeni təkan verən və müstəsna xidmətləri olan əsas miniatür məktəbi kimi qiymətləndirib [7, p.57]. Təbriz miniatür məktəbinin bir xüsusiyyəti budur ki, burada təsvirlər daha rəngarəng çəkilib, daha həcmli görünür, ornamentlərdən daha çox istifadə edilib və daha real kompoziyası təssüratı yaradır. Həmçinin, əksər rəsmlər həm izometrik proyeksiya ilə, həm də aksonometrik proyeksiya ilə işlənilibdir [4,

s.21-22]. Təbriz miniatür məktəbinin əsas xüsusiyyətlərindən bir digəri də budur ki, burada səhnələr, hadisələr, mənzərələr çox vaxt "quş uçuşu" və ya "quş gözü ilə baxış" kimi təsvir edilib, təkcə məkanda deyil, həm də xalça naxışı kimi müstəvidə göstərilib [6, s.14].

XVI-XVII əsrlərdə Baburi dövlətinin şahları da miniatür sənətini himayə edərək xüsusi imtiyaz və mükafat ilə Təbriz başda olmaqla Azərbaycan şəhərlərində miniatür çəkən rəssamların Hindistanda işləməsi üçün şərait yaradırdılar. Nəticə etibarilə, Hind miniatür məktəbinin inkişafında da Təbriz miniatür məktəbinin mühüm rolu olmuşdur. Həm Humayun şahın, həm də Cahangir şahın xüsusi himayəsi ilə İrandan dəvət edilən miniatür çəkən rəssamlar Dehlidə şah kitabxanasında çalışırdılar. Belə rəssamlar arasında Ağa Rzanın və onun oğlu Əbül-Həsənin adını xüsusi vurğulamaq lazımdır. Əbül-Həsən öz dövrünün məşhur rəssamı olmaqla yanaşı, hələ gənc yaşlarından rəssamlıq sənətində istedadı ilə tanınmış və Cahangir şahın rəğbətini qazanmışdı [11, c.17-18; şəkil 6].

I Səfəvi-Osmanlı müharibəsi (1514-1555) zamanı Osmanlı imperiyasının Təbriz şəhərini tutmasından sonra Sultan Səlimin qərarı ilə Təbriz şəhərinin kitabxanasında və nəqqaşxanasında işləyən bəzi sənətkarkar İstanbula aparıldı [8, s.19]. II Səfəvi-Osmanlı müharibəsi zamanı da Osmanlı dövləti ələ keçirdiyi şəhərlərdə şairləri, ədibləri, rəsamları, xəttatları, nəqqaşları, digər sahələrdə sənətkarları Anadoluya və İstanbula köçürürdü [10, c.32]. Şirvan bəylərbəyi olan Əlqas Mirzə Osmanlı dövlətinin dəstəyi ilə qardaşı Səfəvi şahı I Təhmasibə qarşı üsyan başlatması nəticəsində məğlub olaraq Osmanlı dövlətinə sığınmış və İstanbula gedərkən şair, ədib, tarixçi, rəssam Fətullah Arif Çələbi də daxil olmaqla bir neçə rəssamı özü ilə İstanbula aparmışdır. Sultan Süleyman Qanuninin sifarişi ilə Arif Çələbi "Şahnamə" adlı 5 cildlik əsər yazmışdır. Əsər Adəm peyğəmbərdən Sultan Süleymana qədər tarixi hadisələri əhatə edir. Sonuncu cild "Süleymannamə" adlanır və Sultan Süleymanın dövründə baş verən tarixi hadisələrdən bəhs edir. Hər bir cilddə isə müxtəlif dini, ədəbi və tarixi hadisələr ilə bağlı rəsmlər və miniatürlər çəkilmişdir [8, s.26]. Bunu da qeyd etmək lazımdır ki, Osmanlı paytaxtında Əhli-Hirəf adlanan sənət mərkəzində məhz bu rəssamlar sayəsində yeni üslub və ənənə yaradılmışdır. Osmanlı dövlətinin türk-islam mədəniyyətini tədricən öz himayəsi altına almağa çalışması nəticəsində miniatür sənəti də İstanbul başda olmaqla Osmanlı imperiyasının şəhərlərində inkişaf etməyə başlamışdır. XVI əsrdə Osmanlı dövlətində məşhur rəssamlar arasında rəssam Nigari, Nəqqaş Osman, Seyyid Loğman, Vəli Can, Nəqqaş Həsən, Talikizadə Sübhi kimi əsərlərə miniatür çəkən rəssamlar olmuşdur.

XVI əsrdə əvvəl Şah I Təhmasibin 1555-ci ildə paytaxtı Təbriz şəhərindən Qəzvin şəhərinə köçürməsi və daha sonra Şah I Abbasın 1598-ci ildə paytaxtı Qəzvin şəhərindən İsfahan şəhərinə köçürməsi nəticəsində Təbriz

miniatür məktəbinin Qəzvin miniatür məktəbi və İsfahan miniatür məktəbi kimi müdavimləri yaranmışdır. Miniatür sənətinin inkişafı tarixində bu və digər nümunələri nəzərə alaraq belə bir fikir irəli sürmək mümkündür ki, Təbriz miniatür məktəbinin ustad rəssamları və ya onların müridləri haraya getsələr, orada Təbriz miniatür məktəbinin üslub və ənənələri əsasında yeni miniatür məktəbi yaradırdılar. XVI əsrin sonları və XVII əsrin əvvəllərində Səfəvilər dövlətində miniatür çəkən məşhur rəssamlar arasında isə Mir Yəhya Təbrizi, Mir Zeynalabdin Təbrizi, Siyavuş bəy Kürçi, Fərrux bəy, Məhəmməd bəy, Əli Rza Təbrizi, həm Osmanlı dövlətində, həm də Səfəvi dövlətində özünə məxsus rəssam dəsti-xətti ilə rəğbət qazanan Şah Qulu Təbrizi kimi sənətkarların adlarını qeyd etmək olar [10, c.34].

XVII və XVIII əsrlərdə miniatür sənətinə qismən diqqət azalsa da, Baburi, Səfəvi və Osmanlı dövlətləri bu sənəti himayə edirdilər. Lakin XIX əsrin əvvəllərində artıq nəqqaşların, rəssamların, xəttatların incəsənət sahəsində rolu azalmağa başlamışdır. Bunun bir neçə tarixi səbəbi vardır. Əvvəla çap işləri artırdı və çap texnikası müasirləşirdi. Bunun bir neçə tarixi səbəbi vardır. Əvvəla çap işləri artırdı. Həmçinin, yağlı boya ilə peyzaj və portret rəsmlərinə maraq artmışdı və bu cür əsərlər sifariş edilirdi [8, s.62]. Beləliklə, minatür sənətinə həm əhalinin marağı, həm də dövlətin himayəsi azalırdı ki, nəticə etibarilə, bu sahədə sənətkarların da sayının azalması müşahidə edilirdi. Bu və digər amillər nəticəsində miniatür sənəti klassik sənət sahəsi kimi tarixdə yerini almışdır.

**Ədəbiyyat**

1. Abdullayev A.N. "Heraldika və onun inkişaf tarixi". "Tarix, insan və cəmiyyət" jurnalı, № 4 (27). Bakı, 2019
2. Abdullayev A.N. "Heraldikanın predmeti və elementləri". "Tarix, insan və cəmiyyət" jurnalı, № 2 (29). Bakı, 2020
3. Aslanapa O., "Türk Minyatür Sanatının Gelişmesi". Atatürk Kültür Merkezi, "Erdem" jurnalı, sayı 6. İstanbul, 1986
4. Hacıyev İ. "Şərq Miniatür sənətində kompozisiya quruluşunda forma və üslub xüsusiyyətləri". Bakı, 2012
5. Kərimov K. "Azərbaycan miniatürləri". Bakı, 2013
6. Məmmədkərimova L. "XVI-XX əsrlər Azərbaycan və İran təsviri sənətində memarlıq". Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. B., 2002
7. Schulz Ph. "Die Persisch – İslamische Miniatürmalerei". Leipzig, 1914
8. Tanındı Z. Türk miniyatür sanatı. TİB Kültür Yayınları, Sanat Dizisi №52. Ankara, 1996

9. Ün H.İ. “Miniyatür Sanatı”, I cild. İstanbul, 2012
10. Джамиля Г., Агасалим Э. “Азербайджанская миниатюра конца XVI и начала XVII веков”. “İrs” jurnalı, №3 (75). Bakı, 2015
11. Орбели И. Альбом индийский и персидский миниатюри XVI-XVIII века. М. 1962

## Şəkillər



*Şəkil 1. Çin-Uyğun miniatür sənətinə aid nümunə*



*Səkil 2. Kusevr-Amra saravının divarlarında cəkilən miniatür*



*Şəkil 3. Cəvsakul-Hakani sarayının divarlarında çəkilən miniatür nümunəsi*



*Şəkil 4. Vərqa və Gülşah dastanı: Vərqanın Gülşah üçün mübarizəsi (Vərqa*



*Şəkil 5. Camiət-təvarix əsəri: İbrahim çadırda əcənəbiləri qəbul edir*



*Şəkil 6. Cahangir şahın tac qoyma mərasimi*

# AZƏRBAYCANDA TƏHSİL ƏNƏNƏLƏRİ VƏ ŞUŞA ŞƏHƏRİ

**Mübariz Ağalarlı**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AMEA A.A Bakıxanov adına Tarix İnistitutu
**mubariz.aqalar@gmail.com**

***Açar sözlər:*** *Azərbaycan, təhsil ənənələri, Qarabağ, Şuşa*

**Xülasə**

*Azərbaycan tarixən qədim sivilizasiya mərkəzlərindən biri olaraq regionun elm, təhsil, mədəniyyət mərkəzləri sırasında aparıcı rola malik olmuşdur. Azərbaycanın qədim tarixə, mədəniyyətə malik olması Qobustan, Oğlanqala, Kültəpə daş kitabələrində özünü aydın göstərir. Azərbaycanın qədim tarixə söykənən elm və təhsil ənənələri sonrakı dövrlərdə də Azərbaycanın sosial-mədəni həyatının inkişafına və təhsil sisteminin formalaşmasında təməl rolunu oynamışdır. Azərbaycanın Qarabağ bölgəsi də tarixi inkişafın bütün mərhələlərində istər geosiyasi, istərsə də iqtisadi baxımdan olduca böyük əhəmiyyət daşıyaraq bu bölgənin ictimai-siyasi mühitinin və sosial-mədəni həyatının formalaşmasında xüsusi əhəmiyyəti ilə seçilmişdir. Qeyd etmək lazımdır ki, Qarabağ regionun ictimai həyatının və sosial-mədəni mühitinin təşəkkülündə Şuşa şəhərinin rolu olduqca böyükdür. Xüsusilə də, XVIII əsrdən etibarən başlayaraq Şuşa şəhərinin sosial-mədəni həyatında baş verən intibah prosesi təkcə bu şəhərlə hüdudlanmamış, Azərbaycanın digər bölgələrinin elm-təhsil və mədəni inkişafına da ciddi surətdə təsir etmişdir.*

## ТРАДИЦИИ ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ И ГОРОД ШУША

**Мубариз Агаларлы**

***Ключевые слова:*** *Азербайджан, образовательные традиции, Карабах, Шуша*

**Резюме**

*Исторически Азербайджан, как один из древних очагов цивилизации, занимал ведущее место среди центров науки, образования и культуры региона. О том, что Азербайджан имеет древнюю историю и культуру, ясно свидетельствуют каменные надписи Гобустана, Оглан-*

*гала и Кюльтепе. Научные и образовательные традиции Азербайджана, основанные на древней истории сыграли фундаментальную роль в развитии общественно-культурной жизни Азербайджана и становлении системы образования в более поздние периоды. Также Карабахский регион Азербайджана на всех этапах исторического развития неся довольно большое значение как с геополитической, так и с экономической точки зрения отличался особой значимостью в формировании общественно-политической среды и социокультурной жизни этого региона. Следует отметить, что роль города Шуша в формировании общественной жизни и социокультурной среды Карабахского региона очень велика. Особенно, ренессансный процесс, происходивший в социально-культурной жизни города Шуша, начиная с XVIII века, не только ограничился этим городом, но и серьезно повлиял на научное, образовательное и культурное развитие других регионов Азербайджана.*

## TRADITIONS OF EDUCATION IN AZERBAIJAN AND CITY OF SHUSHA

**Mubariz Aghalarli**

***Keywords:*** *Azerbaijan, educational traditions, Karabakh, Shusha*

**Summary**

*Historically, Azerbaijan, as one of the ancient centers of civilization, had a leading role among the science, education, and culture centers of the region. The fact that Azerbaijan has an ancient history and culture is evident in the stone inscriptions of Gobustan, Oglangala, and Kultepe. Science and education traditions of Azerbaijan, based on ancient history, played a fundamental role in the development of socio-cultural life of Azerbaijan and formation of education system in later times. The Karabakh region of Azerbaijan was chosen for its special importance in the formation of the socio-political environment and socio-cultural life of this region, carrying great importance both from the geopolitical and economic point of view at all stages of historical development. It should be noted, role of the city of Shusha has been great in the development of public, socio-cultural environment of in the Karabakh region. Especially the city of Shusha, starting from the 18th century it has had a serious impact on the socio-cultural, scientific and educational development process of other regions of Azerbaijan.*

Azərbaycan tarixən qədim sivilizasiya mərkəzlərindən biri olaraq regionun elm, təhsil, mədəniyyət mərkəzləri sırasında aparıcı rola malik

olmuşdur. Azərbaycanın qədim tarixə, mədəniyyətə malik olması Qobustan, Oğlanqala, Kültəpə daş kitabələrində özünü aydın göstərir. Bu mədəniyyət nümunələri Azərbaycanın daha yüksək və fərqli mədəniyyət beşiklərindən biri olduğunu təsdiq edir. Azərbaycan həm də qədim sivilizasiyanın beşiyidir. Bunu Azərbaycanın ən qədim boğlgələrindən biri olan Qarabağda formalaşmış Quruçay mədəniyyəti də təsdiq edir.

Tarixin müxtəlif mərhələlərində Azərbaycanın cənubunda Manna, Midiya, Atropatena, şimalında isə Albaniya dövlətləri ölkənin ictimai-siyasi və mədəni inkişafında mühüm rol oynamışdır. Miladdan əvvəl I minilliyin başlanğıcında Azərbaycan ərazisində yaşayan qədim etnosların bir hissəsini mannalılar təşkil edirdi. Mannada elmin və təhsilin inkişafı üçün ən vacib şərt olan yazı mədəniyyəti mövcud idi. Tibb, astronomiya və həndəsəyə aid biliklər xüsusi gil lövhəciklərdə mixi yazı ilə həkk olunurdu. Qədim Aşşur mənbələrində belə yazıların mövcudluğundan xəbər verilir və "Mannalı katib yazacaq..." ifadəsi işlədilirdi. Dəqiq həndəsi hesablamalar Manna memarlarına şəhərlər salmağa, saraylar və möhtəşəm qalalar inşa etməyə imkan verirdi [8, s. 11-12].

Midiya dövlətində də elmə və savada böyük əhəmiyyət verilirdi. Ehtimal edilir ki, onlar dünyanın ən qədim əlifbalarından olan "arami" (Qədim Suriya) əlifbasından istifadə edirdilər. Roma və yunan mənbələri Midiyada yazılı ədəbiyyatın və kitab mədəniyyətinin olmasından xəbər verir. E.ə. VI -V əsrlərdə yunan alimləri Midiya maqlarının təlimindən bəhrələnmişlər.

Qədim və ilkin orta əsrlərdə Azərbaycan, Orta Asiya, On Asiya, Əfqanıstan və bir sıra başqa ölkələrdə zərdüştilik dini yayılmağa başladı. Zərdüştilik dininin əsasları "Avesta" (Qanun) kitabında öz əksini tapmışdır.

"Avesta" tarixi, dini, ədəbi abidə kimi e.ə. X-VI əsrlərdə formalaşmış, sonralar xeyli dəyişikliyə uğramışdır. "Avesta" da qədim Azərbaycanda yaşayan xalqların dini-fəlsəfi, mənəvi-əxlaqi, ictimai-siyasi görüşləri əks olunmuşdur. "Avesta"da təlim-tərbiyəyə də geniş yer verilir. Burada göstərilir ki, "təhsil almaq məqsədilə yanına gəlib sənə müraciət edən şəxsin kimliyindən asılı olmayaraq onu qəbul et və istədiyini ona öyrət" [8, s. 13].

Orta əsrlər dövrünün tədqiqatçısı Abdulla Fazili "Atropatena" əsərində V.Ceksona istinadən yazır ki, "Avesta"da ataların övladlarını tərbiyə etməsinə dair xüsusi fəsil mövcud olmuşdur. Burada təlim-tərbiyənin növü, tərbiyəçi və müəllimlərin işinin xüsusiyyətləri izah edilmişdir. Lakin tarixi hadisələr nəticəsində bu fəsil aradan çıxmış, bizə yalnız həmin fəslin xülasəsi gəlib çatmışdır. Orada deyilir: "Təlim-tərbiyə varlığın bünövrəsi kimi mühüm əhəmiyyətə malikdir. Hər bir şəxs müəllim və tərbiyəçilərin vasitəsilə yazıb oxumağa həm də özünün sağlamlığına ciddi fikir verməlidir. Yalnız bu yolla insanlar yüksək məqsədə çata bilərlər".

“Avesta”da insanların yüksək məqsədə, məqama çatmasında müəllimin roluna yüksək qiymət verilir: “Pis müəllim şüuru korlar. Sözün mənasını çatdırmaz. Ağlın inkişafını dayandırar, təlim-tərbiyəni fəsada çevirər. Nəticədə, həyatın təbii axınına və gözəlliyinə zərər yetirər”.

Zərdüşt müəllimlərlə yanaşı, alimlərin də cəmiyyətdəki istiqamətverici rolunu düzgün qiymətləndirirdi: «Çalışın ki, alim və cahil arasında fərq qoyasınız. Alimlər həyatın yol göstəriciləridir”.

Azərbaycanın qədim və erkən orta əsrlər dövründə mövcud olmuş aparıcı dövlətlərindən biri də Atropatena dövləti olmuşdur. Atropatena dövlətinin özünəməxsus dili, yazısı, adət və ənənəsi var idi. Ehtimal edilir ki, Atropatenada məktəb təhsilində arami mənşəli pəhləvi əlifbasından istifadə olunurdu. Lakin bu ərazilərdə qədimdən türksoylu etnosların yaşaması amili atropatenalıların türkmənşəli yerli əlifbadan istifadə etməsi ehtimallarını da gücləndirir.

Bu dövrdə Azərbaycanda dünyəvi elmlər də inkişaf edirdi. Həmin dövrdə mövcud olmuş əsas elmi peşələrin adları “Tanserın məktubu” adlı qaynaqda sadalanır: “Katiblər, məktub və sənədləri tərtib edənlər, hesab üzrə mütəxəssislər, həkimlər, coğrafiyaşünaslar və astroloqlar” [4, s. 538].

Atropatena dövlətində zadəganların uşaqları ilk təhsilini evdə alır, 7 yaşından sonra isə onları məktəbə göndərirdilər. Məktəbdə tibb, hesab, coğrafiya, musiqi, astronomiya elmləri tədris olunurdu. Hakim sinfin uşaqları 16 yaşından başlayaraq müvafiq ixtisas təhsili alırdılar.

Azərbaycanın şimalında yaranan qədim dövlətlərdən biri olan Alban dövlətində də elm və təhsilin inkişafına ciddi fikir verilirdi. Məlumdur ki, xristian dini Güney Qafqazda, o cümlədən Albaniya dövlətində yeni eranın ilk əsrlərindən yayılmağa başlamışdı. 313-cü ildə Alban çarı Urnayr xristianlığı Albaniyanın dövlət dini elan etdi. Azərbaycanın şimal hissəsində xristian məktəbləri yarandı. Güney Qafqazın əhalisindən xristian dinini qəbul edənlər bu məktəblərdə təhsil alırdılar. Albaniyada məskunlaşmış xəzər, sabir, hun və başqa türk tayfaları runi əlifbasından istifadə edirdilər. Bu əlifba ilə bütün türk xalqlarının mədəni irsi olan Orxon-Yenisey abidələri yaradılmışdı. Runi yazılarından başqa, türklərin bir qismi uyğur yazılarından istifadə edirdilər. Onlarda kitab mədəniyyəti də mövcud idi. IV əsrdə Qafqaz albanlarının 52 hərfdən ibarət əlifbası meydana gəldi. Əlifbanın yaradılmasından sonra Albaniyada məktəblər açıldı. Bu məktəblərdə zadəganların və ruhanilərin uşaqları oxuyurdu. Həmin məktəblərdə oxuyan şagirdlər aylıq təqaüd və gündəlik yeməklə təmin edilirdilər [11, s. 313].

Alban tarixçisi Musa Kalankatlının VII əsrdə yazılmış “Albaniya tarixi” əsərində göstərilir ki, “Albaniya hökmdarı Vaçaqanın əmri ilə bir kənd məktəbi təsis edilmişdi. Həmin kənddə olarkən bu məktəbə tez-tez gedir, bəzilərinin əlində yazı lövhəsi, digərlərində idtab olan şagirdlərin ucadan oxumaları ilə

maraqlanarmış". Həmçinin "Albaniya tarixi" əsərində Albaniyanın bir neçə kəndində mövcud olan məktəblərin adı çəkilir.

Albaniyada yaşayan türk tayfalarının kahinləri (şamanları) müxtəlif biliklərə malik idilər. Onların bir qismi xristianların dini-fəlsəfi ideyalarını mənimsəmiş, bir qismi isə qədim türk tanrıçılığına sadiq qalmışdılar. Cəmiyyətin həyatında baş verən dəyişikliklər sonralar yeni ictimai baxışların meydana gəlməsinə səbəb oldu. Vl-VII əsrlərdə azərbaycanlı alim və tələbələrin bir qismi Xuzistan vilayətində yerləşən və əsası yunanlar tərəfindən qoyulmuş dünya şöhrətli Cündişapur (Qondişapur) akademiyasında təhsil alır və işləyirdilər [8, s. 16].

VII əsrin ortalarından başlayan ərəb işğalları Yaxın və Orta Şərqin sosial-iqtisadi və mədəni həyatında köklü dəyişikliklər yaratdı. Sasani imperiyası süqut etdikdən sonra (651) ərəblər vaxtilə bu imperiyanın tabeliyində olan ölkələri, geniş ərazili yeni imperiyanın - ərəb xilafətinin tərkibinə qatdılar. Çox keçmədən Atropatena və Albaniya xilafətin tərkibinə qatıldı.

X əsr ərəb tarixçisi ət-Təbərinin "Tarix" əsərində Əməvi xəlifəsi Müaviyə bir dəfə qədim tarixə bələd olan yəmənli Abid İbn Şəriyyəyə belə sual verir: "Türklər və Azərbaycan nə deməkdir? Abid cavab verir: - Azərbaycan qədim türklərin yaşadığı ölkədir" [5, s. 203].

Dövrün tədqiqatçısı Ramil Ağayev qeyd edir ki, "Ərəbdilli müəlliflərin əsərlərində verilən məlumatlara əsasən belə nəticəyə gəlmək olar ki, artıq Ərəb xilafəti dövründə Azərbaycan dedikdə həm Araz çayından cənubdakı ərazilər, həm də Arran və Şirvan torpaqları da daxil olmaqla, Araz çayından şimaldakı Dərbəndə qədər olan ərazilər başa düşülürdü. Bir sözlə, tarixi Azərbaycan torpaqları cənubda Zəncandan başlayaraq, şimalda Dərbəndə qədər, şərqdə Xəzər dənizinin sahillərindən başlayaraq, qərbdə Tiflis şəhəri, Van gölü, Dəclə çayı yaxınlığınadək olan əraziləri əhatə etmişdir [2, s. 41].

Azərbaycanın xilafət tərkibinə qatılması ilə vahid etnik-siyasi coğrafiyanın, sosial-mədəni və mənəvi mühitin yaranması, Azərbaycan xalqının formalaşması prosesini sürətləndirdi və VII-IX əsrlərdə Azərbaycan xalqının formalaşması prosesi baş çatdı. Eyni zamanda vahid siyasi coğrafiya, türk-azərbaycan xalqının formalaşması, Azərbaycanda sosial-mədəni həyatın bütövlüyünü təmin etdi və elmin, təhsilin inkişafına ciddi təkan verdi.

Xilafət dövründə Azərbaycanda yerli əlifbalar (alban və atropatena əlifbaları – M.A.) ərəb əlifbası ilə əvəz olundu. Həmçinin İslamaqədərki Azərbaycan mədəniyyəti ilə İslam dövrü mədəniyyətinin sintezindən yeni bir Azərbaycan mədəniyyəti formalaşdı. Bu mədəniyyət uzun illər ümummüsəlman mədəniyyətinin tərkib hissəsi olmaqla yanaşı öz spesifikasını saxlamaqda davam edirdi.

Azərbaycanda əhalinin islam dinini qəbul etməsi ilə burada ümumtürk mədəniyyətinin islam mədəniyyəti ilə sintezindən yaranan daha inkişaf etmiş türk (Azərbaycan) - islam mədəniyyəti formalaşdı. Azərbaycan türkləri islam mədəniyyətinin nailiyyətlərinə yaradıcı mövqedən yanaşaraq həyatın bütün sahələrində böyük nailiyyətlər əldə etdilər. Ərəb dili bu mədəniyyətin mühüm amili idi. "Quran"ın dili Atlantik okeanından Hindistana qədər uzanan geniş bir ərazidə ona etiqad edən xalqların mədəniyyət və elm dili olmuşdu. İslam dininin yaratdığı mədəniyyətdə elmə və elmi axtarışlara böyük əhəmiyyət verilirdi. İngilis şərqşünas alimi U.M .Uott "Orta əsr Avropasına islamın təsiri" kitabında bu mərhələyə yüksək qiymət verərək yazırdı ki, şərq alimlərinin tədqiqatları olmasaydı, Avropada elm və fəlsəfə belə sürətlə inkişaf edə bilməzdi. Mübaliğəsiz demək olar ki, IX-XIV əsrlərdə islam dünyası bəşəriyyət sivilizasiyasının zirvəsini təşkil edirdi. Ən böyüık mədrəsələr (universitetlər), rəsədxanalar, xəstəxanalar, əczaxanalar və kitabxanalar məhz müsəlman Şərqində yerləşir, ən güclü alimlər burada çalışırdılar. Dövrün bəşəri, insani problemlərinə münasibətdə, dünyəvi məsələlərin öyrənilməsində Şərq alimləri xeyli irəli getmişdilər. Qərbdə dünyəvi elmlərin qadağan edildiyi, yalnız dini elmlərin öyrənildiyi bir dövrdə Şərq intibahı Qərbə ciddi təsir göstərmişdir. ABŞ şərqşünası Q.E.Qrünebaum isə yazır ki, elm, memarlıq, tikinti, gəmiçilik və s. sahələrdə Avropa həmişə Şərqə borcludur. Bu gün alimlər Şərq və Qərb mədəniyyətlərinin bir-birini qarşılıqlı zənginləşdirməsi ideyasına üstünlük versələr də, əslində, Qərb mədəniyyətindən daha çox Şərq mədəniyyəti Qərbə güclü təsir göstərmişdir. İslam mədəniyyətinin "dörd dirək" ideyası orta əsrlərdə Avropa universitetlərinin qapısı üstünə yazılıb vurulmuşdu: "Dünya dörd dirək üzərində durur: alimlərin hikməti, böyüklərin ədaləti, dindarların ibadəti və qəhrəmanların şücaəti" [8, s. 18-19].

VIII əsrdən etibarən Azərbaycan ərazisində tədricən müsəlman məktəbləri yayılmağa başladı. Azərbaycanda ilk müsəlman məktəbinin açılışı VIII əsrin birinci yarısına təsadüf edir (12).

Xilafətin bütiin ərazilərində, o cümlədən Azərbaycanda yeni elm sahələri inkişaf edib təkmilləşdikcə müasir tədris müəssisələrinin yaranması həyati zərurətə çevrilirdi. Belə müəssisələrdən biri də mədrəsələr (ərəbcə - öyrədilən yer deməkdir) idi. Mədrəsələrin yaranmasının əsas səbəbi elmi müzakirələrin keçirilməsi üçün müvafiq yerlərin olmaması idi. Çünki məsciddə bu cür müzakirələrin aparılması ədəb normalarına uyğun gəlmirdi. Mədrəsələr ikipilləli olurdu: orta təhsil verən və ali təhsil verən mədrəsələr.

Mədrəsədə əvvəlcə ərəb dilçiliyinin əsasları öyrədilir, daha sonra digər dünyəvi elmlər (filologiya, riyaziyyat, astronomiya) tədris olunurdu. Mədrəsəyə, əsasən yaşı 20-yə qədər olan gənclər qəbul edilirdi. Təhsil müddəti dörd il idi. Mədrəsəyə tutduğu ictimai mövqedən asılı olmayaraq, hər kəs qəbul olunurdu. Tələbələrə yemək, paltar və yataqxana verilirdi.

Qeyd etmək lazımdır ki, XII əsrdə Azərbaycanın müxtəlif şəhərlərində fəaliyyət göstərən mədrəsələr arasında Naxçıvan mədrəsələri diqqəti daha çox cəlb edir. Həmin mədrəsələr haqqında ilk məlumata XIII əsrdə naməlum müəllif tərəfindən yazılmış, "Əcaib əd-dünya" adlı kitabda təsadüf edilir. Burada yazılır: "Naxçıvan Azərbaycanda böyük və abad bir şəhərdir və orada çoxlu saraylar, mədrəsələr tikilmişdir... Naxçıvanda olan imarət, məscidlər və mədrəsələr heç bir kənd və şəhərdə yoxdur". Digər bir sənəddə 1186-cı ildə Naxçıvanda Möminə Xatun üçün tikilmiş məqbərənin vəqflərinə daxil olan iki mədrəsədən bəhs olunur [8, s. 26-27].

Azərbaycanın bir çox şəhərlərində mədrəsələr fəaliyyət göstərsə də, Marağa şəhəri XIII əsr təhsil şəbəkəsində xüsusi yer tuturdu. Belə ki, Marağa şəhərində mədrəsələrin sayı daha çox idi. Nəsirəddin Tusinin yaratdığı və 15 ildən artıq rəhbərlik etdiyi Marağa rəsədxanası riyaziyyat, astronomiya, fəlsəfə və bir çox digər elm sahələri üzrə dövrünün tanınmış alimlərinin elmi və pedaqoji fəaliyyətlərini birləşdirən nümunəvi tədris və elm ocaqlarından biri idi. Bəzi mənbələrin göstərdiyinə görə, burada 400 min cildlik əlyazma saxlanılırdı. Marağa rəsədxanasında Azərbaycan alimləri Fəxrəddin Marağayi və Şəmsəddin Şirvani, əslən tiflisli olan Fəxrəddin İxlati və eləcə də Yaxın və Orta Şərq ölkələrindən, Çindən gəlmiş alimlər çalışırdılar. Rəsədxanada elmi risalələr (traktatlar), ulduzlu səmanın xəritəsi, ulduz kataloqları tərtib olunurdu. Burada yazılmış əsərlər latın dilinə tərcümə olunaraq Avropada nəşr edilirdi. Marağa rəsədxanası başqa ölkələrdə astronomiyanın inkişafına böyük təsir göstərmişdir. O, Özbəkistandakı Uluqbəy rəsədxanası və məşhur Pekin rəsədxanası üçün nümunə rolunu oynamışdır.

Artıq XIV əsrdə bəzi mədrəsələrin nəzdində rəsədxana, müalicə evləri və elmi kitabxanalar təşkil edilmişdi. Belə təhsil ocaqları, əslində dövrün tanınmış alimlərinin elmi-pedaqoji fəaliyyətlərini birləşdirən mərkəzlər idi. Buna misal olaraq, "Şənb-i Qazan", "Rəb-i Rəşidi" və "Sultaniyyə" mədrəsələrini göstərmək olar. Təbrizdə tikintisi 1302-ci ildə başlanmış "Şənb-i Qazan" təhsil müəssisəsi kompleksi - məscid, xanəgah (şeyxin rəhbərliyi ilə dərvişlərin yaşadıqları və ibadət etdikləri yer), iki mədrəsə, dar-üş şəfa (xəstəxana), rəsədxana, kitabxana, kitabları və rəsədxana cihazlarını təmir edən emalatxana, məktəbxana, körpələr evi, mədəni məişət ocaqları və müdiriyyət evindən ibarət olmuşdu [13, s. 35-36].

XIII-XIV əsrlərdə böyük elm və təhsil ocağı olan "Rəb-i Rəşidi" təhsil kompleksi Fəzlullah Rəşidəddinin (1247-1318) təşəbbüsü ilə Təbriz yaxınlığında təşkil edilmişdi. "Rəb-i Rəşidi" universitet şəhərciyi tipində tikilmiş elm və təhsil müəssisəsi idi. Burada din, fəlsəfə, təbiət, nücum və tibb şöbəsi fəaliyyət göstərirdi. "Rəb-i Rəşidi" də 7 min tələbə təhsil alırdı ki, onların da təhsil-tərbiyəsi ilə 450-dən çox müəllim məşğul olurdu. Tələbələrdən 1000 nəfəri azərbaycanlı idi, digərləri isə müxtəlif Şərq ölkələrindən gəlmişdi.

Burada Çin, Hindistan, Misir və Suriyadan cəlb edilmiş yüksək səviyyəli mütəxəssislər də çalışırdı.

XIV əsrin əvvəllərində Azərbaycan şəhərlərində yeni təhsil ocaqları və mədrəsələr açıldı. 1301-ci ildə Bakıdakı Cümə məscidinin yanında tikilmiş mədrəsə buna misaldır [3, s. 172].

XV-XVI əsrdə Azərbaycanda məktəb və mədrəsələrin, kitabxanaların sayı artdı. Xüsusilə də, Şah İsmayıl Xətainin dövründə yeni məktəb və mədrəsələrin açılması ilə yanaşı, həm də klassik əsərlər toplandı, xəttatlar hazırlandı, nadir kitabların üzü köçürüldü və bu kitablara çoxlu miniatürlər çəkildi. Şah İsmayılın Azərbaycanda yaratdığı rəssamlıq məktəbi Seyid Əhməd Behzat, Ağa Mirək Təbrizi, Əli Nəqqaş kimi məşhur rəssamlar yetirdi. O dövrdə musiqi sahəsində də böyük nailiyyətlər əldə edildi.

Övliya Çələbinin "Səyahətnamə" əsərində verdiyi məlumata görə, XVII əsrdə Azərbaycan ərazisində 1200 ibtidai məktəb və 100 mədrəsə (orta və ali məktəb) var idi. Orta hesabla hər məktəbdə 50 -100 nəfərə qədər şagird, hər mədrəsədə isə yüzlərlə və bəzi halda isə 1000-dən artıq tələbə təhsil alırdı. "Səyahətnamə" əsərində göstərilir ki, 1647-ci ildə Təbrizdə 600 ibtidai məktəb və 47 mədrəsə var idi. Mədrəsələrdə həm dini, həm də dünyəvi elmlər öyrədilirdi. Ərdəbil, Marağa, Gəncə kimi şəhərlərdə dini məktəblər və mədrəsələr açılmışdı. Marağa rəsədxanası bərpa edilmişdi. (6).

XVII-XVIII əsr Azərbaycan tarixində milli məktəb və maarifin inkişafını xüsusi olaraq qeyd etmək lazımdır. Bu dövrdə ərəb və fars dilləri ilə yanaşı, Azərbaycan dili də öz milli hüququna yiyələnmiş, istifadə dairəsi genişlənmişdi.

XVIII əsrdə Azərbaycan dili elmdə daha geniş istifadə olunmağa başlandı. Məhəmməd Həsən xan Müştaq, Məhəmməd Zari, Arif Təbrizi, Arif Şirvani, Ağa Məsih Şirvani, Baba Şirvani, Xəstə Qasım, Molla Vəli Vidadi, Molla Pənah Vaqif və digərləri təhsil və maarif sahəsindəki tənəzzülü aradan qaldırmaq üçün əllərindən gələni edirdilər. Molla Vəli Vidadinin Cəbrayılın Çələbilər kəndində, Molla Pənah Vaqifin Şuşanın Saatlı məhəlləsində açdığı məktəb yerli əhalinin təhsilə cəlb olunmasında əhəmiyyətli rol oynadı

XIXəsrdə "Gülüstan" (1813) və "Tiirkmənçay" (1828) sazişlərinə əsasən, Azərbaycan iki yerə bölündü: Şimali Azərbaycan çar Rusiyasının, Cənubi Azərbaycan isə Qacarlar dövlətinin tərkibinə daxil edildi. Şimali Azərbaycan islam-türk dünyasında gedən proseslərdən ayrıldı, Şərq ölkələri ilə çoxəsrlik əlaqələr qırıldı. Rus-Avropa elmi-mədəni fikri Şərq xarakterli Azərbaycanın mədəni, ictimai təfəkkürünü üstələdi. Azərbaycanda təhsilə dair çar Rusiyasının həyata keçirdiyi siyasət Qafqazda, xüsusilə, Güney Qafqazda apardığı siyasətin tərkib hissəsi olmaqla, daha sərt xarakter daşıyırdı. Bu siyasət elə qurulmuşdu ki, təhsilin əsas məqsədi yerlərdə, dövlət idarələrində işləyə biləcək qulluqçular - məmurlar hazırlanmasına xidmətdən irəli getməsin,

imperiya daxilində yaşayan xalqların milli-mənəvi dəyərləri, adət və ənənəsi, mədəniyyəti inkişaf etməsin, "çar ata"ya sədaqətli təbəələr tərbiyə edilsin. Qafqazda tətbiq edilən ümumi ruslaşdırma siyasəti ilə bərabər, azərbaycanlıların gələcəkdə xristianlaşdırma siyasətinin həyata keçirilməsi də nəzərdə tutulurdu. Məhz bu spesifiklik çar Rusiyasının Azərbaycanda həyata keçirdiyi təhsil siyasətinin mühüm istiqamətlərini təşkil edirdi. Çarizm Azərbaycanda ruslaşdırma siyasətini iki istiqamətdə həyata keçirirdi: 1) üləmaları, mollaları və əfəndiləri idarələrdə məmur vəzifələrinə təyin edərək, öz xidməti qulluqçusuna çevirmək; 2) azərbaycanlı uşaqları rus məktəblərində oxudub, onlardan rus təbiətli "uçitellər" hazırlamaq [1, s. 40].

Azərbaycan xalqını müstəmləkəçilik rejiminə alışdırmaq və xristianlaşdırmanı həyata keçirmək üçün təhsili ruslaşdırma siyasətinə tabe etmək zəruri idi. Millətin ruhuna, təfəkkür tərzinə zidd olan bu ideyanın gerçəkləşdirilməsi məqsədilə XIX əsrin 30-cu illərində Güney Qafqazda, o cümlədən Azərbaycanda Avropa Rusiyasındakı məhəllə məktəbləri tipli qəza məktəblərinin ilkin layihələri meydana gəldi. Çar Rusiyasının 1829-cu və 1835-ci illərdə təsdiq etdiyi "Zaqafqaziya məktəblərinin əsasnaməsi"nə uyğun olaraq, əhali arasında rus dilini yaymaq, onlara ibtidai təhsil vermək məqsədilə Şuşa (1830), Nuxa (Şəki) (1831), Bakı (1832), Gəncə (1833), Naxçıvan (1837) və Şamaxıda (1838) qəza məktəbləri açıldı.

Çox keçmədi ki, çar hökuməti yerli əhalidən rus dilini bilən ruhani şəxslər hazırlamaq Şərq dillərini bilən və mütləqiyyətə sadiq məmurlar yetişdirmək məqsədilə müsəlman məktəbləri açmaq məcburiyyətində qaldı. 1848-ci ildə Tiflisdə ilk müsəlman məktəbi olan Əliyyə (şiə), 1849-cu ildə isə Öməriyyə (sünni) məktəbləri açıldı. Bu məktəblərin proqramında dini elmlərin tədrisi böyük yer tuturdu. Yerli əhali tərəfindən rəğbətlə qarşılanan bu tip məktəblər sonralar Gəncə, Şuşa, Nuxa (Şəki), Şamaxı, Bakı şəhərlərində, Salyan, Lənkəran və Zaqatalada təşkil edildi. Bu tip məktəblərin açılması çarizmin milli ucqarlarda mövqeyinin möhkəmlənməsinə xidmət etsə də, azərbaycanlılara məxsus məktəblərin təşkili sahəsində mütərəqqi bir addım idi. Lakin müsəlman məktəbləri kütləvi təhsil məktəblərinə çevrilə bilmədi. Çarizmin maarif məmurları çalışırdılar ki, azərbaycanlı uşaqlar müsəlman məktəblərində deyil, digər dövlət məktəblərində oxusunlar. Bir faktı da xüsusilə qeyd etmək lazımdır ki, onların ayrı-ayrılıqda təşkil etdikləri "şiə" və "sünni" məktəbləri çox zərərli və qorxulu bir təmayülün yaranmasından xəbər verirdi [8, s. 43].

Bu dövrdə Qarabağ bölgəsində və Şuşa Şəhərində də elm-təhsil inkişaf etməkdə idi. Məlumdur ki, Qarabağ regionun ictimai həyatının və sosial-mədəni mühitinin təşəkkülündə Şuşa şəhərinin rolu olduqca böyükdür. Xüsusilə də XVIII əsrdən etibarən başlayaraq Şuşa şəhərinin sosial-mədəni həyatında baş verən intibah prosesi təkcə bu şəhərlə hüdudlanmamış, Azərbaycanın digər

bölgələrinin elm-təhsil və mədəni inkişafına da ciddi surətdə təsir etmişdir. Azərbaycanın Şimal hissəsi çar Rusiyası tərəfindən 1828-ci ildə işğal olunduqdan sonra işğalçı rejimin sosial-mədəni həyatda həyata keçirdiyi müstəmləkəçilik siyasəti cəmiyyətin ictimai və mədəni mühitinə ciddi zərbə vurdu. Bu baxımdan Azərbaycan xalqını müstəmləkəçilik rejiminə alışdırmaq və xristianlaşdırmanı həyata keçirmək üçün təhsili ruslaşdırma siyasətinə tabe etmək zəruri idi. Millətin ruhuna, təfəkkür tərzinə zidd olan bu ideyanın gerçəkləşdirilməsi məqsədilə XIX əsrin 30-cu illərində Güney Qafqazda, o cümlədən Azərbaycanda dünyəvi xarakterli ibtidai sinif məktəbləri - qəza məktəblərinin ilkin layihələri meydana gəldi. Çar Rusiyasının 1829-cu və 1835-ci illərdə təsdiq etdiyi "Zaqafqaziya məktəblərinin əsasnamə"sinə uyğun olaraq, əhali arasında rus dilini yaymaq, onlara ibtidai təhsil vermək məqsədilə ilk olaraq 1830-cu ildə Şuşada qəza məktəbi fəaliyyətə başladı. Şuşa şəhərində fəaliyyət göstərən bu avropa tipli dünyəvi təhsil məktəbi Azərbaycanda dünyəvi təhsil sisteminin formalaşmasında mühüm rol oynamışdır. 3 sinifdən ibarət olan Şuşa qəza məktəbində şəriət, rus dilinin qrammatikası, coğrafiya, tarix, hesab və həndəsə, yerli dillər, hüsnxət, rəsm və rəsmxət tədris olunurdu. Azərbaycan dili ruslar üçün də məcburi fənn hesab edilirdi..Şuşa qəza məktəbində ənənəvi məktəblərdən (mədrəsə) fərqli olaraq, yeni üsullar tətbiq olunur, dünyəvi elmlər öyrədilirdi. 1860-cı illərin məktəb islahatı nəticəsində bütün sosial təbəqələrdən olan uşaqların ibtidai təhsil prosesinə cəlb edilməsi məqsədilə şəhər məktəbləri yaradıldı. Cənubi Qafqazda və Azərbaycanda yaradılan ilk şəhər məktəbi 1874-cü ildə Şuşa şəhərində fəaliyyətə başlamışdır.

XIX əsrin ikinci yarısında Azərbaycanda milli şüurun formalaşmasında ictimai-siyasi fikrin və maarifçilik hərəkatının böyük rolu vardır. Maarifçilər və onların ardıcılları dərk edirdilər ki, xalqın maariflənməsi millətin tərəqqisinin ən mühüm şərtidir. 1875-ci ildə Şuşa Xeyriyyə Cəmiyyətinin nəzdnində fəaliyyət göstərən qız məktəbi, 1881-ci ildə Şuşa realnı gimnaziyası, 1893-cü ildə Şuşa şəhərində fəaliyyətə başlayan Rus-Azərbaycan məktəbi, 1911-ci ildə Şuşa qız məktəbi, 1914-cü ildə Şuşa ali ibtidai məktəb və digər təhsil ocaqları Qarabağ bölgəsində, bütpvlükdə isə Azərbaycanda maarifçilik hərəkatının vüsət almasında müstəsna rol oynamışdır. Məhz bunun nəticəsi idi ki, Əhməd bəy Ağaoğlu, Yusif Vəzir Çəmənzəminli, Firudin bəy Köçərli, Səfərəli bəy Vəlibəyov, Bədəl bəy Bədəlbəyov, Fərhad Ağazadə, Haşim bəy Vəzirov, Azad bəy Əmirov Azərbaycanın bir çox görkəmli ictimai-siyasi xadimləri, pedaqoq və mədəniyyət nümayəndələri Şuşa elm-təhsil mühitinin yetirmələri olmuşdur.

XIX əsrdə Azərbaycanda qadın təhsili sahəsində müəyyən addımlar atıldı, ilk vaxtlar azərbaycanlı qızlar üçün təhsil məhdud dairədə - evlərdə xüsusi şəxslər tərəfindən həyata keçirilirdi. Bakıda Xırdaxanımın, Şamaxıda Güllübəyimin qız məktəbləri məşhur idi. Azərbaycanın işğalından sonra buraya hərbi və mülki xidmətə göndərilən rusların sayı artdı. Onların təşəbbüsü ilə

1848-ci ildə Şamaxıda ilk rus qız məktəbi açıldı. Bu işin təşəbbüskarı "Müqəddəs Nina" Qadın Xeyriyyə Cəmiyyəti idi. Rus zədagən mühitində formalaşan bu cəmiyyət Güney Qafqazda rus təsirini artırmaq, rus zadəganlığına xidmət etmək məqsədi daşıyırdı. "Müqəddəs Nina" məktəbində 24 azərbaycanlı qız oxuyurdu [8, s. 46-47].

XX əsrin əvvəllərində təhsilin inkişafına mane olan ciddi problemlər Azərbaycan müəllimlərinin I (1906) və II (1907) qurultaylarında geniş müzakirə olundu. Rusiya müsəlmanlarının birinci (15 avqust 1905-ci il-Nijni Novqorod), ikinci (13-23 yanvar 1906-cı il-Peterburq), üçüncü (10-25 avqust 1906-cı il-Nijni Novqorod) qurultayları azərbaycanlı müəllimlərin də bir araya gəlməsində çox böyük rol oynadı.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti xalq maarifinin, elm və mədəniyyətin inkişafını dövlət quruculuğunun təməl prinsiplərindən, ən vacib atributlarından saymaqla, xalq maarifinin məzmun və struktur cəhətdən müstəqil dövlətçilik ənənələrinə uyğun yenidən qurulmasını milli hökumətin əsas vəzifələrindən biri kimi bəyan etdi. Təhsilə, maarifə belə münasibətin nəticəsi idi ki, hələ Tiflisdə yaranan ilk Müvəqqəti hökumət kabinetinin (28.05.1918-17.06.1918) tərkibindəki 9 nazirlikdən biri Xalq Maarif Nazirliyi idi. Birinci Azərbaycan hökuməti kabinetində "Maliyyə və Xalq Maarif Nazirliyi" kimi fəaliyyətə başlayan bu nazirlik sonrakı 4 hökumət kabinetində "Xalq Maarifi və Dini Etiqad Nazirliyi» adlandırılmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin I, II, III hökumət kabinetlərində (28.05.1918-14.04.1919) Nəsib bəy Yusifbəyli (1881-1920), IV hökumət kabinetində (14.04.1919-24.12.1919) Rəşid xan Kaplanov (1883-1937), V hökumət kabinetində isə Həmid bəy Şahtaxtinski (1880 - 1944) xalq maarif nazirləri olmuş, sonuncunun istefasından sonra qısa müddətdə (05.04.1920- 27.04.1920) Nurməhəmməd bəy Şahsuvarov (1883-1958) nazir vəzifəsini icra etmişdir [7, s. 27-30].

Nazirlik yarandığı ilk gündən Azərbaycan Xalq Cümhuriyyətinin təhsil siyasətinin əsas istiqamətlərindən olan təhsil müəssisələrinin milliləşdirilməsi məsələsini ön plana çəkdi, ümumi icbari təhsil layihələri hazırladı, kəndlərdə, şəhərlərdə yeni məktəblər açmağa qərar verdi. Ölkədə fəaliyyət göstərən bütün maarif ocaqları, məktəblər onun tabeliyinə verildi. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin maarif, təhsil, elm və mədəniyyət sahəsində apardığı siyasətin reallaşdırdığı təxirəsalınmaz tədbirlərin və keçirilməsi nəzərdə tutulan islahatların əsas istiqamətləri, əsasən, aşağıdakılardan ibarət idi:
- Azərbaycanda fəaliyyət göstərən maarif müəssisələrinin, təhsil ocaqlarının qısa müddətdə, istisnasız olaraq milliləşdirilməsi.

Ölkənin idarə olunmasını təmin edəcək ali təhsilli mütəxəssislərin hazırlanması Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ən çox əhəmiyyət verdiyi sahələrdən biri idi. Bu vəzifənin icra edilməsi istiqamətlərindən biri azərbaycanlı gənclərin dövlət hesabına xarici ölkələrin tanınmış ali

məktəblərinə təhsil almağa göndərilməsi idi. Elə o vaxtdan təhsil tariximizdə azərbaycanlıların xaricdə dövlət səviyyəsində təhsil almasının təməli qoyuldu. Bu məqsədlə Azərbaycan Parlamenti xüsusi komissiya təşkil etmişdi. Komissiyaya deputatlardan Məhəmməd Əmin Rəsulzadə (sədr), Mehdi bəy Hacınski, Qarabəy Qarabəyov, Əhməd bəy Pepinov, Abdulla bəy Əfəndiyev (üzvlər) daxil idilər. Komissiyanın gərgin əməyi və ciddi axtarışları ilə xaricə ali təhsil almağa göndəriləcək 100 tələbə seçildi, onların yol xərcləri və təqaüdlərinin həcmi müəyyənləşdirildi. Xaricə ali təhsil almağa göndərilən tələbələrin Bakı dəmiryol vağzalından yolasalma mərasimində Parlament komissiyası üzvləri ilə yanaşı, Parlamentin və hökumətin üzvləri, tanınmış xeyriyyəçilər, iş adamları, din xadimləri, ictimaiyyətin nümayəndələri iştirak edirdilər. 10 nəfərin İngiltərəyə, 23 nəfərin İtaliyaya, 45 nəfərin Fransaya, 9 nəfərin Türkiyəyə, 13 nəfərin Rusiyaya göndərilməsi qərara alınmışdı. Azərbaycan Xalq Cümhuriyyətinin V hökumət kabinetində maarif naziri işləyən Həmid bəy Şahtaxtinski Parisdəki Azərbaycan nümayəndə heyətinin başçısı Əlimərdan bəy Topçubaşova məktub yazıb bu gənclərin ali məktəblərə yerləşdirilməsi və xaricdə yaşayış yeri ilə təmin olunmasına qayğı ilə yanaşmağı ondan xahiş etdi. Seçilən tələbələr 1920-ci ilin soyuq yanvar günündə Parlament və hökumət üzvlərinin, tanınmış iş adamlarının, din xadimlərinin, ictimaiyyətin iştirakı ilə təntənəli şəkildə yola salındı, 13 nəfəri isə Rusiyada vətəndaş müharibəsi başladığına görə göndərmək mümkün olmadı. Dövlət hesabına xaricə ali təhsil almağa göndərilən tələbələrdən başqa, Parlament komissiyası tərəfindən 31 nəfər əlavə abituriyent də seçilmişdi ki, onların da öz hesabına, yaxud mesenatların maliyyə dəstəyi ilə Qərbi Avropa ölkələrinin ali məktəblərində təhsil alması nəzərdə tutulmuşdu. Xaricə göndərilən həmin tələbələrin xərci üçün hökumət Xalq Maarif Nazirliyinin sərəncamında olan dövlət xəzinəsindən 7 milyon manat ayırmışdı. Avropaya göndərilənlərin hər biri üçün 1000 frank yolxərci, hər ay isə 400 frank təqaüd, Rusiyaya göndərilənlər üçün isə 3 min rubl yolxərci və hər ay bir o qədər də təqaüd nəzərdə tutulmuşdu. Dövlət hesabına oxuyan tələbələr təhsilini başa vurduqdan sonra hökumətin göndərdiyi yerdə 4 il işləməli idilər [10, s. 191-195].

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət göstərdiyi 2 il ərzində bütün çətinliklərə və məhrumiyyətlərə baxmayaraq, xalq maarifinin yenidən təşkili sahəsində xeyli iş görüldü. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Bakı Dövlət Universiteti, Kənd Təsərrüfatı İnstitutu, Pedaqoji İnstitut və Dövlət Konservatoriyasının açılması üçün müəyyən təşkilati işlər aparsa da, o dövrdə yaranmış tarixi-siyasi şərait yalnız Bakı Dövlət Universitetini təsis etməyə imkan verdi.

1920-ci il aprelin 27-də XI Qırmızı ordu Azərbaycanı işğal etdi. Milli hökumət devrildi. Süngülər üstündə hakimiyyətə gələn bolşeviklər Milli

hökumət üzvlərinin böyük əksəriyyətini cismən məhv etdilər. Ölümdən qurtulanlar isə mənəvi terrora məruz qaldılar. İctimai-siyasi və mədəni həyatda köklü dəyişikliklərin əsası qoyuldu. O dövrdə Rusiyada olduğu kimi, Azərbaycanda da ictimai fikrə təsir göstərə biləcək insanların böyük əksəriyyəti sosialist inqilabını dərhal qəbul etmədilər. Sovet hökumətinin təhsil sahəsinə dair göstərişlərini utopiya, yaxud da şüurlu yalan hesab edərək bolşeviklərlə əməkdaşlıq etməkdən qəti imtina etdilər. Hələ o dövrdə görkəmli rus mütəfəkkiri Georgi Valentinoviç Plexanov uzaqgörənliklə yazırdı: "Baş vermiş inqilab qədim Çin və Peruvin imperiyaları kimi siyasi eybəcərliyə, yəni kommunizm zəminində təzələnmiş çar despotizminə gətirib çıxara bilər" [9, s. 13].

Azərbaycanda sovet hakimiyyəti qurulan kimi respublikada xalq maarif sistemi sosializm ideologiyası əsasında təşkil edilməyə başlandı. Bu işdə Sovet Rusiyasının ümumi təhsil modeli əsas götürüldü. Vahid dünyəvi əmək məktəbi, oğlanlarla qızların birgə təhsili, pulsuz təhsil, təhsildə hüquq bərabərliyi prinsipləri ön plana çəkildi.

Azərbaycanda sovet hakimiyyəti dövründə təhsil tamamilə yeni məzmun kəsb etdi. Sovet dövrünün təhsil siyasəti "sosializm və kommunizm quruculuğu" işinə istiqamətlənmiş nəsil yetişdirməyə yönəlmişdi. Bu məqsədlə bütün sovet respublikalarında, o cümlədən Azərbaycanda geniş məktəb şəbəkəsi yaradıldı, onların tədris-maddi bazasının möhkəmləndirilməsi, pedaqoji kadrlarla təmin edilməsi, dərslik və dərs vəsaitləri ilə pulsuz təchiz olunması sahəsində müvafiq tədbirlər həyata keçirildi, məktəbyaşlı uşaqların hamılıqla icbari ümumi orta təhsillə əhatə olunmasına şərait yaradıldı. Qısa bir müddət ərzində icbari ibtidai təhsil (1930- 1934-cıı illər), icbari natamam orta təhsil (yeddiillik - 1935— 1958-ci illər, səkkizillik - 1959- 1966-cı illər), icbari ümumi orta təhsil (1967— 1975-ci illər) həyata keçirildi [9, s.13].

Sovet hakimiyyəti dövründə də Qarabağ bölgəsi və Şuşa şəhəri elm-təhsil sahəsində öz inkişaf dinamikasını qorumaqda idi.

Azərbaycanın tanınmış, sayılıb-seçilən təhsil ocaqlarından biri olan Şuşa Mədəni-Maarif Texnikumu 1922-ci ildə Şuşa Müəllimlər Seminariyası kimi fəaliyyətə başlamışdır. Həmin il seminariyaya 76 nəfər qəbul edilmişdir. 30-cu illərdən 70-ci illərədək Qarabağın müxtəlif rayonlarında - Ağdam, Şuşa, Füzuli və Laçında pedaqoji məktəblər fəaliyyət göstərirdi. Respublika rəhbərliyi bu təhsil ocaqlarını birləşdirmək qərarını qəbul edəndə maddi-texniki baza, əlverişli coğrafi mövqe nəzərə alınaraq Şuşaya üstünlük verildi və həmin məktəblər Şuşa Pedaqoji Məktəbinin bazasında birləşdirildi. 1976/77-ci tədris ilindən təhsil ocağına əlavə iki ixtisas - kitabxanaçılıq və mədəni-maarif işi ixtisasları üzrə tələbə qəbulu keçirildi. Azərbaycan Respublikası Ali və Orta ixtisas Təhsili Nazirliyinin 11 noyabr 1981-ci il tarixli əmrinə əsasən pedaqoji məktəb Mədəni-Maarif Texnikumu adlandırıldı, buraya ibtidai sinif müəllimi ixtisası üzrə tələbə qəbulu dayandırıldı. Qəbul yalnız kitabxanaçılıq və mədəni-

maarif işi üzrə aparıldı. Ermənilərin separatçılıq fəaliyyətinin güclənməsi məktəbin tədris və təlim-tərbiyə işlərini pozdu.

1980-ci ilin sonunda respublikada 75 orta ixtisas məktəbi fəaliyyət göstərirdi. Onlardan 27-si Bakıda, 4-ü Naxçıvanda, 5-i Dağlıq Qarabağ Muxtar Vilayətində, qalan 39 texnikum isə Azərbaycanın 17 şəhər və rayonunda yerləşirdi.

60-cı illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Xankəndi filialı yaradıldı. 1973-cü ildə isə Xankəndi Dövlət Pedaqoji İnstitutu yaradıldı. 1961-ci ildə Ağdam musiqi məktəbinin filialının bazasında Xankəndi orta ixtisas musiqi məktəbi yarandı. Burada təhsil Azərbaycan, rus və erməni dillərində aparılırdı. Məktəbdə 71 müəllim dərs deyirdi. Qəbul 8-ci sinif bazasında idi. Şuşada və ətraf rayonlarda milli musiqi sənətinin inkişafı üçün gözəl şərait, zəngin ənənə, musiqi mədəniyyətinə məhəbbət olduğunu, habelə məktəblərdə musiqi müəllimlərinin çatışmadığını nəzərə alaraq 1982-ci ildə Xankəndi Musiqi Məktəbinin Şuşa filialının bazasında müstəqil Şuşa Musiqi Məktəbi təsis olundu [9, s. 261].

Azərbaycanın Qarabağ bölgəsi ermənilər tərəfindən işğal olduqdan sonra bu ərazi ilə əlaqə kəsildi. Dağlıq Qarabağın Xocavənd, Ağdərə, Əsgəran, Xankəndi, Hadrut, Şuşa rayonlarında 126 məktəb və onların 904410 nüsxə kitab fondu olan kitabxanaları işğal altında qaldı [9, s. 616].

1992-ci ilin 8 may tarixində Şuşanın işğalından sonra Şuşanın məktəbləri ölkənin müxtəlif rayonlarında müvəqqəti məskunlaşıblar. Hazırda Şuşa rayonunda 21 ümumtəhsil məktəbi fəaliyyət göstərir. Həmin məktəblərdə çalışan 480 nəfərə yaxın pedaqoji işçi 4 mindən artıq şagirdin təlim-tərbiyəsi ilə məşğul olur.

II Qarabağ – Vətən Müharibəsində Ali Baş Komandan Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın müzəffər ordusu Qarabağ bölgəsini düşmən tapdağından azad etdi. Hal-hazırda Qarabağ bölgəsində və Şuşa şəhərində quruculuq işlərinin tərkib hissəsi olaraq elm-təhsil müəssisələrinin infrastrukturunun qurulması istiqamətində ciddi işlər görülür.

Rəsmi məlumatlara görə, Şuşada yeni məktəbin tikintisi yekunlaşmaq üzrədir. Həmçinin Ağdamda 1 saylı orta məktəbin də tikintisi yekunlaşmaqdadır. Hər iki məktəb növbəti tədris ilindən istifadəyə veriləcəyi gözlənilir. Suqovuşan qəsəbəsində orta məktəbin tikintisi başa çatmış, Füzuli rayonunda isə peşə liseyi və orta məktəblərin tikintisi davam edir.

Ümumiyyətlə, qədim tarixə malik olan Azərbaycanda elm və təhsil sistemi həmişə dövlət sisteminin əsaslarını təşkil etmiş, tarixin bütün dövrlərində davamlı şəkildə inkişaf etmişdir. Azərbaycanda təhsil sistemi XIX-XX əsrin əvvəllərinə qədər əsasən ənənəvi əsaslara söykənmiş, Azərbaycan Xalq Cümhuriyyəti dövründən etibarən isə milli və dünyəvi xarakter daşımışdır. Azərbaycan təhsil sisteminin inkişafında Qarabağ və Şuşa şəhərinin təhsil

ənənələrinin böyük rolu olmuşdur. Xüsusilə də, XIX əsrdən etibarən Şuşa şəhəri Azərbaycan dünyəvi təhsilinin mərkəzlərindən biri olmuşdur.

**Ədəbiyyat**


1. Ağayev Ə., Rzayev V. Giiney Qafqaz xalqlarının pedaqoji əlaqələri tarixindən. Bakı, Təhsil, 2004.
2. Ağayev. R. Ərəb xilafəti dövründə Azərbaycanın əhalisi. Bakı, Turxan, 2017
3. Ашурбейли С. Очерк истории средневекового Баку. Баку, 1964.
4. Azərbaycan Milli Ensiklopediyası, Bakı, 2007.
5. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 2007.
6. İshaqi N. XVI-XVII əsrlər Azərbaycanında məktəb və mədrəsələr. "Azərbaycan məktəbi" jurnalı, № 5, 1974.
7. Mərdanov M., Quliyev Ə. Azərbaycan təhsili Xalq Cümhuriyyəti illərində. Bakı, 2003.
8. Mərdanov M. Azərbaycan təhsil tarixi. I cild, Bakı, Təhsil, 2011.
9. Mərdanov M. Azərbaycan təhsil tarixi: 1920-1991-ci illər . II cild, Bakı, 2011.
10. Nəzərli Ə. Azərbaycan Cümhuriyyətində xalq təhsili (1918 -1920). Bakı, 2018.
11. Тревер К. Очерки по истории и культуре Кавказской Албании. М., 1959
12. Yəqubi Ə. Azərbaycanda məktəb tarixinə dair bəzi qeydlər. "Ədəbiyyat və incəsənət" qəzeti, № 6, 23 iyul, 1982-ci il.
13. Yəqubi Ə. Azərbaycanda ilk akademiya. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun elmi əsərləri, XI seriya, № 3, Bakı, 1966.

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2022, 4 (37), s.56-65

# ŞUŞALI SÜLEYMAN SANİ AXUNDOV

**Aygün Bağırlı**
**AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu**
**aygunbagir77@gmail.com**

**Açar sözlər:** S.S.Axundov, yazıçı, maarif xadimi, Şuşa mühiti.

**Xülasə**

*Nasir, dramaturq, pedaqoq, ictimai xadim Süleyman Sani Axundov Azərbaycan ədəbiyyatında maarifçi realizm cərəyanının örnək nümunələrini yaradan, uşaq ədəbiyyatının inkişafına və formalaşmasına xidmət edən istedadlı və maarifpərvər yazıçıdır. Teatrın xalqın düşüncə tərzinə təsirini bilən Süleyman Sani işlədiyi məktəblərdə tamaşaların qoyulmasına şərait yaradır, köməklik göstərir, yeri gələndə aktyor kimi də səhnəyə çıxırdı.*

*S.S.Axundov, həmçinin, əsas məqsədi maarifçilik, milli dilin və ədəbiyyatın, təhsilin, mədəniyyətin inkişafına xidmət etmək olan "Nicat" cəmiyyətinin fəal üzvlərindən idi.*

*Süleyman Sani Axundov həm nasir, həm dramaturq, həm pedaqoq kimi dövrünün aparıcı şəxsiyyəti olmuş, uşaqların, gənc nəslin, ümumilikdə cəmiyyətin maariflənməsi üçün misilsiz xidmətlər göstərmişdir. O, tələbələri, müasirləri və oxucularının yaddaşında fədakar müəllim, xeyirxah insan və sevimli yazıçı kimi qala bilmişdir.*

## ШУШИНЕЦ СУЛЕЙМАН САНИ АХУНДОВ

**Айгюн Багирли**

**Ключевые слова:** С.С.Ахундов, писатель, педагог, Шуша, образование.

**Резюме**

*Прозаик, драматург, педагог, общественный деятель Сулейман Сани Ахундов талантливый и просвещенный писатель, создавший образцовые примеры движения просветительского реализма в азербайджанской литературе и служивший развитию и формированию детской литературы. Сулейман Сани, который знал о влиянии театра на образ мышления людей, создает условия и оказывает помощь для установки спектаклей в школах, в которых работает и выступал на сцене как актер.*

*Ахундов С.С. также был одним из активных членов общества «Ниджат», основной целью которого являлся служение развитию*

*просветления, национального языка и литературы, образования и культуры.*

*Сулейман Сани Ахундов, будучи ведущей личностью своего времени как прозаик, драматург и педагог, оказал беспрецедентные услуги для просвещения детей, молодого поколения и общества в целом. Он смог остаться в памяти своих учеников, современников и читателей как самоотверженный учитель, добрый человек и любимый писатель.*

## SULEYMAN SANI AKHUNDOV FROM SHUSHA

**Aygun Bagirli**

**Keywords:** S.S.Akhundov, writer, pedagogue, Shusha, education.

**Summary**

*Writer, dramatist, pedagogue, public figure Suleyman Sani Akhundov is a gifted and enlightened writer who contributed to the growth and formation of children's literature and created notable examples of the enlightened realism movement in Azerbaijani literature. Suleyman Sani, who was aware of how theater affects people's way of thinking, set up the necessary conditions for plays to be performed at the schools where he worked, provided assistance, and if it was needed, he also performed as an actor.*

*One of the prominent members of the "Nijat" association, whose main objectives are the advancement of education, national language and literature and culture, was S.S.Akhundov. Suleyman Sani Akhundov as a significant figure of his time in prose writing, drama and pedagogy, provided unequalled services for the upbringing of children, the younger generation and society in general. He is remembered among his students, contemporaries and readers as an altruist teacher, a kind person and a favorite writer.*

Nasir, dramaturq, pedaqoq, ictimai xadim Süleyman Sani Axundov Azərbaycan ədəbiyyatında maarifçi realizm cərəyanının örnək nümunələrini yaradan, uşaq ədəbiyyatının inkişafına və formalaşmasına xidmət edən istedadlı və maarifpərvər yazıçıdır.

Süleyman Sani Rzaqulu bəy oğlu Axundov 1875-ci il oktyabr ayının 21-də Azərbaycanın qədim mədəniyyət ocağı olan Şuşa şəhərində bəy ailəsində anadan olmuşdur. O, iki aylıq olarkən atası Rzaqulu bəy dünyasını dəyişmiş, ailənin üç övladını – Mahtaban, Rüstəm və Süleymanı böyüdüb boya-başa çatdırmaq anaları Dürnisə xanımın öhdəsinə düşmüşdür. Dürnisə xanımın qardaşı – tanınmış maarif xadimi, pedaqoq, "Vətən dili", "Xəzineyi-əxbar", "Qüdrəti-xuda", "Üsuli-cədidi-lisani-farsi" kimi dərsliklərin müəllifi Səfərəli bəy Vəlibəyov ailəyə kömək məqsədilə altı yaşlı Rüstəmi özü ilə dərs dediyi Qoriyə apar-

mış, əvvəl seminariyada, sonra Tiflisdəki birinci gimnaziyada oxuması üçün hər cür köməklik etmişdir. Süleymanın uşaqlığı isə anası və bacısı ilə birlikdə Şuşa qəzasının Seyidli kəndində (indiki Ağdam rayonu ərazisindədir) keçmişdir. Kəndin əsrarəngiz təbiəti, maraqlı mühiti və insanları, anası Dürnisə xanımın danışdığı nağıl və əfsanələr, söylədiyi el bayatıları azyaşlı Süleymanın yaddaşına hopmuş, onun estetik zövqünün və düşüncəsinin formalaşmasına, gələcək bədii yaradıcılığının rəng palitrasının zənginləşməsinə əhəmiyyətli dərəcədə təsir etmişdir. Yazıçının "Uşaqlıq həyatımdan xatirələr" adlı avtobioqrafik yazısından oxuyuruq ki, onu çevrələyən ətraf mühiti, təbiətin zəngin sirlərini öyrənməkdə əmisi Mirzə Məhəmməd və onun oğlu Tağının böyük rolu olmuşdur. Hər ağacın, çiçəyin, heyvanların xüsusiyyətini bildiyindən, əsərlərində onları təbii koloriti ilə təsvir etdiyindəndir ki, bu gün onun əsərləri həm də Qarabağ təbiətini, faunasını öyrənmək baxımından maraqlıdır.

Süleyman Sani Axundov 16 il Qori Müəllimlər Seminariyasında pedaqoq kimi fəaliyyət göstərən, bir neçə dərsliyin, təhsil və mədəniyyətin aktual problemlərinə dair məqalələrin müəllifi Səfərəli bəy Vəlibəyovun – "görkəmli, işgüzar pedaqoqun şəxsi təşəbbüsü, qayğıkeşliyi sayəsində 1885-ci ildə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin yanında olan ibtidai məktəbin əlifba sinfinə daxil olmuş, dayısının işgüzarlığından, gözəl əxlaqından, dərin biliyindən faydalanmış və onun nəzarəti altında böyümüşdür" [5, s.14].

1889-cu ildə ibtidai məktəbi bitirmiş və seminariyanın aşağı hazırlıq sinfinə keçmişdir. Tədrisin bu mərhələsində seminaristlərə Azərbaycan dili, rus dili və ədəbiyyatı, şəriət, hüsnxət, hesab, həndəsə və tarix kimi fənlər öyrədilirdi.

Zaqafqaziya (Qori) Seminariyasında aldığı təhsil Süleyman Sani Axundovun hərtərəfli inkişafına təsir etmişdir. Belə ki, Seminariyada ayrı-ayrı fənlərin tədrisi, şagirdlərin mütaliə və yazı qabiliyyətinin inkişafı ilə yanaşı, rəsm, musiqi bacarıqlarının formalaşmasına, arıçılıq, ipəkçilik, bağçılıq kimi peşələrin mənimsənilməsinə də üstünlük verilirdi. Həmçinin ədəbi-bədii gecələr, teatr axşamları, oxunan əsərlərin müzakirəsinin təşkili də ədibin mədəni dünyagörüşünün formalaşmasına xidmət etmişdir.

1894-cü ildə Seminariyanı bitirən Süleyman Sani Axundov Bakıdakı III rus-müsəlman məktəbinə müəllim təyin olunur. O, sonralar IV və VII rus-müsəlman məktəblərində də müəllim və müdir kimi işləmiş, Lavrova progimnaziyasında da fəaliyyət göstərmişdir. Qeyd edək ki, yaxşı pedaqoq və təhsil işçisi kimi tanınan Axundov xalqın maariflənməsi üçün əlindən gələn hər şeyi edirdi. Teatrın xalqın düşüncə tərzinə təsirini bilən Süleyman Sani işlədiyi məktəblərdə tamaşaların qoyulmasına şərait yaradır, köməklik göstərir, yeri gələndə aktyor kimi də səhnəyə çıxırdı. Nəriman Nərimanovun "Nadanlıq", "Nadir şah", Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq", Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" kimi pyeslərinin tamaşasında aktyor kimi də iştirak etmişdir. 1896-cı ildə Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" əsərinin Şuşada səhnəyə

qoyulmasına köməklik etmiş, özü də Süleyman rolunu ifa etmişdir. Nəriman Nərimanovun "Nadir şah" faciəsinin tamaşasında isə Nadir şah rolunda oynayan Nəriman Nərimanovun özü ilə səhnəyə çıxmış, Rzaqulu bəy obrazı ilə müəlliflə tərəf-müqabil olmuşdur.

S.S.Axundov Hüseyn Cavid, Abdulla Şaiq, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Səid Ordubadi ilə birlikdə 1921-ci ildə yaradılan Tənqid-Təbliğ Teatrının repertuar komissiyasının heyətinə seçilmiş, teatr öz işinə onun "Çərxifələk" pyesinin tamaşası ilə başlamışdır. Sonralar həmin teatrda yazıçının bir neçə əsəri səhnələşdirilmişdir.

Axundov çar Rusiyasının yerlərdə milli mədəniyyətləri və ana dilini sıxışdırıb çıxarmaq niyyəti ilə Azərbaycan dilinin təliminə az diqqət yetirməsinin, milli dilin tədrisinin uğursuz kadrlara həvalə olunmasının məqsədli edildiyini bilir və bununla bacardığı qədər həm müəllim, həm yazıçı kimi mücadilə edir, xalq dilinin gözəlliyini əks etdirən əsərlər yazır, dərs zamanı şagirdlərə ana dilini sevdirməyə çalışır, bu fənni tədris edən müəllimlərə xüsusi tapşırıqlar verirdi. 1906-cı ildə Bakıda müəllimlərin I qurultayı keçirilir. Həsən bəy Zərdabinin sədrlik etdiyi qurultayda tədris proqramının yazılması üçün komissiya yaradılır. Komissiyanın tərkibinə Firidun bəy Köçərli, Həsən bəy Zərdabi ilə yanaşı, S.S.Axundov da seçilir. 1907-ci ildə keçirilən müəllimlərin II qurultayınadək hazırlanan proqram məhz ərəb əlifbasının tədrisindəki islahatlara görə qəbul olunmur. Ancaq ruhdan düşməyən S.S.Axundov Mahmud bəy Mahmudbəyov, Fərhad Ağazadə, Abdulla bəy Əfəndizadə, Süleyman bəy Əbdürrəhmanbəyzadə, Abdulla Şaiq Talıbzadə kimi pedaqoqlarla birlikdə "İkinci il" dərsliyini tərtib edir. 1908-ci ildə nəşr edilən, Mirzə Ələkbər Sabir, Abdulla Şaiq, Abbas Səhhət kimi şairlərin, rus klassiklərinin yaradıcılığından da bədii nümunələr verilən bu dərsliyin Azərbaycan təhsilində xüsusi rolu olmuşdur.

1912-ci ildə ədib Sani (ikinci) təxəllüsünü götürür. Bəzi mülahizələrə görə, yazıçı bunu şəxsiyyətinə və yaradıcılığına böyük hörmət bəslədiyi Mirzə Fətəli Axundova görə (ikinci Axundov), bəzi fikirlərə görə isə öz müasiri, görkəmli pedaqoq Süleyman bəy Əbdürrəhmanbəyovun xatirinə (ikinci Süleyman) götürmüşdür.

S.S.Axundov, həmçinin, əsas məqsədi maarifçilik, milli dilin və ədəbiyyatın, təhsilin, mədəniyyətin inkişafına xidmət etmək olan "Nicat" cəmiyyətinin fəal üzvlərindən idi. Cəmiyyətə ayrı-ayrı illərdə Məhəmmədəli bəy Səlimbəyov, Həsən bəy Ağayev, Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov və başqaları sədrlik etmişlər.

1920-ci ildə Qarabağ Vilayət Maarif Şöbəsinin müdiri vəzifəsinə təyin edilmiş və işlədiyi müddətdə Qarabağ və Zəngəzurda uşaq evi, məktəb, qiraətxana açılmasında yaxından iştirak etmişdir. Azərbaycan Xalq Maarif Komissarlığına ünvanladığı məktub əsasında Şuşada Müəllimlər Seminariyası açılmışdır.

1922-ci ildə ərəb əlifbasından latın əlifbasına keçirilməsi qərarı verildikdən sonra Cabbar Məhəmmədzadə, Fərhad Ağazadə ilə birlikdə "Yeni türk əlifbası" dərsliyini tərtib edir, dərslik elə həmin il türk və ərəb əlifbası ilə nəşr edilir. Axundov, eyni zamanda Azərbaycan ədib və şairlər İttifaqının sədri, Azərbaycan Həmkarlar İttifaqı Pleniumunun, Ümumittifaq Dramaturqlar və Bəstəkarlar Cəmiyyətinin, SSRİ Yazıçılar İttifaqının, SSRİ Maarif İşçiləri İttifaqının, "Qızıl qələmlər" İttifaqı Təftiş Komissiyasının üzvü olmuşdur.

1932-ci ildə Əmək Qəhrəmanı adına layiq görülmüş və ona xüsusi təqaüd təyin olunmuşdur.

Süleyman Sani Axundov, ilk qələm təcrübələrini nəzərə almasaq, professional yaradıcılığa dram janrı ilə başlamışdır. Onun dramaturgiyasında əsas iki xətt leytmotiv təşkil edir. Birincisi, cəhalətin, avamlığın, savadsızlıq və nadanlığın göstərilməsi, tənqid edilməsi idisə, ikincisi, iki fərqli ideologiyanın, fərqli formasiyanın, keçmişlə çağının, yeni ilə köhnənin mübarizəsində üz-üzə qalan nəsillərin, "atalar və oğullar"ın faciəsinin əksi idi.

Süleyman Sani Axundov ədəbiyyat tariximizdə həm də maraqlı və yaddaqalan, sənətkarlıq baxımından dəyərli, didaktik əhəmiyyətli hekayələr müəllifidir. Ədibin "Qorxulu nağıllar" silsiləsinə "Əhməd və Məleykə", "Abbas və Zeynəb", "Nurəddin", "Qaraca qız" və "Əşrəf" adlı beş hekayəsi daxildir. 1912-1914-cü illərdə "Məktəb" jurnalında çap olunan bu hekayələr Azərbaycan uşaq ədəbiyyatının ən gözəl nümunələridir. Həm də pedaqoq kimi fəaliyyət göstərən, daim uşaqlarla ünsiyyətdə olan, onların maraq dünyasını, psixologiyasını, estetik zövqünü yaxşı bilən Axundov bu hekayələri yazmaqla uşaqların və gənc nəslin hərtərəfli inkişafı üçün çalışırdı. Nağıl üslubunda yazılan əsərlər elə əslində uşaqlarının təlim və tərbiyəsinə xüsusi önəm verən, onlara "ya kitab, ya gündəlik qəzetlərdən oxuyan" Hacı Səmədin övladları Məmməd və Fatiməyə nağıl adıyla söylədiyi hekayələrdir. Konkret mövzuya həsr olunmayan bu hekayələr yazıçı Mir Cəlal Paşayevin dediyi kimi, bütün həyat həqiqətini uşağa öyrətmək məqsədi güdürdü. "Bu hekayələrdə həyatın mürəkkəbliyi, çətinliyi, şirinliyi, ağır və müdhiş qayda və qanunları, bunların hökmü və nəticələri bütün çılpaqlığı ilə yazılmışdır.

Bu hekayələr uşağa xoş və ya qəmli duyğu verməklə qalmır, onu qayğısız uşaqlıq yuxusundan ayıldır. Həyata hazır olmağa çağırır, həyat yolunda olan və ola bilən bütün əngəl və manеələrdən xəbərdar edir" [2, s.326].

Qorxulu nağıllar həm də uşaqları bir çox mənada bir parçası olduqları dünya ilə, çevrələri ilə tanış edirdi. Onlar təbiət hadisələri, bitkilər, çiçəklər, heyvanlar, onların ayrı-ayrı xüsusiyyətləri haqqında maraqlı bilgilər əldə edir, insanları tanıyır, müxtəlif insan xarakterləri ilə tanış olurlar. İlk olaraq silsilənin adı maraq və sual doğurur. Niyə "Qorxulu nağıllar"? Bu suala yazıçının tədqiqatçısı, ədəbiyyatşünas alim Nadir Vəlixanov belə cavab verir: Əsərləri diqqətlə oxuduqda aydın olur ki, burada Süleyman Saninin dünyagörüşünün bəzi çalar-

ları özünü göstərir; qorxu və sevinc hissləri həmişə ədibin diqqət mərkəzində olmuş və bu hissləri doğuran ictimai səbəblər maarifçi-demokratik müəllim, yazıçı mövqeyindən araşdırılmışdır. Bu əsərlərin problematikasını, ideya-estetik istiqamətlərini diqqətlə müşahidə etdikdə məlum olur ki, burada qorxu hissi uşaqlara həyatı onların anlaq, maraq səviyyələrinə uyğun hərtərəfli öyrətmək konsepsiyası ilə bağlıdır [7, s.128].

Fəlsəfə doktoru Könül Aydın Nəhmətova isə məsələyə tamam fərqli şərh verir. Onun fikrincə, "yazıçı uşaqlar üçün yazdığı əsərlərini "Qorxulu nağıllar" ümumi başlığı altında toplamaqla, kiçik oxucularının mütaliəyə marağını öncədən stimullaşdırmağa çalışırdı. Bilindiyi kimi, həyəcan kiçik oxucuların mütaliəyə marağının ən mühüm motivasiyalarındandır" [3, s.17].

Süleyman Sani Axundov yuxarıda qeyd etdiyimiz kimi, məktəblilər üçün hazırlanan bir neçə dərsliyin müəllifi idi. O, həmin dərsliklər üçün bədii mətnlər seçərkən uşaqların yaş səviyyəsinə uyğun əsərlərin tapılmasında çətinlik çəkir, milli dəyərlərin təbliği baxımından tərcümə əsərlərinin istənilən effekti vermədiyini görür, bu boşluğu doldurmaq üçün özü hekayələr yazmağa qərar verir.

"Əhməd və Məleykə" hekayəsi Səyyah Cəmaləddinin timsalında dünyanın yaxşılardan xali olmadığını, təmənnasız yardım və köməklik etməyi bacarmağı, ən çətin anlarda da ümidlə yaşamağı təlqin edir. Əsər uşaqlara həm də başqasının çətinliyinə, taleyinə biganə qalmamağı, ətrafındakıların yaşantılarına həssaslıqla yanaşmağı öyrədir.

"Abbas və Zeynəb" hekayəsi başçısını itirmiş ailənin ağır güzəranının, bütün yükün ananın öhdəsinə düşməsinin, ailənin kiçik üzvləri Abbas və Zeynəbin bir-birinə mehriban münasibətlərinin təsviri ilə başlayır. Anasına kömək məqsədi ilə tez-tez meşəyə odun yığmağa gedən Abbas bir gün bacısı Zeynəblə kəndlərinin kənarındakı seyrangahdan qulançar yığmağa gedir. Təbiətin gözəlliyini yazıçı peyzaj lövhələri ilə təqdim edir, Qayadibi kəndinin füsunkar gözəlliyi təsvir olunur. Amma iki günahsız bacı-qardaş – Abbas və Zeynəb bu əsrarəngiz təbiətə sahib olan obayla illərdir qan düşmənçiliyi sürdürən quldur Səfərin vəhşiliyinin qurbanı olurlar. Hər fürsətdə kənd camaatından keçmişin intiqamını almağa çalışan Səfər və onun quldur dəstəsi hər şeydən xəbərsiz iki uşağın sevincini yarıda qoyurlar. "Gün batdı, ay çıxdı. Nağıl olunan yerlərdən bir səs çıxmırdı. Heyvanlar və quşlar insanların vəhşi hərəkətlərindən elə xofa düşmüşdülər ki, hələ cürət edib yuvalarından çıxa bilmirdilər. Ay yavaş-yavaş qalxıb qəmgin-qəmgin insanların tutduğu vəhşi əməllərə baxırdı" [1, s.343] – sonluğu ilə bitən hekayədə müəllif nadanlığın, avamlıq və cəhalətin doğurduğu faciələri göstərmiş və buna etirazını bildirmişdir.

Hekayə 1912-ci ildə "Məktəb" jurnalında çap olunsa da, 1906-cı ildə yazılmış bir variantı da AMEA Məhəmməd Füzuli adına Əlyazmalar

İnstitutunda saxlanılır. Yazıçı 1916-cı ildə "Rəşid və Gövhər" adı ilə hekayənin üzərində yenidən işləmişdir.

"Nurəddin" hekayəsi Süleyman Saninin yaradıcılığında önəmli yeri olan əsərlərdəndir. Nurəddin tərbiyəsi, təhsili, ədəbi və ağlı ilə seçilən nümunəvi uşaqdır. Valideynlərinin qayğısı ilə əhatələnən Nurəddinin xoşbəxt həyatı uzun sürmür. Əvvəl anasını, sonra atasını itirir və qəddar, onun mal-mülkünə sahiblənmək istəyən analığı Gülpərinin ümidinə qalır. Həyat onu çox çətinliklərlə üzləşdirir. Dəfələrlə ölüm təhlükəsi ilə üz-üzə qalan uşaq, nəhayət, xeyirxah insanlarla qarşılaşır. Vaxtilə atasının yaxşılıq etdiyi Rəhimlə rastlaşması isə həyatını dəyişir, yenidən tale üzünə gülür. Ötən müddət ərzində yaşadığı çətinliklər, amansız həyat onun xislətindəki işığı söndürə bilməmişdi. Nurəddin ona zülm edən analığı Gülpərini çətin vəziyyətdə, tək və əlacsız görəndə mərhəmətlə yanaşır, ondan köməyini əsirgəmir. Maarifpərvər yazıçı gözəl tərbiyə və əxlaqı heç vaxt dəyərini itirməyən xəzinə və sərvət hesab edir. Nurəddin atasından qalan maddi mirası itirsə də, aldığı tərbiyə ona mənəvi miras kimi əbədi qalır.

Bir məqamı qeyd edək; əsərin əvvəlki nəşrlərində Nurəddinin atası Nəsir bir gün ondan kömək istəyən Rəhimə yardım edəndə o, bu yaxşılığın müqabilində yeganə qiymətli əşyasını – "Gülüstan" əsərini ona bağışlayır. Nəsir kibrit qutusu boyda olan bu kitabı evə gətirəndə anası onu Nurəddinin boynundan asır. Əsərin ilk – "Məktəb" jurnalında çap olunan variantında bu, "Gülüstan" əsəri deyil, məhz "Qurani-Kərim" kitabıdır. Sonradan müəyyən səbəblərdən yazıçının öz müdaxiləsi ilə "Qurani-Kərim" kitabının adı dəyişdirilmiş, "Gülüstan" əsəri ilə əvəzlənmişdir və təəssüf ki, sonrakı nəşrlərdə də bərpa edilməmişdir.

"Qaraca qız" hekayəsi həm Süleyman Sani Axundov yaradıcılığının, həm Azərbaycan uşaq ədəbiyyatının maraqla oxunan və sevilən nümunələrindəndir. Hekayə hadisələrin cərəyan etdiyi dövrlərdə insanlar arasında malik olduqları zümrələrin, maddiyyatın böyük sədlər, uçurumlar, hətta faciələr törətməsi haqqındadır. Həyatın xoşagəlməz qanunları Tutu adlı qayğısız və şən qızcığaza Qaraca qız adı verir. 10-12 yaşlı Ağca ilə Tutu bir-birləri ilə dostluq etmək istəsələr də, Ağcanın mənsub olduğu ailənin qanunları buna icazə vermir. Bu qanunlar, böyüklərin yersiz iddia və xudpəsəndlikləri bütün bunlardan xəbərsiz olan uşaqların dost olmalarına, birgə oynayıb əylənmələrinə icazə vermir. Yersiz lovğalıq və mənəm-mənəmlik iki azyaşlıdan birinin həyatını itirməsinə, digərinin isə ömürlük mənəvi zərbə almasına səbəb olur. Əsərdəki Piri baba isə müəllifin sevə-sevə yaratdığı rəhmdil, hər heyvanın, hər çiçəyin dilini bilən, Qaraca qıza babalıq qayğısı göstərən nurani bir qocadır. Ömrünü Hüseynqulu bəyin bağında keçirən, ahıl yaşında da onlara qulluqdan qalmayan bu sadə və el adamı, görünür, Axundovun həyatda görüb tanıdığı və sevdiyi, onun üçün əziz olan insanlardan birinin obrazıdır.

İdeologiyaların, təzyiqlərin, repressiyaların qara projektorları zaman-zaman öz "işığını" təkcə ayrı-ayrı aydınların, şəxsiyyətlərin üzərinə deyil, həm də ədəbi abidələrin, bədii mətnlərin və nümunələrin də üzərinə salmışdır. Süleyman Sani Axundovun əsərləri də bu təzyiqlərdən kənarda qalmamışdır. Yazıçının əsərlərinin ilkin nəşrləri ilə sonrakı – sovet dövründəki nəşrləri arasında müəyyən fərqlər var. Ədib özü sağlığında əsərlərinin növbəti nəşrləri zamanı bu "düzəlişləri" etməyə məcbur olmuşdur. Bunun bir səbəbi ədəbi tənqidin, qələm dostlarının irad və təklifləri, bir səbəbi də "yuxarıların" tövsiyəsi idi. Amma hər iki səbəb bu əsərlərin sənətkarlıq baxımından olmasa da, ideya baxımından itkisinə, işıqlı məqamların təhrifinə gətirib çıxarmışdır. Əgər söhbət "Qaraca qız" əsərindən gedirsə, buradakı dəyişikliklərin nəticəsinə diqqət edək. Əsərin ilk variantında həm Pəricahan xanım, həm Hüseynqulu ağa sonrakı nəşrlərlə müqayisədə bir qədər humanist və müsbət xüsusiyyətlərə malikdirlər. Ancaq müəllif 1927 və 1934-cü il nəşrlərində etdiyi dəyişikliklərlə hər iki obrazın xarakterini daha tünd boyalarla vermişdir ki, bu da həmin dövrdə hakim təbəqənin bəylərə, ağalara olan münasibətindən və bədii ədəbiyyatın qarşısında bununla bağlı qoyduğu tələblərdən doğurdu. Bəy obrazı idealizə oluna bilməzdi. Bundan əlavə, digər dəyişikliklər dinlə, ibadətlə bağlı idi. Əsərin ilk nəşrlərində Piri babanın hər səhər dəstəmaz alıb namaz qıldığı göstərilsə də, sonrakı variantlarda bu məqam ixtisar olunmuşdur. Tədqiqatçılar haqlı olaraq düşünürlər ki, bu dəyişiklikləri yazıçının özünün etməsinə baxmayaraq, onların hansı şəraitdə, hansı şərtlərlə edilməsini nəzərə alıb, həm tədris zamanı, həm növbəti nəşrlərdə əsərin ilkin variantına müraciət olunmalıdır.

"Əşrəf" adlı hekayədə isə ailəsi sürgün olunarkən, yolda onlardan ayrı düşən və təsadüfən bir pedaqoq rus ailəsinin – Nikolay İvanoviç və Sofiya Aleksandrovnanın tapdığı və himayəyə götürdüyü, onların vəfatından sonra müsəlman Bürhanəddinin ailəsində yaşayan Əşrəf adlı uşaqdan bəhs olunur. Yazıçı hekayəni sevimli şagirdi Əşrəf Babayevə ithaf edib, 1914-cü ildə "Əşrəf" adı ilə çap etdirmişdir, 1937-ci ildə yenidən üzərində işləyərək "Fuad" adı ilə nəşr etdirmək istəsə də, buna nail olmamışdır. Əsər silsilənin digər hekayələri kimi, Hacı Səmədin dili ilə söylənir. "Hacı Səməd şam namazını yenicə qılıb qurtarmışdı. Məhəmməd və Fatma da yemək otağında nazik və həzin bir səslə "mən bir türkəm, elim-obam uludur" mahnısını oxuyurdular. Hacı Səməd bir müddət onlara qulaq asıb, sonra içəri girdi. Uşaqlar dərhal səslərini kəsib, ayağa qalxdılar. Hacı Səməd dedi: Nə gözəl mahnıdır! Nə gözəl sözlərdir: "İnsan olan vətəninin quludur!.." Bu mahnı, övladlarım, bir gözəl qəhrəman çocuğun hekayəsini yadıma saldı" [1, s.411]. Bu maraqlı girişdən sonra hekəyənin nəqli başlayır.

Süleyman Sani Axundov nəsr yaradıcılığına "Qorxulu nağıllar" silsiləsindən əvvəl hələ 1905-ci ildə "Kövkəbi-hürriyyət", "Yuxu", "Qonaqlıq" hekayələri ilə başlamışdı. "Yuxu" (1905) hekayəsində qəhrəman yuxuda gözəl təbiət mənzərəsi görsə də, bu gözəllikdə hər şey hərəkətsiz və donuqdur. Hey-

vanlar, quşlar, hətta çaylar da səssiz və hərəkətsiz, zülmət içindədir. Bunu təəccüblə izləyən qəhrəmanın qarşısına tilsimli qapı çıxır. Üzərinə **ELM** hərfləri yazılmış bu qapının o üzündə işıqlı dünya var idi. Qapını açmağı bacaran və bu yolu tutub gedən qəhrəman bu dəfə üstünə **İRŞAD** yazılmış qapıya çıxır, gözünə düşən işıqdan və küçədə eşidilən "İrşad", "İrşad" səslərindən oyanır. Bu, "İrşad" qəzetinin, ümumiyyətlə, elmin, biliyin, mətbuatın qaranlıqları aydınlatmaq, yatanları oyatmaq anlamına gəlir ki, bu motiv maarifçi-realist yazıçı Süleyman Sani Axundovun bütün yaradıcılığının ana xəttidir. Düzdür, ədib hekayənin ideyasına – dini, şəriəti yox, elmi, biliyi nicat kimi gördüyünə görə təzyiqlərə məruz qalmış, din xadimlərinin təqibləri ilə üzləşmişdi. Ancaq çətinliklərə baxmayaraq, yazıçı maarifçiliyin təbliği ənənəsindən geri çəkilməmişdir. Hekayə "Vaqiə" adı ilə də nəşr edilmişdir.

Digər bir hekayəsi – "Kövkəbi-hürriyyət"də ("Azadlıq ulduzu" – A.B.) hadisələr Süleyman peyğəmbərin dövründə baş verirmiş kimi danışılır. Əsrarəngiz təbiəti olan məmləkətdə müalicəsi müşkül olan bir mərəz yayılıb, o torpağın sakinləri 18 yaşında artıq qocalır, gözlərinin nurunu itirir, qamətləri bükülür, 25 yaşına çatmamış dünyalarını dəyişirlər, burada bir gəncə də rast gəlməzsən və heç kəs onların xəstəliyinə dərman edə bilmir. Uzun məsləhətlərdən sonra uzaq bir diyarda hər dərdə çarə bilən alimin olduğunu bilir, onun yanına gedir və öyrənirlər ki, xəstəliklərinin əlacı kövkəbi-hürriyyətdir. Çətinliklə dağ arxasında gizlədilmiş həmin ulduzu, yəni azadlıq və hürriyyətlərini əldə etdikdən sonra xəstəlikləri də sağalır. Yazıçı burada xəstəliyi də, dərmanını da simvolik olaraq göstərsə də, əslində əsl niyyəti həm oxucuya, həm senzuraya aydın idi. O səbəbdən bu kiçikhəcmli hekayənin çapına icazə verilməmişdir.

Ümumiyyətlə, Süleyman Sani Axundovun hekayə yaradıcılığının ana mövzusu cəhalətin və avamlığın tənqididir. "Qan bulağı", "Ümid çırağı", "Cəhalət qurbanı", "Təbrik", "Namus", "Sona xala" və başqa hekayələrdə yazıçı hələ köhnə fikirlərlə yaşayan, nəsillər arasında sürən ədavəti, intiqam hissini illərdir yaşadan və bu səbəbdən həm başqalarının, həm özlərinin həyatlarını qaraldan insanların acı həyatlarını təqdim edir. Köhnə adətlərin əsiri olanlar heç cür yeniliyi qəbul edə bilmir, işıqlı insanların ətrafında kabusa dönürlər. "Cəhalət qurbanı", "Təbrik", "Namus" hekayələrində həyat dolu, ağıllı və gənc qızlar onları anlamayan çevrələrinin qurbanı olurlar. Axundovun hekayələri mövzu və ideya baxımından maraqlı olduğu kimi, dil və üslub cəhətdən də sadə və oxunaqlıdır. Folklor elementlərindən, nağıl süjet və obrazlarından, xalq ədəbiyyatının ayrı-ayrı janrlarından böyük sənətkarlıqla istifadə edən yazıçı əsərlərini bədii-poetik cəhətdən də zənginləşdirmişdir.

Ədibin həyatı, şəxsiyyəti, yaradıcılığı və pedaqoji görüşləri haqqında Abdulla Şaiq, Nəriman Nərimanov, Mir Cəlal Paşayev, Həmid Araslı, Əli Sultanlı, Cəfər Xəndan, Cəfər Cəfərov, Hənəfi Zeynallı, Abbas Zamanov, Məmməd Cəfər Cəfərov, Məmməd Arif Dadaşzadə, Kamal Talıbzadə, Yaşar Qarayev, Əziz

Mirəhmədov, Cənnət Nağıyeva, İsa Həbibbəyli kimi görkəmli alimlər dəyərli fikirlər söyləmişlər. Məsud Əlioğlu 1956-cı ildə "Süleyman Sani Axundov" (4) adlı kitabça nəşr etdirmişdir. Ədəbiyyatşünas alim Nadir Vəlixanov isə arxiv materialları əsasında yazıçının əhatəli elmi bioqrafiyasını hazırlamış, həyatı və yaradıcılığı haqqında dissertasiya müdafiə etmişdir (5; 6; 7). Filologiya üzrə fəlsəfə doktoru Könül Nəhmətova "Qaraca qız" (3) kitabında adıçəkilən əsərin üç müxtəlif variantını şərh və izahlarla təqdim etmişdir. "Azərbaycan ədəbiyyatı tarixi" kitablarında və "Uşaq ədəbiyyatı" dərsliklərində Mir Cəlal Paşayev, Firidun Hüseynov, Qara Namazov, Zahid Xəlil, Fizuli Əsgərli və Bilal Həsənli yazıçı haqqında portret oçerklər yazmışlar.

Yazıçının əsərləri öz sağlığında "Dəbistan", "Məktəb", "Şərq qapısı" kimi jurnallarda, "Zarafat" (1927), "Qaraca qız" (1934), "Əsərləri" (1936) kimi kitablarda çap olunmuşdur. Sonralar əsərləri ədəbiyyatşünas alimlər Abbas Zamanov və Nadir Vəlixanov tərəfindən tərtib və nəşr edilmişdir.

Süleyman Sani Axundov həm nasir, həm dramaturq, həm pedaqoq kimi dövrünün aparıcı şəxsiyyəti olmuş, uşaqların, gənc nəslin, ümumilikdə cəmiyyətin maariflənməsi üçün misilsiz xidmətlər göstərmişdir. O, tələbələri, müasirləri və oxucularının yaddaşında fədakar müəllim, xeyirxah insan və sevimli yazıçı kimi qala bilmişdir.

**Ədəbiyyat**


1. Axundov S.S. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2005.
2. Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər. Bakı, Ziya-Nurlan, 2004.
3. Nəhmətova K. "Qaraca qız"ın taleyi: əsər necə dəyişdirildi? / S.S.Axundov. Qaraca qız. Bakı, Avropa, 2016.
4. Vəliyev M. Süleyman Sani Axundov. Bakı, Uşaqgəncnəşr, 1956.
5. Vəlixanov N. Süleyman Sani Axundov. Bakı, Gənclik, 1968.
6. Vəlixanov N. Görkəmli yazıçı, ictimai xadim. Bakı, Elm, 1976.
7. Vəlixanov N. Süleyman Sani Axundovun elmi bioqrafiyası. Bakı, Elm, 1996.

# FAMILY-HOUSEHOLD RELATIONSHIPS OF THE LEZGINS AND ITS PRIMARY CHARACTERISTICS

***Zarina Murtuzayeva***
*PhD, Institute of Archeology,*
*Ethnography and Anthropology*
*zari.m.88@mail.ru*

***Keywords:*** *family, household, ethno-culture, customs, lezgins, ethnic values*

**Summary**

*The importance of the role of the family in the protection of cultural and ethnic values is undeniable. The family, as an institution, plays a very important role in protecting the language, national culture and traditions of its nation and passing it on to future generations. In family-household relations, the Lezgins consider it the responsibility of all family members to respect the elders and follow the values established in the family. Although until the 80s of the 20th century, the Lezgins lived in the form of large families, and all family members stayed in one house, family values were preserved. Despite the fact that large families are replaced by small families in modern times, these values are preserved, and special attention is paid to their transmission to the children in the family in terms of the formation of ethno-cultural relations in future generations.*

# LƏZGİLƏRİN AİLƏ-MƏİŞƏT MÜNASİBƏTLƏRİ VƏ ƏSAS XÜSUSİYYƏTLƏRİ

***Zarina Murtuzayeva***

***Açar sözlər:*** *ailə, məişət, etnomədəniyyət, ənənələr, ləzgilər, etnik dəyərlər*

**Xülasə**

*Mədəni və etnik dəyərlərin qorunmasında ailənin rolunun əhəmiyyəti danılmazdır. Ailə bir qurum kimi öz millətinin dilinin, milli mədəniyyətinin, adət-ənənələrinin qorunmasında, gələcək nəsillərə çatdırılmasında çox mühüm rol oynayır. Ailə-məişət münasibətlərində, böyüyə hörmət, ailədə qurulan dəyərlərə əməl etmək bütün ailə üzvlərinin məsuliyyəti sayılır. Baxmayaraq ki, 20-ci əsrin 80-ci illərinə kimi ləzgilər böyük ailələr formasında yaşayırdı və bütün ailə üzvləri bir evdə qalırdı, ailə dəyərləri qorunub saxlanılırdı. Müasir dövrdə böyük ailələri kiçik ailələr əvəz etməsinə baxmayaraq bu dəyərlər*

*qorunub saxlanılır və gələcək nəsillərdə də etno-mədəni münasibətlərin formalaşması baxımından ailədəki uşaqlara da ötürülməsinə xüsusi diqqət verilir.*

## СЕМЕЙНО-БЫТОВЫЕ ОТНОШЕНИЯ ЛЕЗГИН И ИХ ОСНОВНЫЕ ХАРАКТЕРИСТИКИ

***Зарина Муртузаева***

***Ключевые слова:*** *семья, домашнее хозяйство, этнокультура, обычаи, лезгины, этнические ценности*

**Резюме**

*Неоспорима важность роли семьи в защите культурных и этнических ценностей. Семья как институт играет очень важную роль в сохранении языка, национальной культуры, традиций своего народа и передаче их будущим поколениям. В семейно-бытовых отношениях считается обязанностью всех членов семьи уважать старших и следовать установившимся в семье ценностям. Хотя до 80-х годов 20 века лезгины жили большими семьями и все члены семьи жили в одном доме, семейные ценности сохранялись. Несмотря на то, что в современное время многодетные семьи сменяются малодетными, эти ценности сохраняются, и особое внимание уделяется их передаче детям в семье в условиях формирования этнокультурных отношений у будущих поколений.*

"Each family is both a unique microcosm and a product of a wider cultural context" [6, p.632]. Family values determine the basis of the transmission of ethnocultural information. Cultural values and knowledge are transmitted to children through language, customs and beliefs. We know that all nations and peoples have their own distinctive traditions. The family represents the primary medium for the transmission of culture and ethnicity to its other members. The role of the family in the transmission mechanism of ethnocultural information is manifested in the teaching of family culture to children, assimilation of family practices and values. Hughes noted that the role of the family in the formation of cultural and ethnic identity in children is indispensable [4].

According to Karl Marx, "the family develops in accordance with the degree of growth of society and must change in accordance with the degree of change of society." Studies have shown that the process by which minority individuals get assimilated into (culturation) and adapted to the dominant local

culture (acculturation) result in alterations to family culture. Ethnic cultures typically have a protracted growth process.

Pure ethno-culture does not exist in the world today. In one form or another, there has been benefit from other cultures. The ethno-cultural relations of the lezgins are also influenced by the cultures of other peoples in the areas where they currently live. The way of life of the modern lezgins is generally the same as the way of life of the people of Azerbaijan, with slight differences. They got used to the traditions and local characteristics of the area, villages, district, zone where they settled and built their lives accordingly. In the areas where the lezgins lived in a compact state, although they preserved their ancestral traditions, the lezgins living in Sumgait and Baku, and the lezgins who migrated to other places, began to adapt to the traditions of those areas.

***The main features of lezgin families***

Until the 80s of the 20th century, large families prevailed in lezgins. So, the number of children in the family was at least 5 people. In addition, grandparents also lived under the same roof. After the 80s of the 20th century, the composition of families changes, and gradually large families break up and small families of the same generation begin to emerge. The property division of the extended family was based on the sons of the family. Often, daughters were not given a share of the property. The father's house was given to the youngest son of the house. And after marriage, the youngest son of the house lived in that house and had to be in the care of his parents.

In the 19th century, Yagodinsky, who investigated the economic situation of the Guba region, noted that the lezgins living here lived in large families [10]. Thus, he stated that after the marriage of the brothers, they lived under one roof and worked together on the farm. In the middle and late 19th century, it is known that large families stayed in the villages of Mujug, Yukhari Tahircal, Ajakhur, Sudur and Hil in Azerbaijan [1, p.124]. In Lezgin, large families were called "чIехи хизан", which could unite up to 100 family members.

In general, since the second half of the 19th century, large families with many children have been replaced by small families in this nation. During this period, the members of the small family consisted of 8-14 people. Kosven pointed to the lack of land and housing as the reason for the formation of small families, and the fact that the heads of small families, who are part of the large family, leave their families for seasonal work [8]. In domestic relations, family members obeyed the elders of the house and women had unequal rights with men. It should be noted that until the modern era, a lezgin woman was engaged in family work, was completely dependent on her family, and had very few rights. The customs of the lezgins required women to obey men, and the

younger ones to the older ones. In the past, women did not have the right to divorce.

In lezgin families, language and national folklore are considered as an important indicator of children's ethnic self-awareness, and habits are formed in the family in the form of lullabies and stories when children are still babies. It should be noted that in lezgin families living in the Guba-Khachmaz zone, lezgin is the mother tongue and is used as the language of communication in families. However, among the lezgin living in Baku and Sumgait cities, in addition to their mother tongue, Russian and Azerbaijani languages are also used as the main languages. Only knowledge of the language and its active use in the family helps the child to fully master the national characteristics of his people, determining the full understanding of the people's lifestyle, mentality, and national psychology.

Kulieva noted that big families still existed in Azerbaijan until the 30s of the 20th century. Large families included families based on agnatic kinship where several brothers of three or four generations lived together. In this type of family, all members lived together, ate together, and worked on the same farm. The head of the family was the male "father" of the family, after his death the eldest son became the head of the family. Other male members of the family obeyed him. He also managed the family's property matters. In the family, the "elderly woman" also had a special place and role. She supervised the execution of household chores [9].

A modern family mainly consists of 5-9 people. Sometimes such families include parents, children, and grandparents. Young people who get married in modern families prefer to live separately. In many cases, the old traditions remain among the lezgins living in rural areas. Thus, in the family relationship, the son or sons of the newly married family continue to live together with their other brothers and parents. The ethnic characteristics of intra-family relationships, in Zykov's opinion, serve as the foundation for later socialization measures followed by children [11].

***Ethnic traditions in the household relations of the lezgins***

In lezgins, relatives are referred to as “миресар”, which in turn has two meanings. Close relatives (мукъвар миресар) include brothers, sisters, their children, uncles, aunts, aunts and their children, distant relatives (яргъал миресар) considered more far relatives. The Lezgins considered receiving guests a very responsible and honorable job. They receive guests with great enthusiasm, even postponing their most important work to welcome them. It was considered a shame and disgrace for the family not to receive a guest, not to treat him well, not to take good care of him, and not to feed him well. Accepting, entertaining, and, if necessary, protecting the guest was considered a

matter of honor for every family. In the late 19th and early 20th centuries, in the conditions of the presence of patriarchal and ancestral relics and the preservation of stable blood - kinship ties, the guest was considered a guest not only of a separate host, but also of the whole family (тухум), [7]. Ikhilov noted about the hospitality of the Lezgins that "a person of any religion and nationality becomes a welcome guest in the Lezgin family. The guest is respected, treated with delicious and satisfying food, the best bed is prepared, and they are helped in affairs" [5, p. 204]. In addition to the room, Lezgins store food and drinks for guests in their homes, which are used only when guests come to the house. The Lezgin proverb was also said in the same sense: "Жува немир, мутьмандиз це" (Serve guests first).

Lezgins living in rural areas mostly live in two-story mud brick or stone houses. The first floor is often used as a warehouse. There are special stairs to go up to the second floor. The house consists of 3 rooms and 2 balconies. In the past, it was common to glass the outside balcony. Currently, new houses are not using glazing, and in old houses, glazing is replaced by ordinary windows. Lezgins living in rural areas usually reserve one room of their house for guests, which is called "тавдин кIвал", and this room is not used by any resident of the house on normal days.

The father presided over a single household and managed family life, which is typical of patriarchal families. The division between the other members of the family was carried out by the father. Every member of the family carried out their responsibilities. The family had the same food and drink, and he controlled the budget. When the father entered the house, all members of the family stood up, and the father had his own place at the table. It was considered against the rules of etiquette for other family members to sit here. Though less tightly enforced than formerly, this regulation is still valid today.

It should be noted that according to the old customs of the lezgins, men did not call their spouses by name, nor did they address them with any endearment. Often, men addressed their spouses as "hey". Additionally, not only in the past but also nowadays, in certain families in the rural areas where some lezgins live, a woman could not even sit and eat with guests or other outsiders and talk with them. In addition, men could not help the woman in their family with some work when there were other people around. This often reflected men's concerns about being the object of condemnation.

Children in the family were expected to start a family in turn. Thus, if the eldest son or daughter of the house remained unmarried, those younger than him could not start a family. However, any event that happened in the boy's family (if his parents had serious health issues) made him break this custom, and the youngest daughter of the house was married before the eldest left. This

custom has preserved its relevance in modern times. Even in current times, the younger members of the family must wait if the oldest girl or boy is not yet married. In very minor cases, it can be with the consent of the eldest child of the house. Any ethno-culture can be imagined as a "cultural iceberg", the main part of which remains under water [2].

**Conclusion**

In lezgin families, parents acted as role models in raising their children and passing on traditions to them. Thus, father's hard work and zeal in sons, mother's homeliness and cleanliness were considered the keys to education of the same qualities in girls. As mentioned, the role of the family in the formation of the ethnic culture of the child is irreplaceable. Ways of formation of ethnic culture also include verbal enlightenment, historical traditions, respect for oneself and others, the ability to understand and appreciate the customs of representatives of other nations.

In modern times, lezgin women's education, social and scientific activities have minimized their dependence on father, brother and husband in the family. Despite this, patriarchal traditions continue in today's lezgin family. Therefore, it is difficult for men and women to take the same position on many issues. This is mostly in rural areas. The mechanism of preservation of traditions consists of the constant transmission of information from generation to generation, which is carried out through the form of behavior, which includes role models, the imitation of the elders by the younger in all actions and actions; includes moral relations and etiquette norms formed over the centuries [3].

**Bibliography**

1. Agashirinova S.S. Wedding ceremonies of the Lezghins IKh - beginning of the 20th century. - Uch. app. IIYAL Dagfilial of the Academy of Sciences of the USSR. Makhachkala, 1964.
2. Grushevitskaya T.G. National and etnocultural identity in modern society, 2016.
3. Gromyko M.M. Family in the system of contact groups involved in the reproduction of ethnic traditions (On the theory of the issue) // Family among the peoples of the USSR in a developed socialist society. Abstracts of the All-Union Scientific Conf. Makhachkala, 1985, pp. 21–23.
4. Hughes S.A. Theorizing oppressed family pedagogy: Critical lessons from a rural black family in the post-brown south. Educational Foundations, Summer/Fall, 2006, 19(3/4), 45-72.
5. Ikhilov M.M. People of the Lezgin group. Moscow, 1967.

6. Johnson, L., Radesky, J., & Zuckerman, B. Cross-cultural parenting: Reflections on autonomy and interdependence. 2013, Pediatrics 131(4), 631–633.

7. Magomedova M. A. Culture And Traditions Of The Peoples Of Dagestan.
Mahachkala, 2009.

8. Kosven M.O. Family community and patronymic. M.: Publishing House of the Academy of Sciences of the USSR, 1963

9. Kulieva N.M. Modern rural family and family life in Azerbaijan. Baku, Elm, 2005, - p.175

10. Yagodinsky P.N. The economic life of the state peasants in the southern part of the Kuba district, Baku province, Tiflis, 1886, vol. 2 / h, 2. four.

11. Zykova N.M. The influence of ethnic characteristics on the development of the child's self-awareness // Family in Russia. 2004. No. 4. S. 94–100.

# ŞUŞA ŞƏHƏRİ XVIII ƏSRİN İKİNCİ YARISI – XIX ƏSRDƏ

**Camal Mustafayev**
**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti**
**mustafayev1954@list.ru**

***Açar sözlər:*** *Şuşa, məhəllə, xanlıq, Pənahəli xan, İbrahimxəlil xan.*

**Xülasə**

*Şuşa şəhərinin yaranması üç əsas mərhələdən keçib və bu şəhər 1752-ci ildə Qarabağ xanlığının banisi olan Pənahəli xanın əsasını qoyduğu müdafiə qalası olub. Birinci mərhələdə Pənahəli xanın hakimiyyəti dövründə şəhərin şimal-şərqində qala divarı və 9 kiçik məhəllədən ibarət "Təbrizli" məhəlləsi tikilmişdir. Dövrün bu mərhələsində Şuşada məskunlaşmış əhali yalnız Azərbaycan türklərindən ibarət idi. Hər an hücum təhlükəsi gözlənildiyi üçün şəhərdə tikinti işləri çox sürətlə getdiyindən onların keyfiyyəti bütün tələblərə cavab vermirdi.*

*Şuşanın şəhər kimi formalaşmasının ikinci mərhələsi Pənahəli xanın varisi İbrahimxəlil xanın hakimiyyəti dövrünü əhatə edir. XVIII əsrin 60-80-ci illərində hərbi-siyasi şərait nisbətən sabit olduğundan rayonda şəhərsalma üçün daha əlverişli şərait yaradıldı və planda Şuşanın ikinci kvartalının - "yuxarı məhəllə"nin salınması ilə nəticələndi. Bu dövrdə şəhərdə müdafiə obyektləri, saraylar, dini abidələr, hamamlar və karvansaraylar (yataqxanalar) monumental xarakter daşıyırdı. Şuşa şəhərinin formalaşmasının üçüncü mərhələsi 1805-ci ildə Qarabağ xanlığının Rusiyadan asılı olmasından sonra başlamış və uzun müddət davam etmişdir. Bu dövrdə əsası qoyulan "Qazançalı" məhəlləsi qısa müddətdə şəhərin ən çox məskunlaşan hissəsinə çevrildi.*

## ГОРОД ШУША ВО ВТОРОЙ ПОЛОВИНЕ XVIII – XIX ВЕКАХ

**Джамал Мустафаев**

***Ключевые слова:*** *Шуша, квартал, ханство, Панахали-хан, брагимхалил-хан.*

**Резюме**

*Развития города Шуши, основанного в 1752 году как оборонительная крепость основателем Карабахского ханства Панахали-ханом, прошло три основных этапа. На первом этапе, охватывающем период правления Панахали-хана, к северо-востоку от города была возведена крепостная стена и застроен квартал «Тебризли», состоящий из 9 небольших*

*кварталов. На этом этапе население Шуши состояло только из тюрков-азербайджанцев. Так как опасность неминуемого нападения в любой момент требовала проведения строительных работ в городе в спешке, поэтому их качество не отвечало всем требованиям. Второй этап формирования Шуши как города приходится на правление преемника Панахали-хана Ибрагимхалил-хана. В 60-х и 80-х годах XVIII века в результате относительной стабилизации военно-политической обстановки в регионе создались более благоприятные условия для градостроительства, что привело к строительству второго квартала Шуши - «Верхний квартал». В этот период построенные в городе оборонительные сооружения, дворцы, культово-мемориальные сооружения, бани и караван-сараи носили более солидный, величественный и монументальный характер. Третий этап формирования города Шуши начался после присоединения Карабахского ханства к России в 1805 году и продолжался более длительное время. Построенный на этом этапе квартал «Айлисли» вскоре стал самой населенной частью города.*

## THE CITY OF SHUSHA IN THE SECOND HALF OF THE 18TH CENTURY AND THE 19TH CENTURY

**Jamal Mustafayev**

***Key words:*** *Shusha, quarter, khanate, Panahali Khan, Ibragimkhalil khan.*

### Summary

*The formation of Shusha city has passed through three main stages, this city as the fortress of the defense founded by Panahaly khan who was also founder of Karabakh khanate in 1752 . In the first stage during the rule of Panahaly khan, the northeast of the city was built castle wall and "Tabrizly" quarter consisting of 9 small neighborhood. The settled population only consisted of Azerbaijani Turks in Shusha at this stage of period. Since the danger of the attack expected at any time, construction work in the city was very quickly, that's why the quality didn't meet all the requirements.*

*The second stage of the formation of Shusha as a city cover the ruling period of Panahaly khan's successor Ibrahimkhalil khan. As military-political conditions were relatively stable in the 60-80s of the XVIII century, it created more favorable conditions for urban planning in the region and it resulted building of the second quarter of Shusha - the "upper quarter" in the layout. During this period, defense facilities, palaces, religious memorial buildings, baths and caravanserais (hostel) in the city, had monumental characters . The third stage of the formation of Shusha city began after the Karabakh khanate*

*depend from Russia in 1805 and lasted for a long time. The "Gazançaly" quarter-neighborhood founded during this time, soon became the most populated part of the city.*

**GİRİŞ.**Azərbaycan xalqının yadelli işğalçılara qarşı mübarizəsində mühüm rol oynamış Şuşa şəhəri olduqca mürəkkəb və şərəfli inkişaf yolu keçmiş, xalqımızın azadlıq və mədəniyyət simvoluna çevrilmişdir. Şəhər mövcud olduğu 270 il ərzində dəfələrlə düşmən hücumlarına məruz qalsa da öz məğrurluğunu qoruyub saxlamışdır. Şuşanı "Azərbaycanın gözü" adlandıran Ulu öndər Heydər Əliyev onun yalnız qarabağlılar üçün deyil, bütün Azərbaycan xalqı üçün əziz bir şəhər olduğunu xüsusi vurğulamışdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev isə II Qarabağ müharibəsinin zəfərlə başa çatmasından az sonra Şuşa şəhərini "Azərbaycanın mədəniyyət paytaxtı" elan etmiş, 2022-ci ildə əsasının qoyulmasının 270 illiyinin bayram edilməsi haqqında sərəncam imzalamışdır. Olduqca əlverşli hərbi-strateji mövqedə salınan və əsrarəngiz təbiətə malik olan Şuşa Azərbaycan xalqının yalnız dostlarını deyil, düşmənlərini də özünə cəlb etmişdir. Qonşu xalqlara məxsus bütün dəyərləri özününkiləşdirməklə ad çıxarmış bədnam qoşularımız Şuşa şəhərini də erməni şəhəri kimi qələmə verməyə çalışırlar. Bütün bunlar Azərbaycan tarixçiləri qarşısında Şuşa şəhərinin tarixini daha dərindən tədqiq etmək və bununla da erməni saxtakarlığını elmi dəlillərlə ifşa etmək vəzifəsi qoyur.

**Şuşa şəhərinin yaranmasının ilkin şərtləri.** Şuşa şəhərinin yaranması XVIII əsrin ortalarında Azərbaycanda və İranda bərqərar olmuş hərbi-siyasi şəraitlə sıx bağlı olmuşdur. Məlumdur ki, Nadir şahın yaratığı Əfşar imperiyası cəmi 11 il ömür sürmüş və 1747-ci ildə kiçik dövlət qurumlarına – xanlıqlara parçalanmışdı. Əfşar imperiyasının yerində yaranan xanlıqlardan biri də əsası Pənahəli xan Cavanşir (1748-1763) tərəfindən qoyulmuş Qarabağ xanlığı olmuşdur. Azəraycanda və İranda ara müharibələrinin tüğyan etdiyi bu dövrdə Pənahəli xanın qarşısında duran ən mühüm vəzifələrdən biri xanlığın təhlükəsizliyini təmin etməli olan möhkəm qəsr-qalanın tikintisi idi. Qarabağ xanı bu vəzifəni həll etmək üçün 1748-ci ildə Kəbirli mahalında Bayat qalasının əsasını qoydu[14,s.112] və onu özünün paytaxtı elan etdi. Qala Qarabağın müxtəlif yerlərindən köçürülən əhali, daha çox isə Təbriz və Ərdəbildən dəvət edilən sənətkarlar hesabına məskunlaşdırıldı[12,s.108].

Lakin Bayat qalası qalın qala divarları və ətrafı düşmən hücumu zamanı içərisi su ilə doldurulan dərin xəndəklə əhatə olunsa da etibarlı deyildi. 1748-ci ildə Şəki hakimi Hacı Çələbi xanın Qarabağa hücumundan sonra bunu aydın başa düşən Pənahəli xan güclü müdafiə imkanlarına malik yeni qala inşa etdirmək qərarına gəldi. Müəyyən axtarışlardan sonra indiki Ağdam şəhərindən 10 kilometrlik məsafədə yerləşən ərazidə 1751/1752-ci ildə Şahbulaq qalası

inşa edildi və Bayat qalasında yaşayan əhali buraya köçürüldü. Pənahəli xanın fəaliyyəti haqqında daha dolğun məlumat verən Mirzə Camal Cavanşir yazırdı ki, "Şahbulağındakı böyük çeşmə yanında qala tikərək, onun ətrafında yüksək yerdə geniş hasar hördülər, bazar, çarsu (meydan), hamam və məscid tikdilər"[14,s.113].

Bununla belə, həm Bayat, həm də Şahbulaq qalasının tikintisi üçün seçilmiş yer dövrün hərbi-strateji tələblərinə cavab vermirdi. Belə ki, hər iki qalanın nisbətən düzənlik ərazidə yerləşməsi hücum edən düşmən ordusuna asanlıqla onlara yaxınlaşıb mühasirəyə almaq imkanı yaradırdı. Bu isə öz hakimiyyətini bütün Azərbaycana və İrana yaymaq uğrunda qanlı müharibələr aparan Məhəmmədhəsən xan Qacarın və Fətəli xan Əfşarın Qarabağa hər an gözlənilən hücumu zamanı olduqca təhlükəli bir vəziyyət yarada bilərdi. Bütün bunlar Pənahəli xanı düşmən hücumu zamanı əlçatmaz olan yeni qala üçün yer axtarışına başlamağa vadar edirdi. Bu axtarışlar 1752-ci ildə uğurla nəticələndi. Dəniz səviyyəsindən 1300-1600 m yüksəklikdə yerləşən və üç tərəfdən sıldırım qayalarla əhatə olunmuş dağ yaylası Pənahəli xanın bütün tələblərinə cavab verirdi[11,s.21]. Qarabağ xanı yeni paytaxt üçün seçilmiş yerdə içməli suyun olduğuna əminlik olduqdan sonra elə həmin il tikinti işlərinə başlamaq haqqında əmr verdi. Əsas diqqət dağ yaylasına şimal-şərqindən qalxan yeganə dar və çox dolanbac cığırın üzərində möhkəm qala divarlarının tikintisinə yönəldildi. XVIII əsrin sonlarında Qarabağda olmuş səyyahlardan biri yazırdı ki, bu cığırın üzərində yerləşdirilmiş kiçik bir dəstə böyük bir ordunun hücumunun qarşısını asanlıqla ala bilər[11,s.21]. 1756/1757-ci ildə qala divarlarının inşaası və əhalinin yaşaması üçün zəruri olan tikinti işləri tamamlandıqdan sonra Pənahəli xan öz iqamətgahını Şahbulaq qalasından, əvvəllər öz banisinin adı ilə Pənahabad, sonralar isə Şuşa adlandırılan üçüncü paytaxta köçürdü.

Şuşa şəhərinin adının etimoloji mənşəyi haqqında müxtəlif versiyalar mövcuddur. Bu versiyalardan biri şəhərin coğrafi mövqeyi ilə bağlı olub "şiş qaya", "piramida", "dağ yaylası" kimi mənalandırılır[11,s.22]. Daha ağlabatan və inandırıcı görünən ikinci versiyada isə şəhərin adı qədim və erkən orta əsrlər dövründə Şimali Qafqazda öz dövlətini yaratmış türkdilli dondar tayfası ilə əlaqələndirilir. Antik mənbələrdə bu dövlətin paytaxtı latın dilində "Sosu" şəklində işlədilir. Sonralar Azərbaycana köçmüş dondarlar burada öz paytaxtlarının və tayfalarının adı ilə bağlı xeyli sayda yaşayış məskəni yaratmışlar. Şuşa şəhərinin yaxınlığında yerləşən Şuşakəndin də adı dondarların paytaxtının adı ilə əlaqələndirilir[5,s.136-137].

**Şuşa şəhəri Pənahəli xanın hakimiyyəti dövründə.** Göründüyü kimi, Şuşa şəhərinin əsasının qoyulması və Qarabağ xanlığının paytaxtına çevrilməsi Pənahəli xanın hakimiyyəti dövründə baş vermişdir. Onu da göstərmək lazımdır ki, Pənahəli xan Şuşa şəhərini şəhərsalma üçün heç də əlverişli olmayan çətin bir dövrdə saldırmışdı. Yuxarıda göstərildiyi kimi, hər an gözlənilən düşmən

hücumları Pənahəli xanı yeni şəhərin təhlükəsizliyi üçün həyati əhəmiyyət kəsb edən qala divarlarının tikintisini sürətlə aparmağa vadar etmişdi. Bu məsələdən bəhs edən Qarabağ tarixçilərindən biri yazırdı ki, "bu işdə kənd əhli, mahalların məlikləri, ellərin başçıları... bir yerdə çalışaraq beş arşın hündürlüyündə, iki arşın enində bir divar hördülər"[15,s.18]. Şəhərin ətraf aləmlə əlaqəsini təmin etmək məqsədilə qala divarları 4 qapı ilə təçhiz olunmuşdu. Bunlardan üçü- Gəncə, Ağoğlan və İrəvan qapıları müasir dövrümüzədək gəlib çatmışdır[1,s.32-34].

Pənahəli xanın hakimiyyət dövrü həm də sonralar üç böyük hissədən ibarət olan Şuşanın birinci hissəsinin salınması ilə xarakterizə olunur. Bu hissənin tikintisi şəhər salmaq üçün nəzərdə tutulmuş dağ yaylasının düzənlik hissəsində, yaxınlıqda yerləşən Şuşakəndin əkin və otlaq yerlərində aparılmışdı[1,s.32-34]. Onu da göstərmək lazımdır ki, Pənahəli xan yeni paytaxtın məskunlaşdırılmasına yalnız qala divarlarının tikintisi başa çatdıqdan sonra cəsarət etmiş və Şahbulaq qalasında yaşayan əhalinin buraya köçürülməsini əmr etmişdi. Qarabağ xanlığının 1822-ci ildə ləğv edilməsinə qədər "Təbrizli" adlandırılan bu hissədə Çuxur, Qurdlar, Culfalar, Seyidli, Quyular, Hacı Yusifli, Merdinli, Qazançalı və Çöl qala kimi 9 kiçik məhəllə salınmışdı [2,s.277]. Şəhərin bu hissəsinin belə adlandırılması Şuşaya köçürülən ilk sakinlər arasında vaxtilə Bayat və Şahbulaq qalalarında Pənahəli xan tərəfindən Təbriz və Ərdəbil şəhərlərindən gətirilərək məskunlaşdırılmış sənətkarların üstünlük təşkil etmələri ilə bağlı olmuşdur. Şəhərin digər iki böyük hissəsi yarandıqdan sonra bu hissə şəhərin ümumi relyefində tutduğu mövqeyə uyğun olaraq "Aşağı məhəllə" və yaxud "Çuxur məhəllə" adlandırılmışdır. Şuşanın bu ilk hissəsində məskunlaşmış əhalinin milli tərkibinə nəzər saldıqda onun azərbaycanlılar tərəfindən salındığı və Azərbaycan xalqına məxsus olduğu heç bir şübhə doğurmur. Qarabağ xanlığı 1822-ci ildə ləğv edildikdən bir il sonra rus məmurlarının tərtib etdikləri kameral təsvirdə şəhərin bu hissəsində qeydə alınmış 162 ailənin hamısını ancaq Azərbaycan türkləri təşkil edirdi[17,s.4-5].

Şuşa şəhəri Qarabağ xanlığının paytaxtına çevrildikdən cəmi bir il sonra, daha doğrusu 1757-ci ildə İranda mərkəzi hakimiyyət uğrunda mübarizənin əsas iştirakçılarından olan Mazandaran və Astrabad hakimi Məhəmmədhəsən xan Qacar 30 minlik ordu ilə Qarabağa hücum etdi. Xatın arxı deyilən yerdə düşərgə salan Qacar hakiminin bir ay ərzində Şuşa şəhərini ələ keçirmək üçün göstərdiyi bütün cəhdlər iflasa uğradı[13,s.41]. Urmiya hakimi Fətəli xan Əfşarın da 1760-cı ildə Şuşa şəhərini ələ keçirmək cəhdi heç bir nəticə vermədi[3,s.158]. Pənahəli xanın kiçik dəstələrdə birləşmiş silahlı qüvvələrinin qəfil hücumlarlı Urmiya hakimini 6 aydan artıq davam etmiş mühasirədən əl çəkməyə və Qarabağ xanlığını tərk etməyə məcbur etdi[7,s.162].

**Şuşa şəhəri İbrahimxəlil xanın hakimiyyəti dövründə.** Əldə olan materialların təhlili göstərir ki, Şuşa şəhərinin daha sürətli inkişafı, onun müasir

dövrdəki görkəmini alması İbrahimxəlil xanın (1763-1806) hakimiyyəti dövründə baş vermişdir. Onun hakimiyyətinin ilk onilliklərində bölgədə yaranmış nisbi sabitlik Qarabağ xanlığının sonuncu paytaxtı olan Şuşada tikinti-quruculuq işlərinin istər keyfiyyətini, istərsə də sürətini xeyli artırmaq üçün daha əlverişli şərait yaratmışdı. Mənbələrdə verilən məlumatlar göstərir ki, Azərbaycanın xanlıqlar dövründəki əksər şəhərlərindən fərqli olaraq, Şuşa şəhəri 1763-1795-ci illər ərzində düşmən hücumuna məruz qalıb dağıdılmamışdı. Məhz bu sabitlik şəhərdə müdafiə qurğularının, sarayların, məscidlərin, karvansaraların, ticarət və sənətkarlıq obyektlərinin tikintisi üçün əlverişli şərait yaratmışdı. Bu dövrdə Şuşada aparılan tikinti-quruculuq işlərində İbrahimxəlil xanın vəziri, görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin də böyük xidməti olmuşdu[8,s.101].

Bir tərəfdən Şuşada həyatın nisbətən təhlükəsiz olması, digər tərəfdən isə gözəl təbiəti və sağlam iqlimi onu Qarabğ xanlığında yaşayan bütün əhali üçün olduqca cəlbedici edirdi. Şəhərdə əhalinin sayının sürətlə artması isə onun ikinci hissəsinin və bu hissədə xeyli sayda yeni kiçik məhəllələrin salınması zərurətini meydana çıxarırdı. Yaylanın şəhərsalma üçün əlverişli olan düzənlik hissəsi Təbrizli məhəlləsi ilə tam əhatə olunduğundan yeni məhəllələr salmaq üçün ona bitişik olan dağ yamacını sıx meşəlikdən təmizləmək lazım gəlmişdi. Beləliklə, İbrahimxəlil xanın hakimiyyəti illərində Şuşanın "Yuxarı məhəllə" adlandırılan ikinci hissəsində Xanlıq, Saatlı, Köçərli, Mamayı, Xoca Mərcanlı, Dəmirçi, Hamamqabağı və Təzə məhəllələri salındı[2,s.277]. Bununla da şəhərin hər iki hissəsində salınmış məhəllələrin ümumi sayı 17-yə çatmışdı.

Qarabağ xanlığında hərbi-siyasi şəraitin sabitləşməsinə müvəqqəti hal kimi baxan İbrahimxəlil xan Şuşa şəhərinin hərbi cəhətdən möhkəmləndirilməsi işini daimi diqqət mərkəzində saxlayırdı. Onun hakimiyyəti dövründə bütün zəruri müdafiə vasitələrinə malik İç qalanın tikdirilməsi[12,s.200], habelə xan ailəsinin ayrı-ayrı üzvləri üçün İç qaladan kənarda qəsr-qalaların inşası məhz bu diqqətin nəticəsi idi. Şuşanın cənub-şərq tərəfində, sıldırım qayanın lap kənarında yerləşən belə qəsr qalalardan biri xanın böyük oğlu Məhəmmədhəsən ağaya məxsus idi[6,s.149].

İbrahimxəlil xan atası Pənahəli xanın dövründə inşa edilmiş müdafiə qurğularının bərpasına və möhkəmləndirilməsinə də böyük diqqət verirdi. Onun əmri ilə 1783/84-1786/87-ci illərdə Şuşanın artıq yarasız hala düşmüş ilk qala divarlarının yerində yeni daha möhkəm qala divarları inşa edildi[14,s.143]. Mirzə Adıgözəl bəyin sözlərinə görə xanlığın müxtəlif yerlərindən dəvət edilmiş "hünərli ustalar, sənət sahibi və iş bilən memarlar barı, hasar, bürc və divar çəkdilər"[13,s.40]. Ağa Məhəmməd xan Qacarın 1795-ci ildə Şuşaya hücumunun uğursuzluqla nəticələnməsində bu qala divarları mühüm rol oynamışdı. Həmin hücumdan bəhs edən müəlliflərdən biri yazırdı ki, "Ağa Məhəmməd xan ilk baxışda müşahidə etdi ki, bu hasara onun topları kar

etməyəcək. Bir müddət toplardan atəş açıb bir daha əmin oldu ki, toplar qalanın hasarını dağıtmağa qadir deyil, bu işdən əl götürdü, nəticəsi olmayan işə vaxt və barıt sərf etmək istəmədi”[9,s.130].

Məhz İbrahimxəlil xanın gərgin əməyinin nəticəsi idi ki, Şuşa qısa müddət ərzində Azərbaycanın bənzərsiz bir şəhərinə çevrilmişdi. Onun hakimiyyəti dövründə şəhərdə güclü hərbi müdafiə sistemi yaradılmaqla yanaşı, orijinal memarlıq üslubuna malik ictimai binalar tikilib istifadəyə verilmişdi. XIX əsrin ortalarında Şuşada olmuş səyyahlardan biri Şuşanın xarici görkəmini Avropa şəhərlərinə bənzədir və küçələrinin Avropa üslubuna uyğun olaraq daşla döşənməsini xüsusi vurğulayırdı[4,s.36].

İbrahimxəlil xanın hakimiyyəti dövründə Şuşanın Azərbaycanın mühüm ticarət və sənətkarlıq mərkəzi kimi formalaşması istiqamətində də xeyli iş görülmüşdü. Gəncə qapıları yaxınlığında təşkil edilən həftəbazarda istər Qarabağ xanlığının özündə istehsal edilən, istərsə də qonşu xanlıqlardan və dövlətlərdən gətirilən kənd təsərrüfatı, sənaye və sənətkarlıq məhsulları satılırdı. “Təbrizli” məhəlləsinin Aşağı bazar və Meydan adlanan hissələrində tikilmiş Uğurlu bəy, Hacı Əmiraslan bəy, Hacı Hüseyn bəy karvansaraları [2,s.278] şəhərin işgüzar həyatında mühüm rol oynayırdılar.

Şuşanın bir şəhər kimi formalaşmasının bu mərhələsində məscid tikintisi də geniş miqyas almışdı. Vaxtilə Pənahəli xanın qarğıdan tikdirdiyi Cümə məscidinin yerində 1768/1769-cu ildə İbrahimxəlil xanın göstərişi ilə əzəmətli bir Cümə məscidi inşa edilmişdi[2.s.278]. Bundan əlavə, şəhərin bütün məhəllələrində kiçik ölçülü məhəllə məscidləri də tikilib istifadəyə verilmişdi.

**Şuşa şəhəri XIX əsrdə.** Bu dövrü Şuşanın bir şəhər kimi formalaşmasıının sonuncu mərhələsi kimi də xarakterizə etmək olar. Şəhərin ilk dövrlərdə cəmisi 12 kiçik məhəllədən ibarət “Əylisli” adlanan üçüncü hissəsinin formalaşmasının əsası məhz bu dövrdə qoyulmuş və daha uzun müddət davam etmişdir. Bu hissənin ilk kiçik məhəllələri sırasında Çiləbörd, Dərə, Bağlar və başqalarının adını çəkmək olar[15,s.19].

Bununla belə, XIX əsrin heç də bütün onilliklərinin Şuşanın inkişafı üçün əlverişli olduğunu söyləmək olmaz. Şəhər əhalisinin XVIII əsrin sonlarında Ağa Məhəmməd şah Qacarın hücumları ilə əlaqədar başlamış azalması prosesi XIX əsrin əvvəllərində baş vermiş Rusiya-Qacar müharibələri ilə əlaqədar daha da dərinləşmişdi. Belə ki, XVIII əsrin sonlarında Şuşada 10 min nəfərdən çox əhali yaşadığı halda, XIX əsrin 20-ci illərində onun sayı, təxminən 3 min nəfərə qədər azalarq 7650 nəfərə düşmüşdü[17,s.4-18]. Şuşa şəhərində əhalinin sayında artım yalnız 1828-ci ildə Türkmənçay müqaviləsinin bağlanmasından sonra müşahidə olunmağa başladı. Bu müqavilənin imzalanmasından keçən cəmisi 4 il ərzində burada yaşayan ailələrin sayı artaraq 1532-dən 1698-ə çatmışdı[16,s.307]. XIX əsrin sonrakı onilliklərində Şuşada əhalinin sayı daha sürətlə artmış və 1897-ci ildə 25.881 nəfərə çatmışdı[18,s.XXI].

XIX əsrdə Azərbaycanın mühüm ticarət və sənətkarlıq mərkəzi kimi mövqeləri daha da güclənmişdi. Şuşalı tacirlər bütün Azərbaycan şəhərləri ilə yanaşı Osmanlı dövləti, Rusiya, Hindistan və Qərbi Avropa ölkələri ilə sıx ticarət əlaqələri saxlayırdılar. Onlar Almaniyanın Leypsiq, Rusiyanın Nijni-Novqorod yarmarkalarında və İstanbul bazarlarında qızğın ticarətlə məşğul olurdular[19]. Şuşada istehsal edilən bir çox sənətkarlıq məhsulları Azərbaycanın hüdudlarından uzaqlarda da şöhrət qazanmışdı. Şəhər bütün Cənubi Qafqazda xalçaçılıq sənətinin inkişafına istiqamət verən əsas mərkəzə çevrilmişdi[11,s.80-88]. Heç də təsadüfi deyildir ki, XIX əsrin sonlarından başlayaraq dünya bazarlarında Şuşada istehsal edilmiş xalça məmulatlarına böyük tələbat yaranmışdı.

XIX əsrin sonuncu rübündən başlayaraq Şuşada tikinti-abadlıq işlərinin miqyası daha da genişlənmişdi. Şəhərin memarlıq ansamblına əksəriyyəti istedadlı memar Kərbəlayi Səfi xan Qarabağinin rəhbərliyi altında tikilmiş xeyli sayda məscid, karvansara, hamam və s. əlavə olunmuşdu. Gövhər ağanın ayırdığı vəsait hesabına 1874-1875-ci illərdə Aşağı Gövhər ağa məscidininin yenidən qurulması, 1883-cü ildə isə Yuxarı Gövhər ağa məscidinin, şəhərin Saatlı məhəlləsində unikal memarlıq üslubuna malik məhəllə məscidinin, habelə iki mərtəbəli Məşədi Şükür Mirsiyab oğlu karvansarasının tikitisi Kərbəlayi Səfi xan Qarabağinin adı ilə bağlıdır[2,s.275].

XIX əsrin 70-ci illərindən Şuşanın memarlıq abidələri sırasına unikal üslubda tikilmiş bulaqlar da əlavə olunmağa başladı. Bu 1871-ci ildə xan qızı Xurşidbanu Natəvanın vəsaiti ilə Şuşadan 7 km aralıda yerləşən Xəlfəli dağından saxsı borularla su çəkilməsindən sonra mümkün olmuşdu. Şəhərdə ilk iki bulağın tikintisi də X.B.Natəvanın vəsaiti hesabına həyata keçirilmişdi. Onlardan "Xan qızı bulağı" adlanan bulaq Natəvanın öz evi qarşısında, "Şor bulaq" adlanan ikinci bulaq isə Gəncə qapısı yaxınlığında tikilmişdi. 1896-cı ildə ikinci su kəməri çəkildikdən sonra şəhərin daha 20 küçəsində orijinal kompozisiyaya malik çarhovuzlar və bulaqlar tikilib istifadəyə verildi [11,s.115].

Şuşa şəhəri XIX əsrdə həm də "Azərbaycanın milli mədəniyyət xəzinəsi", "Qafqazın konservatoriyası" kimi tanınmağa başlamışdı. Azərbaycan musiqisinin və incəsənətinin inkişafında böyük xidmətləri olmuş Cabbar Qaryağdının, Üzeyir Hacıbəylinin, Xurşidbanu Natəvanın, Mir Möhsün Nəvvabın, Qəmbər Qarabağinin, Kərbəlayi Səfi xan Qarabağinin və bir çox başqa elm, mədəniyyət, incəsənət xadiminin yaradıcılığının çiçəklənməsində bu dövrdə formalaşmış Şuşa mühiti həlledici rol oynamışdı.

**Nəticə.**Əsası 1752-ci ildə Pənahəli xan Cavanşir tərəfindən qoyulmuş Şuşa şəhəri mövcud olduğu 270 il ərzində alınmaz qala kimi şöhrət qazanmış, yalnız Qarabağ xanlığının deyil, bütün Azərbaycanın mühüm ticarət və sənətkarlıq mərkəzinə çevrilmişdir. Şəhərdə istər xanlıqlar dövründə, istərsə də

XIX əsrdə inşa edilmiş müdafiə qurğuları, dini-memorial və ictimai tikililər Azərbaycanın memarlıq inciləri sırasında özlərinə layiq yer tuturlar. Şəhər Azərbaycan ədəbiyyatının, musiqisinin, dekorativ-tətbiqi sənətinin inkişafında da əhəmiyyətli rol oynamışdır. Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin daha da zənginləşməsinə verdiyi töhfələrin nəticəsidir ki, Şuşa şəhəri 28 ildən artıq davam etmiş erməni işğalından (8 may 1992 – 8 noyabr 2020) azad edildikdən az sonra Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə "Azərbaycanın mədəniyyət paytaxtı" elan edilmişdir.

## ƏDƏBİYYAT


1.Авалов Э. Архитектура города Шуши. Баку, «Элм», 1977

2.Baharlı.Əhvalati Qarabağ. //Qarabağnamələr, II kitab, Bakı, "Yazıçı", 1991, s.269-310

3.Бакиханов А.А. Гюлистан-и Ирам. Редакция, комментария и указатели З.М.Буниятова. Баку, «Элм», 1991

4.Верещагин В.В. Путешествие по Закавказью в 1864-1865 гг. СПб., 1870

5.Гейбуллаев Г.А. К этногезу азербайджанцев. Баку, «Элм», 1991

6.Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе. т.II, СПб., 1886

7.Əhməd bəy Cavanşir. Qarabağ xanlığının 1748-1805-ci illərdə siyasi tarixinə dair. //Qarabağnamələr. I kitab, Bakı, "Yazıçı", 1991, s.150-183

8.Фатуллаев Ш.С. Градостроительство и архитектура Азербайджана XIX-XX веков. Ленинград, 1986

9.Jan Gevr. Xacə şah. II kitab, Bakı, "Gənclik", 1994

10.Кеппель Г. Личный рассказ о поездке из Индии в Англию. //НА ИИ АН Азербайджана. док. 378

11.Mahmudov Y., Mustafayev C. Şuşa.Pənahabad. Bakı, "Təhsil", 2020

12.Mir Mehdi Xəzani. Kitabi tarixi Qarabağ. //Qarabağnamələr. II kitab, Bakı, "Yazıçı", 1991, s.94-204

13.Mirzə Adıgözəl bəy. Qarabağnamə.//Qarabağnamələr. I kitab, Bakı, "Yazıçı", 1991, s.5-102

14.Mirzə Camal Cavanşir. Qarabağ tarixi. //Qarabağnamələr. I kitab, Bakı, "Yazıçı", 1989, s.104-148

15.Mirzə Yusif Qarabaği. Tarixi-safi. //Qarabağnamələr, II kitab, Bakı, "Yazıçı", 1991

16.Обозрение российских владений за Кавказом. ч. III, СПб., 1836

17.Описание Карабахской провинции, составленное в 1823 году по распоряжению главнокомандующего в Грузии Ермолова. Тифлис, 1866

18.Первая всеобщая перепись населения Российской империи. 1897 г. Елизаветпольская губерния. СПб., 1904

19.Северная пчела, 1831 г., 18 января

# 44 DAYS – THE HISTORY OF THE GLORIOUS VICTORY

**Aynur Gasimli, Nermin Tapdigli**
Azerbaijan State Pedagogical College
***qasımlı_a93@mail.ru***
***tapdigli.narmin1997@gmail.com***

***Keywords:*** *44 days, Karabakh, Iron Fist, November 10 declaration, Shusha declaration, Zangezur corridor*

***Summary***

*First of all, the article briefly reviewed the history of the ancient statehood of the Azerbaijani people, as well as the First Karabakh War, the processes that took place in the 90s of the 20th centuries, and the occupation of the ancient Karabakh lands by the usurper Armenia. Later, the "44 days" started with the goal of liberating the lands of Karabakh, which we have been longing for nearly 30 years, were talked about, the successes we achieved on the front during this just war, the territories liberated from occupation by the victorious army. Also, the issue of the Commander-in-Chief of the Victorious Army, Ilham Aliyev, taking the political line that will bring victory, and the solidarity of a fighting nation on the rear front, was touched upon. In the article, a special place is devoted to the statement of November 10, the conclusions of the war, the advantages of the statement for Azerbaijan, the points of the statement, the issue of "Zangezur Corridor", the fact that this corridor serves to increase the economic and political potential of the region and our country, the "Shusha Declaration" concluded between Turkey and Azerbaijan, and the importance of the declaration. separated.*

# 44 GÜN – ŞANLI ZƏFƏRİN TARİXÇƏSİ

**Aynur Qasımli, Nərmin Tapdıqlı**

***Açar sözlər:*** *44 gün, Qarabağ, Dəmir Yumruq, 10 noyabr bəyanatı, Şuşa bəyannaməsi, Zəngəzur dəhlizi*

**Xülasə**

*Məqalədə ilk öncə qısaca olaraq Azərbaycan xalqının qədim dövlətçilik tarixinə, eyni zamanda I Qarabağ müharibəsinə, XX əsrin 90-cı illərində baş verən proseslərə, əzəli Qarabağ torpaqlarının qəsbkar Ermənistan tərəfindən işğal olunmasına nəzər yetirilmişdir. Daha sonra isə 30 ilə yaxın bir müddətdə həsrət qaldığımız Qarabağ torpaqlarının işğaldan azad edilməsi məqsədi ilə başladılmış "44 gün”dən, bu ədalətli müharibə zamanı cəbhədə əldə etdiyimiz*

*uğurlardan, qalib ordunun işğaldan azad etdiyi ərazilərdən bəhs olunmuşdur. Həmçinin, Müzəffər Ordunun Baş komandanı İlham Əliyevin qalibiyyəti gətirəcək siyasi xətti tutması, arxa cəbhədə isə mübariz bir xalqın həmrəyliyi məsələsinə toxunulmuşdur. Məqalədə 10 Noyabr bəyanatına, müharibənin yekunlarına, bəyanatın Azərbaycan üçün üstünlüklərinə, bəyanatın bəndlərinə ,"Zəngəzur dəhlizi"məsələsinə, bu dəhlizin regionun, ölkəmizin iqtisadi-siyasi potensialının artırılmasına xidmət etməsinə, Türkiyə ilə Azərbaycan arasında bağlanmış "Şuşa bəyannaməsi"nə, bəyannamənin əhəmiyyətinə xüsusi yer ayrılmışdır.*

## 44 ДНЯ – ИСТОРИЯ СЛАВНОЙ ПОБЕДЫ

**Айнур Гасымлы , Нармин Тапдигли**

***Ключевые слова:*** *44 дня, Карабах, Железный кулак, Декларация 10 ноября, Шушинская декларация, Зангезурский коридор*

***Резюме***

*Прежде всего, в статье кратко рассмотрена история древней государственности азербайджанского народа, а также Первая карабахская война, процессы, происходившие в 90-х годах 20 века, оккупация древних карабахских земель узурпировать Армению. Далее мы рассказали о «44 днях», начатых с целью освобождения земель Карабаха, к которым мы стремились почти 30 лет, от оккупации, успехах, достигнутых нами на фронте в ходе этой справедливой войны, территориях, освобожденных от оккупации. Армией-победительницей, а также взятием политической линии, ведущей к победе, главнокомандующим Армией-победительницей Ильхамом Алиевым, затрагивается вопрос солидарности воинствующего народа в тылу. касается декларации от 10 ноября, результатов войны, преимуществ декларации для Азербайджана, пунктов декларации, вопроса «Зангезурского коридора» и того факта, что этот коридор служит увеличению экономического и политического потенциала региона и нашей страны., особое место посвящено «Шушинской декларации», заключенной между Турцией и Азербайджаном, и важности декларации.*

The 20$^{th}$ century is a period of various events that replace each other in the history of the Azerbaijani people. The genocides committed against the Turkish-Muslim population from the beginning of the century didn’t break the struggle of the people, but rather strengthened it. In this period, the establishment of the first Democratic Republic of the East, the Azerbaijan Democratic Republic, the 70-year period of slavery that followed and the

independence achieved despite extremely difficult conditions at the end of the century, show that there were great turning points in the history of the people of the 20th century. During the period when the people of Azerbaijan regained their independence, they also fought against the enemies who introduced the policy of aggression against their native land. Groundless territorial claims of Armenia against the historical lands of Azerbaijan have resurfaced since 80s of the 20th centuries. As a result of the First Karabakh War, which turned into military aggression, 1988-1994, Armenia occupied 20 percent of Azerbaijan’s land and the policy of “ethnic cleansing” was implemented in this area. This policy has caused more than 1 million of our compatriots to become refugees and internally displaced persons. Although the Azerbaijani side has been trying to resolve to conflict peacefully for 30 years, unfortunately, the issue has not been resolved. In the international world, no progress could be made in resolving the conflict. So, although the resolutions No.822, 853, 874 and 884 adopted by the Union Nations Security Council demanded that Armenia withdraw its military forces from the lands of Azerbaijan and resolve the issue peacefully, Armenia didn’t give up its destructive position. Azerbaijan has repeatedly warned that the illegal presence of Armenia in the Azerbaijani lands and its destructive position the cause the violation of peace and security in the South Caucasus region.

In 2007, several declarations were made that included solutions to the conflict, including the Madrid principles. These statements envisage the withdrawal of the Armenian Armed Forces from Nagorno-Karabakh. In addition to the special methods for Lachin and Kalbajar, it is planned to hold a vote to resolve the status issue in Nagorno-Karabakh. At the same time, it is planned to take measures to solve international security in the area. Since 2018, the position of the Armenian side against the peace talks has again disrupted the progress towards the solution of the issue. At the beginning of 2020, the tense situation between Armenia and Azerbaijan intensified again. Military provocations against Azerbaijan began to increase day by day. In July 2020, civilians were also damaged as a result of the clashes that took place in the direction of Tovuz. 61 private houses were destroyed and people’s crops were damaged to a great extent. The Azerbaijani side warned that it will prepare a response to any possible provocation [1,2].

On September 27, 2020, the Armenian side committed largescale military provocations. The frequent attacks showed that the time has come for the return of native lands and the restoration of justice. As a result, the 44 day – Patriotic War between September 27 and November 10 took place for the holy deed.

The first statement regarding the events was given by Hikmet Hajiyev, head of the foreign policy department of the Presidential Administration of the

Azerbaijan Republic. The statement stated that on September 27 at around 6:00 a.m., the ceasefire regime was grossly violated by the Armenian armed forces. Thus, the densely populated frontline regions were also fired from different types of weapons. In response to the attacks of the opposite side, on the order of Commander-in-Chief Ilham Aliyev, the Victory Army of Azerbaijani started military operations. According to the decree of the President, martial law was declared on the territory of Azerbaijan from 00:00 on September 28 and partial mobilization in the country according to the order issued on the same date.

The military operations carried out by the Azerbaijani army were carried out under the name “Iron Fist”. At the beginning of the operations many strategic heights were liberated in Murovdag. On October 3, the village of Madagiz of Tartar was liberated by our heroic army and the name of the village restored by President Ilham Aliyev and renamed Sugovushan. The liberation of the village of Sugovushan was of great importance for the progress in the northern direction [2,4].

Armenia, which suffered successive defeats in the Second Karabakh War, began to commit terrorist acts in cities and settlements outside the battlefields. As a result of Armenia's aggressive anti-humanist policy, the city of Ganja was the first attack target outside the Karabakh region where the war took place. On October 4, 2020, the city of Ganja was bombarded by a rocket in the morning. During this terrorist attack, a densely populated area of the city, residential houses, and a two-story residential building were destroyed. On October 5 and 8, the city of Ganja was once again the target of terrorist attacks. The next area where peaceful residents were targeted was Barda. Barda was attacked several times by Armenia. There were people killed and injured in the rocket attacks.

Azerbaijani military forces liberated Jabrayil city on October 4 and Hadrut settlement on October 9. At the same time, the release of Hadrut made it possible to take a superior position in important positions in Khojavand region. "Iron Fist" operation forced the Armenian side to ask for a ceasefire. The Foreign Ministers of both countries participated in the meeting organized on October 9-10 in Moscow on the initiative of Russia. Despite the agreement on the ceasefire at the meeting, the Armenian side again violated these negotiations with offensive operations.

During the 44-day struggle, its liberation was related to Fizuli, which is considered one of the most difficult military operations. Many military experts noted that the release of Fizuli would take months. Because strong fortifications were built here by the enemy during the occupation. Our heroic army liberated Fizuli from occupation in a short period of time.

On October 18, the Azerbaijani flag was raised on the bridge of Khudafarin. On October 22, the Azerbaijani army liberated the Agband

settlement of Zangilan from occupation and took full control of the state border with Iran.

After successive military defeats, the Armenian side once again turned to the United States for negotiations. On October 24, the next meeting of the Foreign Ministers of both countries was organized. Although new agreements were reached at this meeting based on the October 10 Moscow statement, the outcome of the negotiations was again violated by the enemy [3,3].

The Azerbaijani military used tactics called the famous "Wolf trap" or "Crescent" in military operations in the direction of Lachin.

At the end of October, our Heroic Army started military operations in the direction of Shusha, the beating heart of Karabakh. As Shusha was a natural fortification, it was impossible to enter it with heavy equipment. There were 2 options for Shusha's release. Shusha had to be liberated either by air strikes or hand-to-hand combat tactics with light weapons. air attacks would cause great destruction in Shusha and this would damage the ancient and rich history of Karabakh. That is why the Heroic Army of Azerbaijan chose hand-to-hand combat tactics. The Special Forces of Azerbaijan entered the city with only light weapons. The city of Shusha was freed from the enemy with the help of hand-to-hand battles and the fire support of the military units stationed in the liberated village of Dashalti.

Commander-in-Chief Ilham Aliyev announced the liberation of Shusha from occupation to the people of Azerbaijan on November 8, 2020.

On November 9, when our people celebrated "Flag Day", our Heroic Army liberated 71 more villages, 1 settlement and 8 strategic heights from occupation. Thus, 300 settlements were freed from occupation.

The 44-day Patriotic War, which lasted from September 27 to November 10, 2020, ended with a great victory despite the difficulties caused by the global pandemic. The factors that ensured this historic victory were the successful foreign policy of the President of the Republic of Azerbaijan Ilham Aliyev, the determination of the people, a strong army structure and the unity of the People-State-Army.

Every day for 44 days, we took back our occupied lands with glorious victories. And Armenia, which could not prevent the glorious victories of the victorious army, and realized that it could not withstand all this, was forced to sign the November 10 declaration. With that, Armenia officially announced its surrender, so it was a military capitulation for Armenia.

The November 10 statement was the final act of Azerbaijan's victory, as well as Armenia's act of surrender. Thus, the military operations were concluded and according to the statement, we were able to reach Agdam, Lachin, Kalbajar regions without a fight and without any bloodshed.

This statement was, first of all, a celebration of the unity, determination, love of the country, courage of the Azerbaijani people, confirmation on paper. The statement celebrating our great victory was prepared entirely on the basis of the interests of the state and people of Azerbaijan. According to this document, Armenia presented its timetable for forced withdrawal from our occupied lands.

As a result of the war, the status of Karabakh was canceled, and the concept of "Nagorno-Karabakh Autonomous Province", which was created years ago as a result of the efforts of the usurping Soviet Russia and Armenia, with the aim of dividing Azerbaijan from the heart, collapsed. According to the statement, the security of Lachin Corridor was entrusted to Azerbaijan.

According to one of the clauses of the statement, a peacekeeping center was established in order to monitor the compliance of both sides with the agreement, in which the peacekeeping soldiers of Russia and the brother country of Turkey are stationed. This nuance played a big role for Turkey to officially control the solution of the issue.

According to this tripartite signed document, the restoration of this road with the Nakhchivan Autonomous Republic, which was cut off by land with Azerbaijan, became one of the main issues of interest. For this purpose, new transport and communication projects are being prepared, which propose the creation of a new communication infrastructure for the restoration of a direct road with Nakhchivan. This road will connect Azerbaijan with Nakhchivan by the shortest route through the territory of Armenia.

One of the interesting aspects of this clause was the provision of security in the corridor by the Russian military. That is, Armenia has to stay away from the process of ensuring the security of this corridor even within its state borders, and the security system is completely provided by Azerbaijan. As a continuation of all this, we saw the implementation of this article (Article 9 of the statement) on February 14 with the laying of the foundation of the Horadiz-Aghband railway by President Ilham Aliyev [4,1].

This important issue regarding the opening of the corridor became relevant once again with the "Shusha Declaration" signed between the brotherly countries Turkey and Azerbaijan, which demonstrated the joint strength of the two brotherly countries to the world. This historically significant document was signed on June 15, 2021. The document mentioned the importance and geopolitical significance of opening the corridor as soon as possible.

As stated in the declaration, the Zangezur corridor will also connect Turkey and Azerbaijan by rail. The declaration mentions the importance of the Zangezur corridor, and emphasized that the political and economic situation in the region will change.

The opening of the Zangezur corridor is of special interest not only to Azerbaijan, but also to other countries, as a railway will be built from East to West through this corridor. The construction of the Nakhchivan-Kars railway as a continuation of the Zangezur corridor played a major role in the development of transport and communication relations between the two brotherly countries.

The corridor will almost certainly connect the Caspian and Mediterranean basins, that is, in a broader sense, Southeast and Central Asia and Europe. This will play an exceptional role in the strengthening and development of the transport-transit line, trade relations, tourism, in short, economic-political relations between the regions we have highlighted [5,5].

## Bibliography


1. 10 noyabr tarixli Üçtərəfli Bəyanatla Azərbaycan qələbəsini rəsmiləşdirdi. Onlayn ictimai-siyasi qəzet. 08 noyabr.2021.
2. 44 günlük Qarabağ müharibəsi. Mülahizə və nəticələr. Beynəlxalq münasibətlərin təhlili mərkəzi. Bakı.2021.AirCenter.
3. http://wikipedia.org/wiki/İkinci-Qarabağ-müharibəsi
4. https://genprosecutor.gov.az/az/page/azerbaycan/i-ve-ii-qarabag-muharibesi/44-gun-suren-veten-muharibesi-ii-qarabag-muharibesi
5. Zəngəzur dəhlizinin açılması yeni geosiyasi vəziyyətin nəticəsidir. Xalq qəzeti. 19 iyun.2022

# XX ƏSRİN SONLARINDA CƏNUBİ OSETİYA – GÜRCÜSTAN MÜNAQİŞƏSİ VƏ ONUN TƏNZİMLƏNMƏSİ

**Türkan Qasımova**
**Bakı Dövlət Universiteti**
**turkan.ilqar1990@mail.ru**

**Açar sözlər:** Qafqaz, Gürcüstan, Rusiya, münaqişə, Osetiya, «Ademon Nıxas».

**Xülasə**

*Gürcü-osetin münasibətləri qədim tarixə malikdir. Bu iki xalq arasında münasibətlər IX-XII əsrlərdə siyasi və hərbi səbəblərlə əlaqədar intensivləşmişdir. Əvvəlcə Çar Rusiyası, daha sonra isə Sovet Rusiyası gürcülərin sayının azaldılması siyasətini yürüdürdü. Bu isə gürcü əhalisinin narazılıqlarına səbəb olurdu. Gürcülərin iqtisadi-siyasi maraqlarının təminatında çətinliklər yaranırdı. Lakin mərkəzi hakimiyyət köçkünlərə hər cür güzəştlər edirdi. Rus hakimiyyətinin bu cür yanaşması gürcülərlə osetinlər arasında toqquşmalara gətirib çıxarırdı. Gürcülər özləri ilə müqayisədə osetinlərə fərqli münasibətin göstərilməsinə qısqanclıqla yanaşırdılar. Rusiyanın bu siyasətində məqsəd Cənubi Qafqazda xalqların mərkəzə qarşı birləşməsinin qarşısını almaq idi. Gürcüstan-Cənubi Osetiya münaqişəsinin müasir tarixi 1980-ci illərin sonlarını, Sovet İttifaqının dağılma dövrünü əhatə edir. 1992-ci il müqaviləsindən sonra tərəflərin münaqişənin sülh yolu ilə həll edilməsi istiqamətində səylərinə baxmayaraq, əslində münaqişə «dondurulmuş» vəziyyətdə olaraq qalırdı. 2008-ci ilin avqustuna qədər münaqişə "dondurulmuş" hesab edilirdi. 2008-ci ilin avqustunda Cənubi Osetiya ətrafında baş verən 5 günlük müharibədən sonra Rusiya Cənubi Osetiyanı müstəqil ölkə kimi tanıyıb.*

# ЮЖНО ОСЕТИНСКО – ГРУЗИНСКИЙ КОНФЛИКТ В КОНЦЕ XX ВЕКА И ЕГО УРЕГУЛИРОВАНИЕ

**Тюркан Гасымова**

**Ключевые слова:** Кавказ, Грузия, Россия, конфликт, Осетия, «Адемон Нихас».

**Резюме**

*Грузино-осетинские отношения имеют древнюю историю. Отношения между этими двумя народами обострились в IX-XII веках по политическим и военным причинам. Сначала царская Россия, а затем и Советская Россия проводили политику сокращения численности грузин.*

*Это вызывало недовольство грузинского населения. Возникли трудности в обеспечении экономических и политических интересов грузин. Однако центральная власть делала переселенцам всевозможные уступки. Такой подход российских властей привел к столкновениям между грузинами и осетинами. Грузины завидовали тому, что к осетинам относились иначе, чем к самим себе. Целью этой политики России было предотвращение объединения народов Южного Кавказа против центра. Современная история грузино-южноосетинского конфликта охватывает конец 1980-х годов, период распада Советского Союза. Несмотря на усилия сторон по мирному разрешению конфликта после договора 1992 года, фактически конфликт оставался в «замороженном» состоянии. До августа 2008 года конфликт считался "замороженным". После 5-дневной войны вокруг Южной Осетии в августе 2008 года Россия признала Южную Осетию независимой страной.*

## THE SOUTH OSSETIAN – GEORGIAN CONFLICT AT THE END XX CENTURY AND ITS SETTLEMENT

**Turkan Gasımova**

**Keywords:** Caucasus, Georgia, Russia, conflict, Ossetia, "Ademon Nihas".

**Summary**

*Georgian-Ossetian relations have an ancient history. Relations between these two peoples worsened in the IX-XII centuries for political and military reasons. First Tsarist Russia and then Soviet Russia pursued a policy of reducing the number of Georgians. This caused discontent among the Georgian population. Difficulties have arisen in ensuring the economic and political interests of Georgians. However, the central government made all sorts of concessions to the settlers. This approach of the Russian authorities has led to clashes between Georgians and Ossetians. Georgians were envious of the fact that Ossetians were treated differently from themselves. The purpose of this policy of Russia was to prevent the unification of the peoples of the South Caucasus against the center. The modern history of the Georgian-South Ossetian conflict covers the late 1980s, the period of the collapse of the Soviet Union. Despite the efforts of the parties to resolve the conflict peacefully after the 1992 treaty, in fact, the conflict remained in a "frozen" state. Until August 2008, the conflict was considered "frozen". After the 5-day war around South Ossetia in August 2008, Russia recognized South Ossetia as an independent country.*

SSRİ-nin dağılmasından sonra Cənubi Qafqazda üç yeni müstəqil dövlətin (Azərbaycan, Gürcüstan, Ermənistan) yaranması və eyni zamanda bu dövlətlərin ərazisində münaqişələrin meydana gəlməsi ilə mürəkkəb siyasi vəziyyət bərqərar oldu. Vəziyyəti mürəkkəbləşdirən digər amil isə burada müxtəlif etnik qrupların təmsilçilərinin yaşaması idi.

Müasir dövrdə çoxlu sayda digər dövlətlər kimi Gürcüstan da çoxmillətli dövlətdir. Gürcüstanın identik etnoslu dövlətlərlə sərhəddə yerləşməsi, orada kompakt halda məskunlaşan bir neçə millətin olması ölkəni münaqişələr zonasına çevirmişdir. 1989-cu ilin məlumatına görə, Gürcüstan ərazisində onlarla millətin nümayəndələri yaşayır. 25 mart 1993-cü ildə ölkədə Gürcüstan vətəndaşlığı haqqında kifayət qədər liberal qanun qəbul edilmişdir. Bu qanunda Gürcüstan vətəndaşı olan hər kəsin – bütün millətlərin nümayəndələrinin hüquq bərabərliyi təsbit olunmuşdur.

Cənubi Osetiya-Gürcüstan münaqişəsi – öz müqəddaratını müəyyən etmək hüququnun bərpa etmək zəmnində yaranmış etnik münaqişədir.

Ərazinin, eləcə də osetinlər və gürcülər arasındakı əlaqələrin tarixi bu münaqişənin xarakterini və köklərini anlamağa aydınlıq gətirən məsələlərdəndir.

Gürcü mənbələri təsdiq edirlər ki, osetinlər alanların varisləridir, lakin hesab edirlər ki, onların tarixi əsasən Şimali Qafqazla bağlıdır. Gürcü mənbələrinə görə, osetinlər ilk dəfə XVII və XVIII əsrlərdə Qafqaz dağlarının cənub yamaclarında və gürcülər tərəfindən Şida Kartli adlandırılan ərazinin ovalıqlarında görünməyə başlamışlar[4].

1917-ci ildə Rusiya imperiyasının süqutundan sonra Cənubi Osetiya yeni yaranmış Gürcüstan Demokratik Respublikasının tərkibinə daxil edildi. Bu vaxt Şimali Osetiya Terek Sovet Respublikasının tərkibində idi [5].

Gürcüstanda sovet hakimiyyəti qurulduqdan sonra Cənubi Osetiya yenə də Gürcüstanın tərkibində qaldı. Moskva osetinlərin ərazisinin bir hissəsini Gürcüstanın tərkibinə daxil etməkdən ikitərəfli faydalandı. Bir tərəfdən Gürcüstan ərazisində mərkəzi sovet hakimiyyətinə loyal münasibət bəsləyən və tamamilə ondan asılı olan əhali qrupu sakin olurdu. Digər tərəfdən isə Gürcüstan rəhbərliyinin bu əraziyə olan çoxdankı iddiaları təmin olunurdu[2, s.212].

1922-ci il aprelin 20-də ÜRMİK və Gürcüstan SSR Xalq Komissarları Sovetinin Zaqafqaziyanın milli-dövlət sərhədləri haqqında Dekreti ilə Gürcüstanın tərkibində Cənubi Osetiya Muxtar Vilayəti yaradıldı.

17 noyabr 1920-ci ildə Şimali Osetiya Dağlı MSSR-in tərkibində Osetin mahalı kimi təşkil olundu. 7 iyul 1924-cü ildə RSFSR tərkibində Şimali Osetiya Muxtar Vilayəti, 1936-cı il dekabrın 5-də isə RSFSR tərkibində Şimali Osetiya MSSR təşkil olundu.

Beləliklə, osetinlər SSRİ-nin milli-ərazi təşkili nəticəsində süni surətdə iki

hissəyə ayrıldı.

Osetin dili İran dilləri qrupunun şimal-şərq qoluna daxildir. Osetinlərin əksəriyyəti pravoslav xristian, az bir hissəsi isə sünni müsəlmanlarıdır.

Cənubi Osetiya ərazisinin sahəsi 3,9 min kv. km-dir. Gürcülər bu ərazini qədim adı ilə «Samaçablo» və ya paytaxt Sxinvalinin adı ilə Sxinvali rayonu adlandırırlar. İnzibati quruluş cəhətdən Cənubi Osetiya formal olaraq Gürcüstanın Şida Kartli vilayətinə daxildir[6].

Cənubi Osetiyadakı münaqişə vəziyyətinin fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, münaqişənin başlanmasına qədər olan bir neçə onillik ərzində regionda daimi etnik strukturun saxlanması şəraitində osetin əhalisi sayca üstünlük təşkil edirdi. Beləliklə, bu münaqişədə əsil yerli əhalinin etnik azlığa çevrilməsi qorxusu amili yox idi. Məlumdur ki, bu amil Abxaziyada və həmçinin keçmiş SSRİ-nin Baltikyanı ərazisində milli hərəkatın inkişafında çox mühüm rol oynamışdır. Rusiyanın bu siyasətdə əsas məqsədi Cənubi Qafqazda xalqların mərkəzə qarşı birləşməsinin qarşını almaq idi.1989-cu ilin məlumatına görə, Cənubi Osetiyada 100 mindən artıq əhali yaşayırdı ki, bunun da 66,2 %-ini osetinlər, 29%-ini isə gürcülər təşkil edirdi. Cənubi Osetiya ailələrinin təqribən yarısı gürcü-osetin qarışıqlı idi. Lakin stabil etnik strukturun fonunda etnik qrupların statusunda və onların hökumət orqanlarına qədər gedib çıxmaq və əlverişli gəlir mənbələrinə nail olmaq istiqamətində dəyişiklik baş verirdi. Bu proseslər hökumət strukturlarında, ticarətdə və təhsil sahəsində gürcülərin üstünlüyü tendensiyasında öz ifadəsini tapırdı. Nəticədə osetin millətçiləri özlərinin diskriminasiyaya məruz qaldıqlarını hiss edərək, öz şimaldakı həmvətənlərinə birləşmək yolu ilə vəziyyətlərinin yaxşılaşdırılmasını tələb etdilər. Cənubdakı milli qarşıdurma nəticəsində Cənubi və Şimali Osetiyada yaranmış gərginlik artıq 1980-ci illərin sonlarından hiss olunurdu. Burada Cənubi Osetiya Muxtar Vilayətinin Gürcüstanın tərkibindən çıxıb Şimali Osetiya ilə birləşməsi tələbi ilə tez-tez əhalinin çıxışları, bəzən iğtişaşlar baş verirdi.

1980-ci illərin sonlarında Gürcüstanda qeyri-gürcü əhalinin diskriminasiya (ayrı-seçkiliyi) ilə müşayiət olunan millətçilik əhval-ruhiyyəsinin yüksəlişi və siyasi sabitsizlik vəziyyəti müşahidə olunurdu. Gürcüstan müstəqillik hərəkatının liderləri «Gürcüstan gürcülər üçündür» şüarını irəli sürür və həətta bunu həyata keçirməyə cəhd edirdi. Kütləvi xarakter alan və Gürcüstan hakimiyyətinin müdafiəsindən yararlanan millətçilik hərəkatı Gürcüstanın tərkibindəki muxtar qurumların ləğvi uğrunda çıxış edirdi [7,s.32].

Belə bir şəraitdə Cənubi Osetiya siyasətçiləri özləri üçün təhlükə duyaraq təşkilatlanmağa başladılar. Abxaziyadakı vəziyyəti görərək, Cənubi Osetiya millətçiləri 1989-cu ilin yanvarında Xalq Cəbhəsi – «Ademon Nıxas» təsis etdilər və abxaziya millətçiləri ilə öz milli həmrəylik hisslərini ifadə etdilər.

Artıq 1988-ci ilin Cənubi Osetiyada xalq etirazları başlanmışdı, tezliklə

bu əhval-ruhiyyə Gürcüstan hakimiyyətinə qarşı yönəldi.

1989-cu ilin əvvəllərində gürcü dilinin dövlət dili elan olunmasına etiraz olaraq Cənubi Osetiya Muxtar Vilayətinin paytaxtı Sxinvali şəhərində nümayişlər dalğası baş qaldırdı.

Cənubi Osetiya millətçiləri özləri üçün təhlükəni dərk edərək, daha yüksək muxtariyyətə, son nəticədə isə Gürcüstandan ayrılmağa cəhd edirdilər. Artıq onlar belə bir qənaətə gəlmişdilər ki, Gürcüstan milli hərəkatının dirçəlişi və onun real perspektivləri Cənubi Osetiyanın Rusiyanın tərkibinə keçməsini zəruri etmişdir.

Gürcüstanda millətçilik əhval-ruhiyyəsinin güclənməsi şəraitində Cənubi Osetiya Xalq Cəbhəsi («Ademon Nixas») Şimali Osetiya ilə birləşməyi tələb edirdi. Cənubi Osetiya millətçiləri bütün bunlara cavab olaraq öz məramlarını dürüst ifadə etməyə başladılar. 1989-cu ilin sentyabrında «Ademon Nıxas» SSRİ hökumətinə müraciət edərək, gürcü dili proqramının antidemokratik və antikonstitusion olduğunu bildirdilər və Cənubi Osetiyanın birləşdirilməsi məsələsini irəli sürdülər.

Cənubi Osetiya Ali Sovetinin bir qrup üzvü qurumun statusunun Abxaziyada olduğu kimi, muxtar vilayətdən muxtar respublikaya dəyişdirilməsini tələb edirdi. 10 noyabr 1989-cu ildə Cənubi Osetiya Muxtar Vilayəti Xalq Deputatları Sovetinin XII sessiyası Cənubi Osetiya Muxtar Vilayətinin Cənubi Osetiya Muxtar Respublikasına çevrilməsi və Rusiyanın tərkibində olan Şimali Osetiya Muxtar Respublikası ilə birləşməsi haqqında qərar qəbul etdi. Deputatlar həmçinin bu qərarı müzakirə etmək xahişi ilə SSRİ Ali Sovetinə və Gürcüstan SSR Ali Soveti Rəyasət Heyətinə müraciət etdilər. Lakin Gürcüstan SSR Ali Soveti buna dərhal reaksiya verərək, Gürcüstanın maraqlarının əleyhinə olan bütün sovet qanunlarına veto qoymaq hüququnun olduğu haqqında bəyanatlar verdi və Cənubi Osetiya Muxtar Vilayəti Xalq Deputatları Sovetinin sessiyasının bu qərarını antikonstitusion hesab edərək ləğv etdi.

Cənubi Osetiya Muxtar Vilayətinin bu tədbirlərinə cavab olaraq, 23 noyabr 1989-cu ildə Cənubi Osetiyanın paytaxtı Sxinvali şəhərinə gürcü millətçilik hərəkatının radikal əhval-ruhiyyəli iştirakçılarının yürüşü oldu. Bu tədbiri rəsmi dairələr və Gürcüstanın kütləvi informasiya vasitələri Sxinvalidə dinc şəkildə mitinq keçirilməsi cəhdi kimi təqdim etdilər. Lakin Sxinvaliyə, yürüşün iştirakçıları arasında bir neçə yüz avtomat silahlı döyüşçülər də var idi. Bu tədbir osetinlər tərəfindən Cənubi Osetiya üçün böyük təhlükə kimi qiymətləndirildi. Şəhərin müdafiəsinə demək olar ki, bütün şəhər əhalisi qalxdı. «Ademon Nıxas» təşkilatı ilk dəfə olaraq özünümüdafiə dəstələri təşkil etdi. Osetinlər yolu bağladılar və toqquşma baş verdi. Bir neçə nəfər yaralandı. Bu qarşıdurma vəziyyəti pisləşdirdi. Bu vəziyyətdə bircə bəyanat belə, genişmiqyaslı müharibə üçün start siqnalı ola bilərdi [8].

Lakin Sxinvaliyə daxil ola bilməyən gürcü döyüşçüləri şəhəri əhatə

edərək mühasirəyə aldılar. Şəhərə yol kəsildi, yoldan keçən və osetin milliyyətindən olan şəxslər əsir alınırdı. Bu şərait dörd ay davam etdi. 400 nəfərdən çox şəxs əlilliyə düçar oldu və yaralandı, altı nəfər həlak oldu. Lakin genişmiqyaslı silahlı münaqişə baş vermədi. 1990-cı ilin martında Cənubi və Şimali Osetiyadan qeyri-rəsmi nümayəndələr Qafqaz Dağlı Xalqları Assambleyasına üzvülük üçün müraciət etdilər. Onların bu müraciəti təmin olundu.

1990-cı ilin aprelində Gürcüstanın sovetləşməsindən (1921-ci il) sonra qəbul olunmuş bütün hüquqi aktlar qeyri-qanuni elan edildi. Həmçinin 1922-ci il İttifaq müqaviləsi etibarsız elan edildi. Respublikanın suverenliyinin müdafiəsinə zəmanət haqqında dekret qəbul edildi.

Buna cavab olaraq, Cənubi Osetiya (iyun-sentyabr 1990-cı il) qərarlar paketi qəbul etdi: Suverenlik haqqında Bəyannamə, Cənubi Osetiya ərazisində SSRİ Konstitusiyası və SSRİ qanunlarının qüvvədə olması haqqında, Cənubi Osetiya Muxtar Vilayətinin Respublikaya çevrilməsi haqqında və eyni zamanda bu andan etibarən Cənubi Osetiya Gürcüstanın tərkib hissəsi olmaması barədə.

1990-cı ilin avqustunda Gürcüstan Ali Soveti seçki qanunu qəbul etdi. Bu qanun regional səviyyədə fəaliyyət göstərən partiyalara seçkilərdə iştirakı qadağan etdi. Deməli, seçkilərdə Cənubi Osetiyanın hər hansı bir siyasi partiyası iştirak edə bilməzdi. Bu tədbirlərə cavab olaraq, 20 sentyabr 1990-cı ildə Cənubi Osetiya Muxtar Vilayəti özünü müstəqil Cənubi Osetiya Demokratik Sovet Respublikası kimi elan etdi [9].

1990-cü il oktyabrın 28-də Gürcüstan SSR Ali Sovetinə seçkilər keçirilərkən Cənubi Osetiya bu seçkiləri boykot etdi. Bu seçkilərdə «Dəyirmi Masa – Azad Gürcüstn» bloku üstünlük qazandı. Hakimiyyətə burjua-millətçi partiya və hərəkatların nümayəndələri gəldilər. «Dəyirmi Masa – Azad Gürcüstan» blokunun rəhbəri Z.Qamsaxurdiya Gürcüstan SSR Ali Sovetinin sədri seçildi. Müxalifət lideri Z.Qamsaxurdianın hakimiyyətə gəlməsi nəticəsində Gürcüstanda ifrat millətçilik meylləri güclənməyə başladı.

Dekabrın 11-də Gürcüstan Respublikası Ali Soveti Gürcüstan Respublikası tərkibində Cənubi Osetiya Muxtar Vilayətinin separatçı inzibati vahid kimi ləğvi haqqında qərar qəbul etdi.

Dekabrın 12-də Sxinvali şəhərinin mərkəzi küçələrindən birində etnik qarşıdurma baş verdi. Nəticədə üç nəfər həlak oldu və iki nəfər yaralandı. Həmin gün Gürcüstan parlamenti Sxinvali şəhərində və Cav rayonunda fövqəladə vəziyyət və komendant saatı elan etdi.

İttifaq hökumətinin fəaliyyətsizliyi o vaxtkı gürcü rəhbərliyinə Cənubi Osetiya problemini silah gücünə həll etmək üçün səy göstərməyə imkan verirdi.

1991-ci ilin ilk günlərində Gürcüstaan Ali Soveti Gürcüstan Milli qvardiyasının yaradılması haqqında qanun qəbul etdi. Bir neçə gündən sonra, 1991-ci il yanvarın 5-dən 6-na keçən gecə Gürcüstan rəhbərliyi Cənubi Osetiya

hakimiyyətini xəbərdarlıq etmədən Cənubi Osetiyanın paytaxtı Sxinvali şəhərinə milis və Gürcüstan Milli Qvardiyasının bölmələrini daxil etdi.

Döyüşlər əsasən Sxinvali və onun ətrafında, şəhər ətrafındakı gürcü kəndlərində və Şimali Osetiyaya gedən yolda baş verirdi. Özünümüdafiə dəstələrinin və yerli milisin müqaviməti ilə rastlaşan Gürcüstan qüvvələri təqribən 20 gündən sonra şəhəri tərk edib Sxinvali ətrafındakı strateji əhəmiyyətli yüksəklikləri nəzarətə aldılar və şəhəri atəşə tutdular. Bunun nəticəsində çoxlu miqdarda dağıntı və tələfat oldu. Lakin bu, gürcü qüvvələrinə Cənubi Osetiyanın inzibati mərkəzi üzərində nəzarəti ələ almağa kömək etmədi.

Özünümüdafiə dəstələri Gürcüstan qoşununu Sxinvalidən sıxışdırıb çıxarda bildilər. Gürcüstan hərbi hissələri və Milli Qvardiyasının bölmələrinin silahlı müqaviməti 14 iyul 1992-ci ilədək davam etdi. Həmin vaxt (14 iyul 1992-ci il) münaqişə zonasına qarışıq rus-gürcü-osetin sülhməramlı qüvvələri daxil edildilər.

1991-ci il yanvarın 7-də SSRİ hökuməti Cənubi Osetiyanın müstəqillik elan etməsini və Gürcüstan parlamentinin Cənubi Osetiyanın muxtariyyətini ləğv etməsini pisləyən fərman verdi. Bu, Gürcüstan qoşunlarının geri çəkilməsini tələb edirdi. Lakin Gürcüstan parlamenti buna etiraz etdi.

1991-ci ilin martında Rusiya və Gürcüstan arasında regiondakı vəziyyətin qiymətləndirilməsi, bütün qeyri-qanuni silahlı birləşmələrin tərk-silah edilməsi və qaçqınlar probleminin həll edilməsi üçün Rusiya və Gürcüstan Daxili İşlər Nazirliklərinin qarışıq komissiyasının yaradılması haqqında protokol imzalandı.

Qarabağ ərazisi və İrəvan quberniyasından fərqli olaraq Şamaxı qəzasına köçürülən ermənilərin sayının azlığı burada yaşayış məskənlərinin adlarının erməniləşdirilməsinə imkan vermədi Məsələn,"Gürcüvan" və "Gürcü kənd" kimi kəndlərin adlarını nəzərdən keçirək. V.F.Minorskinin fikrincə bu qafqaz toponimi Şirvan ərazisində qədim gürcü məskəninin mövcud olduğunun göstəricisidir [13,s.26].Q.Qeybullayev isə qeyd edir ki, Gürcüvan kəndi Şərqi Gürcüstandan Gürcüuani deyilən yerdən gələnlər tərəfindən salınıb. Gələnlər isə erməni ailələri olub. Toponimin adlandırılması isə çox güman ki, azərbaycanlılar tərəfindən olub. Çünki, məhz Azərbaycan dilində "qruzin" etnonimi "gürci" kimi adlandırılır [3,s.27].

Şamaxı qəzasında rusların peyda olmaları bir başa Rusiyanın Cənubi Qafqazda həyata keçirdiyi köçürmə siyasəti ilə bağlıdır. Bu siyasət XIX əsrin əvvəllərindən başlayaraq mərhələlərlə həyata keçirilmişdir. Rus hökuməti işğal olunmuş ərazilərin məskunlaşdırılmasına bu əarazilərdə hərbi məskunların və

bu məskunlar yanında təsərrüfatların yaradılması ilə başladı. Lakin, Arakçeyevçilik adlandırılan bu siyasət uğur qazanmadı. Hərbi xidmətlərini başa çatdıran rus əsgərləri həmin məskunları tərk edərək çıxıb getdilər. Bundan sonra hökumət təriqətçi və bidətçiləri, onların da ardınca Rusiyanın mərkəzi quberniyalarından kəndliləri kütləvi şəkildə yeni müstəmləkəyə köçürməyə başladı. Köçürülən bidətçi kəndlilər müxtəlif sektalara-duxaborlara,molokanlara, skoplara, subbotniklərə, baptistlərə, köhnə etiqadçılara mənsub olsalar da və onlar ilə rəsmi provaslav kilsəsinə itaət edən rus kəndliləri arasında ciddi ixtilaflar olsa da, rus hökuməti onların hamısını özününkü hesab edir, onlara müstəmləkədə möhkəmlənməyin vasitəsi kimi yanaşırdı.

Rus sektantlarının Şimali Azərbaycana köçürülmələrinin başlanqıcı 1830-cu il hesab edilir.İlk sektantların Şamaxı qəzasında görünmələri isə 1834-cü ilə aiddir. Hökumət Tambov və Samara quberniyalarından molokanları və subotnikləri köçürmüşdü [14,s.14].1839-cu ildə isə Tula quberniyasından 30 skop təriqətinə mənsub ailə Şamaxı qəzasına köçürüldü. Altıağacda məskunlaşan molokanlar burada özlərinə evlər tikməklə bərabər, təsərrüfat tikililəri də yaratdılar. 1840-cı ildə molokanların bir hissəsi Altıağacdan Xilmilə köçərək burada kənd saldılar [9,s.171-173].

1834-cü ildə Qarabağ əyalətinin Vərəndə nayihəsində Qızıl-Qışlaq kəndində yaşayan molokanlar Topçu Lahıc yaşayış məntəqəsinə köçürüldülər. Onların digər hissəsi isə Çuxur Yutda yerləşdilər. 1843-cü ildə molokanların digər bir hissəsi isə Qəbristan adlanan nayihənin Mərəzə stansiyasında yerləşdirildi. 1850-ci ilin ortalarında daha bir molokan sektası Xilmili və Astarxanka kəndlərində məskunlaşdırıldı.Sonrakı illərdə də təriqətçilərin və provaslav rus kəndlilərinin Şamaxı qəzasında yerləşdirilməsi prosesi davam etdirildi. 1872-ci ildə Qafqaz canişini böyük knyaz Mixail Nikolayeviç Qafqazın hüdudları daxilində sərbəst xəzinə torpaqlarından pay torpaqları şəklində Qafqaz ordusundan təxris olunan hərbiçilərə verilməsi barədə sərəncam imzaladı. Həmin sərəncama uyğun olaraq 1875-ci ildə 19 hərbiçi ailəsinə Şamaxı qəzasında, Qurd təpəsi deyilən yerdə torpaq payı ayrıldı. Lakin buraya 17 ailə gəldi və onlar burada Yeni Dimitreyevka qəsəbəsinin əsasını qoydular [6,s.73].

Hökumətin köçürmə siyasətinə əsasən köçürülənlər ilk növbədə xəzinə torpaqlarında məskunlaşdırılmalı idilər. Yalnız bundan sonra köçürülənlər yerli kəndlilərin istifadəsində olan və "artıq torpaqlar" hesab edilən torpaqlara köçürülə bilərdi. Lakin buna baxmayaraq Şamaxı qəzasında salınan yeni rus məskənləri ya azərbaycanlılar yaşayan kəndlərin yaxınlığında, ya da elə həmin kəndin ərazisində salınırdı. Bu da köklü azərbaycanlı kəndlilərin sıxışdırılmasına və ya təmamilə var-yoxdan çıxmasına səbəb olurdu. Məsələn,1884-1886-cı illərdə Mərəzə kənd cəmiyyətinə məxsus olan bütün pay torpaqlar köçürülən rus kəndlilərinin xeyrinə müsadirə olunmuşdu. Hətta kəndlilərə

məxsus yardımçı təsərrüfatlar, un dəyirmanları onların əllərindən alınmışdı. Nəticədə, Mərəzə kənd cəmiyyətinə daxil olan 800 kəndli ailəsindən 700-ü müflis olaraq dilənçi vəziyyətinə düşmüşdü. Yalnız maddi imkanı yaxşı olan 100 ailə mülkədarlardan aldıqları torpaqlarda məskunlaşmışdılar [14,s.18].

Rusiya hökumət dairələri köçürülən xristian əhalinin arzu və istəklərini yerli əhalinin hüquqlarının tapdanması hesabına reallaşdırırdı. Məsələn,1854-cü ildə Şamaxıda yaşayan, mənşəcə yunan olan Murad Xarlamov, Dmitriy İlyev və Vasiliy Yeqorov Altıağacda müvəqqəti kilsə tikdirmək üçün Xil Mili və Altıağac arasında yerləşən Orta karvansaray adlanan tarixi abidənin sökülməsini, onun daşlarından tikinti vasitəsi kimi istifadə olunmasını hakimiyyət orqanlarından xahiş etmişdilər. Qafqaz canişini yunanların təklif etdikləri şərtlər əsasında onlara 1200 gümüş rubl verilməsinə və karvansarayın sökülərək daşlarından tikinti üçün istifadə olunmasına icazə vermişdi [14,s.506].

Rus məmurları dəfələrlə qeyd edirdilər ki, köçkünlər yerli əhalidən kasıb yox, daha varlı yaşamalıdırlar və onlar buna da nail olmuşdular. Köçürülən xristian əhali kapitalist təsərrüfatı yaradaraq zəngin yaşadıqları halda,yerli müsəlman kəndlilərinin nə torpaqları,nə iş heyvanları, nə də əmək alətləri yox idi. Onlar bir tikə çörəyə möhtac idilər.

XIX əsrin 90-cı illəinin ikinci yarısında Rusiyanın daxili quberniyalarında torpaq qıtlığının daha da dərinləşməsi kəndlilərlə mülkədarlar arasında sinfi ziddiyyətləri daha da dərinləşdirdi. Bu da öz növbəsində köçürmə siyasətinin yenidən canlanmasına səbəb oldu. XX əsrin əvvəllərində yenidən canlanan bu proses 1917-ci ilə qədər davam etdi. XX əsrin əvvəllərində Şamaxı qəzasında daha iki rus kəndi—Alekseyevka və Qavrilovka yarandı[15,s.43].

Beləliklə 1917-ci ildə Şamaxı qəzasında molokan kəndləri adı ilə 11 rus kəndi mövcud idi. Bunlar aşağıdakılar idi: Alekseyevka, Astarxanka(Qız Meydan), Qavrilovka, Altıağac, Cabanı-rus, Dmitriyevka, Mərəzə-rus, Maryevka, Novo Poltavka, Xilmili, Çuxuryurt.

Şirvan qəzasında Müci adlanan yahudi kəndi də mövcud idi, Əhali yahudi-tatlardan ibarət idi.Onlar Gilandan gəlmə idilər. 1781-ci ildə Ağa Məhəmməd xan Qacar Gilanı dağıtdıqdan sonra burada olan yahudilər Mir Mustafa xanın razılığı ilə Şirvana axıb gəlmişdilər. XVIII əsrin sonlarında Mir Mustafa xan öz iqamətgahını alınmaz olan Fit dağına köçürəndə öz təbəələri ilə birlikdə yahudiləri də Müci çayının sahilinə köçürmüşdü və həmin yahudilər burada özlərinə məskən yaratmışdılar. Müci çayı kəndi iki yerə bölürdü; onun sağ sahilində Fit dağının ətəklərində yahudilər, çayın sağ sahilində Niyal dağınn ətəklərində azərbaycanlılar yaşayırdılar. Sonralar Müci kəndinin yahudi əhalisi Qusar, Qaytaq, Mazdokdan gəlmiş yahudilərin hesabına artmışdı. Yahudi-tatların az saylı hissəsi azərbaycanlılar yaşayan Basqal kəndində məskunlaşmışdı. Torpaqları olmadığına görə Şamaxı yahudiləri ipək parça

istehsalı ilə məşğul olur, özlərinin tikdikləri dəyirmanlarda çalışır, bütün kənd əhalisinə xidmət edirdilər.Başlıca məşğuliyyətləri ticarət olduğundan onlar tədriclə kənddən Şamaxı şəhərinə, qismən də molokan kəndlərinə kğçmüşdülər.

Beləliklə, 1917-ci il Qafqaz təqvimində verilən məlumata əsasən qəzanın sahəsi 6625, 99 verst (7553,64 kv.km) olub. 1916-cı ilin yanvarın əvvəlləri üçün Şamaxı qəzasının kəndlərində hər iki cinsdən 133.800 həfər əhali yaşayırdı. Əhalinin132.362 nəfərini yerli sakinlər, 1.438 nəfərini isə müvəqqəti yaşayanlar təşkil edirdi. Bu əhalinin 71.848 nəfəri kişi, 61.952 nəfəri isə qadınlar idi. Milli mənsubiyyət cəhətdən əhalinin 96.579 nəfəri müsəlman-azərbaycanlılar, 17.816 nəfəri ermənilər, 17.656 nəfəri ruslar, 1305 nəfəri yahudilər olublar. Bu xalqlardan əlavə qəzada 303 nəfər Qafqaz mənşəli dağlı, 139 nəfər Asiya mənşəli xristianlar, 2 nəfər isə Avropa mənşəli olanlar yaşayırdılar.

1 yanvar 1916-cı il məlumatına görə Şamaxı şəhərinin özündə hər iki cinsdən 27.752 nəfər əhali yaşayırdı və onlar yuxarıda sadaladığımız milli tərkibi özündə əks etdirirdi. Həmin əhalinin 21.127 nəfəri azərbaycanlı-müsəlmanlar,4534 nəfəri erməni, 1737 nəfəri rus, 136 nəfəri yahudi,214 nəfəri Qafqaz dağlısı, 4 nəfəri isə Avropalı idi [6,s.76].

Şəhərdə əhali dini mənsubiyyətə əsasən yerləşmişdi. Məsələn, şəhər şərti olaraq: Yuxarı və Aşağı adlanan iki hissəyə bölünürdü. Şamaxının Yuxarı adlanan erməni, yaxud erməni-rus hissəsində əsasən ermənilər, ruslar,həmçinin kifayət qədər varlı olan müsəlmanlar yaşayırdılar. Dağın cənub ətəklərində Zaqolav çayın hər iki sahilində yerləşən və Aşağı adlanan hissədə isə ancaq müsəlmanlar yaşayırdılar. Şəhərin milli-dini əlamət əsasında belə bölünməsi rus hökumətinin yeritdiyi müstəmləkə siyasətinin təzahürü idi.

## Ədəbiyyat

1.Ашурбекова Сара. Государство Ширваншахов (6-16 вв.), Баку,1983.

2.Bakixanov A.A. Gülüstani-İrəm.Bakı,1991

3.Гейбуллаев Г. Топонимия Азербайджана (историко-этнографическое исследование. Баку,1986.

4.Мурзаев Е.М. Очерки топонимики.М., 1974.

5. Миллер Б. Таты, их расселение и говоры. Баку, 1929.

6. Солмаз Рустамова-Тогиди. Шемаха ( март-июль 1918 г. Азербайджанские погромы в документах) Т.1, Баку, 2013.

7.Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989

8. Мустафазде Т. Азербайджан и русско-турецские отнощения в первой трети 18-го века. Баку, 1993.

9.Вердиева Х. Переселенческая политика Российской империи в Северном Азербайджане. Баку, 1999.

10. Энсиклопедичесий словарь Азербайджанских топонимов. Т.,1. Баку, 2007

11. Фитуни А.П. История последной столицы Ширвана. Баку, 1927.

12.Абелов Н.Л. Экономический быть государственных крестянъ Елизаветполского уезда Елизаветполской губернии. Тифлис. 1887.

13. Минорский В.Ф.История Ширвана и Дербента 10-11 веков. М., 1963.

14.Багиров Ф.Е. Переселенческая политика царизма Азербайджане (1830-1914). М., 2009.

15. Гусейнов Дж. Из истории национално-освободителъного движения в Азербайджане в начале XX века.(1900-1917 гг). Баку, 2001.

16. Исмаилзаде Д.И. Насиление городов Закавказского края в X1X-начале XX века. М., 1991.

17. Джидди Г.А. Крепостъ Бугурт. Баку, 1973.

18.Джидди Г.А. Средневековой город Шемаха 9-17 веках.Баку, 1981.

19.Сысоев В.М. Поездка в Шемахинский уезд с археологической целъю. Баку, 1927.

# HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAFINDA ROLU

**Vaqif Hacıyev**
Azərbaycan Dövlət Bədən
Tərbiyəsi və İdman Akademiyası
**vagif.haciyev@sport.edu.az**

***Açar sözlər:*** *Heydər Əliyev, xalq maarifi, təhsil sistemi, təhsil səviyyəsi, orta ümumtəhsil məktəbləri, ali təhsil müəssisələri.*

**Xülasə**

*XX-əsrin 60-ci illərində Azərbaycan Respublikası iqtisadi inkişaf, sosial tərəqqi xalq maarifi,ali təhsil müəssisələrinin inkişaf səviyyəsinə görə keçmiş SSRİ respublikaları arasında axrıncı yerlərdən birini tuturdu.70-80 ci illərdə Heydər Əliyevin siyasi hakimiyyəti dövründə xalqımızın bütün tarixi ərzində məktəb və maarifin inkişafı yüksək səviyyəyə qaldırıldı.*

*Heydər Əliyevin ali təhsilin inkişafına xüsusi diqqəti sayəsində onun şəbəkəsi genişləndirildi, tələbələrin sayı artırıldı, müəllimlərə diqqət və qayğı göstərildi .Ölkənin qabaqcıl ali məktəblərinə müsabiqədən kənar tələbə gənclər göndərildi.*

*Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycan özünü yeni, daha şərəfli məhələsinə daxil oldu. Müstəqil dövlətimizin təhsil sisteminə xüsusi diqqət göstərildi. Yeni orta məktəblər tikildi. Ali məktəblərin şəbəkəsi genişləndirildi. Özəl ali məktəblər, listseylər, gimnaziyalar yaradıldı.*

# РОЛЬ ГЕЙДАРА АЛИЕВА В РАЗВИТИИ АЗЕРБАЙДЖАНСКОГО ОБРАЗОВАНИЯ

**Вагиф Гаджиев**

***Ключевые слова:*** *Гейдар Алиев, народное образование, система образования, уровень образования, средние школы, высшие учебные заведения*

**Резюме**

*В 60-е годы XX столетия экономическое развитие , социальный прогресс, народное образование, уровень развития высших образовательных учреждений занимало последнее место среди республик бывшего СССР .За время руководства республикой Гейдара Алиева в 70-*

*80-е годы уровень развития школ и просвещения было поднято на высокий уровень.*

*Благодаря особому вниманию Гейдара Алиева развитию высшего образования была расширена образовательная сеть, повышено количество студентов , учителям было оказано внимание и забота. Студенческая молодежь вне конкурса были направлены в ведущие вузы бывшего союза.*

*Благодаря возвращению Гейдара Алиева к руководству республикой Азербайджан вновь встал на путь прогресса. Было оказано особое внимание системе образования нашего суверенного государства, были построены новые школы, расширена сеть высших школ, были созданы новые частные школы, лицеи и гимназии.*

## HEYDAR ALIYEV'S ROLE IN THE DEVELOPMENT OF AZERBAIJAN EDUCATION

**Vagif Hajiyev**


### Summary

***Key words:*** *Heydar Aliyev, public education, education system, education level, secondary schools, higher education institutions.*

*The Republic of Azerbaijan was a country of economic development and social progress in the 60s of the 20$^{th}$ century, and in terms of the level of development of higher education institutions, it occupied one of the last places among the republics of the former USSR. During Heydar Aliyev's political rule in the 70s and 80s, the development of school and education was raised to a high level throughout the history of our nation.*

*Thanks to Heydar Aliyev's special attention to the development of higher education, the educational network was expanded, the number of students increased, teachers were given attention and care. Student youth out of competition was sent to the countries of the former USSR.*

*Thanks to the return of Heydar Aliyev to the leadership of the republic, Azerbaijan again embarked on the path of glorious development. Special attention was paid to the education system of our independent state. The network of higher schools was expanded. New private schools, lyceums and gymnasiums were created.*


**Giriş:** XX əsrin 60-cı illərində Azərbaycan Respublikası iqtisadı inkişaf, sosial tərəqqi, xalq maarifi, ali təhsil müəssisələrinin inkişaf səviyyəsinə görə keçmiş SSRİ respublikaları arasında geridə qalmış respublikalardan biri idi. 1969-cu il iyul ayının 14-də Azərbaycan KP MK-nın Plenumunda Heydər

Əliyevin MK-nın birinci katibi seçilməsi ilə Azərbaycanın ictimai-siyasi. sosial-mədəni və xalq maarifinin inkişafında əsaslı dönüş və dinamik inkişaf baş verdi. Onun siyasi hakimiyyəti dövründə 70-80-ci illərdə məktəb və maarifin inkişafı yüksək səviyyəyə qaldırıldı. [1]

Heydər Əliyevin gərgin əməyi və uğurlu təhsil strategiyası nəticəsində respublikada ali təhsil müəssisələrinin, elmi-tədqiqat institutlarinin sayı artırıldı. Ölkənin nüfuzlu ali məktəblərində azərbaycanlı tələbələrin Umumittifaq büdcəsi hesabına müsabiqədən kənar təhsil almalarına nail olundu. Bütün bunlar dövlət müstəqilliyinin təməllərinin yaradılması sahəsində Heydər Əliyevin tarixi xidmətləri idi. Onun təhsil sahəsində həyata keçirdiyi tədbirlər Ümummilli liderin böyük maarifçi və uzaqgörən strateq olduğunun bariz nümunəsidir. [4]

Heydər Əliyev ilk növbədə Respublika Maarif Nazirliyinin tərkibini milliləşdirməyə başlayaraq ona uğurla nail oldu. Azərbaycan təhsil işçilərinin nazirlik sistemində işə qəbuluna diqqət, tələbat və qayğı artırıldı. İşdə ciddi nöqsanlara yol verənlər, xüsusilə də qeyri-azərbaycanlılar tutduqları vəzifədən azad edildilər. Məsələn, Azərbaycan KP MK-nin 1970-ci il 13 mart tarixli büro iclasının qərarına əsasən maarif nazirinin müavini R.A.Balayan işdə yol verdiyi ciddi nöqsanlara görə tutduğu vəzifədən azad edildi. [6]

Heydər Əliyev xalq maarifi müəssisələrinin saxlanılmasına çəkilən xərclərin az olduğuna görə onun artırılmasına böyük səylə çalışır və buna nail olurdu. Onun tapşırığına əsasən 1977-ci ildə Dövlət büdcəsində xalq maarifinin saxlanılmasına 377,1 mln. manat vəsait ayrıldı ki, bu da 1976-cı illə müqayisədə 19,3 mln. manat çox idi. 1978-ci ildə isə dövlət büdcəsindən xalq maarifinin saxlanılmaına 384,3 mln. manat ayrıldı ki, bu da əvvəlki illə müqayisədə 8,9 % çox idi. 1982-ci ildə Azərbaycanda xalq maarifi müəssisələrinin maliyyələşməsinə 1980-cı illə müqayisədə 4 % artımla 689,3 mln. manat vəsait ayrılmışdı.[6]

Azərbaycan maarifini inkişaf etdirmək sahəsində Ulu Öndərin fəaliyyətinin başlıca istiqamətlərindən biri yeni məktəb binalarının tikintisi, məktəb yaşlı şagirdlərin təhsilə cəlb edilməsi, təhsilin kütləviləşdirilməsi idi. Həyata keçirilən tədbirlər nəticəsində 1969-1982-ci illərdə Respublikada yeni məktəb binalarının tikilməsi və şagirdlərin məktəbə cəlb edilməsi daim yüksələn xətt üzrə inkiçaf etmişdi. Heydər Əliyev hakimiyyətə gələn gündən məktəb tikintisinə ayrılan vəsaitin artırılmasına xüsusi diqqət yetirməyə başladı. 1969-cu il sentyabrın 1-də respublikada 120 orta məktəb tikilib istifadəyə verildi. Beləliklə, Heydər Əliyev hakimiyyətə gəldikdən az sonra Azərbaycanda olan orta məktəblərin ümumi sayı 1130-a çatdırıldı. Həmin il sentyabr ayının 1-də 1mln. 130 min nəfər şagird dərsə başladı. Bu da 1968-ci illə müqayisədə 70 min nəfər çox idi.[6]

Məktəb tikintisinə böyük diqqət və qayğı göstərən Heydər Əliyev bu məsələnin Azərbacan KP MK-nın büro iclaslarında geniş, hərtərəfli müzakirə edilməsinə nail olur, bununla bağlı qəti qərarlar qəbul edirdi. Onun rəhbərliyi ilə 1973-cü il avqustun 28-də keçirilən Azərbaycan KP MK-nın büro iclasında respublikada yeni məktəb binalarının tikintisinə dair çox mühüm qərar qəbul edildi. Bu qərara əsasən 1974-cü ildə 35, 1975-ci ildə 35, 1976-1980-cı illərdə 276 min şagird yeri olan məktəb binalarının tikilməsi nəzərdə tutulurdu. [5]

Həyata keçirilən təsirli tədbirlər nəticəsində 1968-1978-ci illərdə respublikada orta məktəblərin sayı 77 % artmışdı. Bu dövrdə kənd məktəblərinin sayı 680-dan 1264-ə çatmışdı. Respublika başdan başa savadlılar diyarına çevrilmişdi. 1981-ci ildə Azərbaycanda təhsilin müxtəlif növləri üzrə 1 mln. 857 min nəfər əhatə olunmuşdu, onlardan 1,5 milyondan çoxu orta ümumtəhsil məktəblərində, qalanları isə ali məktəb və texnikumlarda oxuyurdular.

Heydər Əliyev xalq müəlliminə, onun nüfuzunun qaldırılmasına, əməyinin qiymətləndirilməsinə daim böyük diqqət və qayğı göstərirdi. Onun hakimiyyəti dövründə müəllim Azərbaycanda ən hörmətli və nüfuzlu şəxslərdən hesab edilirdi. "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram"- deyən Heydər Əliyevin hakimiyyəti dövründə Z. Şöyübov, M.Quliyev kimi qabaqcıl müəllimlər ilk dəfə olaraq Sosialist Əməyi Qəhrəmanı, Xalq müəllimi adlarına layiq görülmüşdülər.

Heydər Əliyev Azərbaycanda müxtəlif ixtisaslar üzrə ali təhsilli mütəxəssis hazırlığına xüsusi diqqət yetirirdi. Məsələn, 1970-1974-cü illərdə ali təhsilli kadr hazırlığına ayrılan xərclər 49,4 % və ya 37 mln. manat artırıldı. 1975-ci ildə respublikanın xalq təsərrüfatının alacağı ali və orta ixtisas təhsilli 37.2 min nəfər gənc mütəxəssisin hazırlanması üçün 112 mln. manat vəsait ayrılmışdı ki, bu da əvvəlki illə müqayisədə 7,4 % və ya 7,8 mln. manat çox idi.

Heydər Əliyev fəhlə və kəndli övladlarının ali təhsil almalarına əlverişli şərait yaradır,vəzifəli və imkanlı şəxslərin övladlarını ADU-nun hüquq fakültəsinə müxtəlif üsullarla düzəltmələrinə imkan vermirdi. Nəticədə 1978-ci ildə Azərbaycanın ali məktəblərinə qəbul olan gənclər içərisində fəhlə və kəndli uşaqlarının xüsusi çəkisi 67 %-dən çox təşkil edirdi. Respublikada müxtəlif sosial təbəqələrdən olan şəxslərin ali təhsil almalarına diqqətin artması təhsil, maarif və mədəniyyətin ümumi şəbəkəsini genişləndirir, xalqın mədəni səviyyəsini yüksəldir, onların hakimiyyətə olan inamını artırırdı. 1971-ci ildə Azərbaycan Pedaqoji Dillər İnstitutunun bazasında Rus Dili və Ədəbiyyatı (indi Bakı Slavyan Universiteti) və Pedaqoji Xarici Dillər İnstitutları (indiki Azərbaycan Dillər Universiteti) təşkil olundu. Azərbaycan Pedaqoji İnstitutunun filialları əsasında 1972-ci ildə Naxçıvan, 1973-cü ildə Xankəndi (o vaxt Stepanakert) Pedaqoji İnstitutları, 1976-cı ildə İnşaat Mühəndisləri İnstitutu, 1981-ci ildə Gəncə Texnologiya İnstitutu təşkil edildi. Beləliklə, əgər

respublikada 1969-cu ildə mövcud olan 13 ali məktəbdə 70 min tələbə təhsil alırdısa, 1982-ci ildə 18 ali məktəbdə təhsil alan tələbələrin sayı 107 min nəfəri ötüb keçmişdi.

Heydər Əliyev Azərbaycanda ali təhsilin inkişafına xüsusi diqqət yetirir, onun şəbəkəsini genişləndirir, tələbələrin sayını artırır, müəllimlərə xüsusi qayğı göstərirdi. Məhz onun sayəsində 1976-1980-cı illərdə ali məktəblərdə 23 yeni fakültə, 72 yeni kafedra yaradıldı. 1980-cı ildə respublikada 140-dan çox müxtəlif ixtisas üzrə mütəxəssis hazırlayan 75 orta ixtisas məktəbi var idi. Əgər 1969-cu ildən əvvəlki illərdə bu sahədə Azərbaycan qonşu respublikalardan geridə qalırdısa, Heydər Əliyevin yorulmaz fəaliyyəti və müdrik rəhbərliyi sayəsində ali və orta ixtisas təhsilli kadrların hazırlanmasının səviyyəsinə və miqyasına görə nəinki onları, hətta bir çox şərq ölkələrini xeyli geridə qoymuşdu. Respublika əhalisinin hər 10 000 nəfərinin 172-si tələbə idi.

Azərbaycan rəhbəri eyni zamanda azərbaycanlı tələbələrin xarici ölkələrin universitetlərində praktika keçmələrinə və mübadilə proqramları çərçivəsində təhsil almalarına da nail olurdu. Təkcə 1979-cu ildə 122 nəfər azərbaycanlı tələbə ADR, Polşa, Çexoslovakiya, Macarıstan, Yuqoslaviyada təhsil almağa göndərilmişdi.

Heydər Əliyev eyni zamanda azərbaycanlı gənclərin SSRİ-nin qabaqcıl ali məktəblərində müsabiqədənkənar təhsil almalarına çalışırdı. Ölkənin müxtəlif ali məktəblərinə göndərilən gənclərin sayı əvvəllər 400-600 nəfər idisə, sonralar 800-900 nəfərə çatdırıldı. 1978-ci ildə 2200-dən çox gənc ölkənin 151 ali məktəbində 244 ixtisas üzrə təhsil alırdı.

1981-ci ildə SSRİ-nin qabaqcıl ali məktəblərinə 853 nəfər oxumağa göndərildi. Həmin ildə ölkənin müxtəlif ali məktəblərində 244 ixtisas üzrə 3600 nəfər azərbaycanlı gənc təhsil alırdı. 1982-ci ildə isə oxumağa 737 nəfər azərbaycanlı göndərildi. Həmin gənclər tələbə təqaüdü ilə təmin olunurdular. Ümumiyyətlə, 70-80-ci illərdə ölkənin 50-dən çox şəhərində 135 mülki, 105 hərbi ali məktəblərində respublika üçün 17 mindən çox yüksək ixtisaslı ali təhsilli mütəxəssis kadr hazırlanmışdı. [6]

1982-ci ildə Sov.İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin I müavini vəzifəsində Moskvada işləməyə başladıqdan sonra da Heydər Əliyev Azərbaycan təhsilinə diqqət və qayğısını zəiflətmədi. SSRİ miqyasında təhsil sahəsinə də rəhbərlik edən Baş Nazirin I müavini kimi Azərbaycan təhsilinin inkişafına xüsusi diqqət yetirirdi. [7]

Azərbaycan aliminə və elminə xüsusi qayğı göstərən Heydər Əliyev bu sahədəki fəaliyyətini ardıcıl və sistemli olaraq bir neçə istiqamətdə həyata keçirirdi:

-Elmi-tədqiqat institutlarının və elmi işçilərin sayını artırırdı;

-Azərbaycan elminin ölkədə və dünyada tanıtdırılmasına səy göstərirdi;

-Görkəmli alimlərin dövlətin müxtəlif orden və mükafatları ilə təltif edilməsinə nail olurdu;

-Azərbaycan alimlərini Vətən tarixi, dili və ədəbiyyatı üzrə tədqiqatların genişləndirilməsinə təşviq edirdi;

-Milli ruhlu alimləri təqib və təzyiqlərdən qoruyaraq himayə edir, onlara yaradıcılıq şəraiti yaradırdı.

Heydər Əliyev Azərbaycanın milli düşüncəli tarixçi alimlərindən Ziya Bünyadovu, Mahmud İsmayılovu, Süleyman Əliyarovu və başqalarını sovet sisteminin təzyiqlərindən xilas edərək, himayəsinə alır, onları qoruyur, dəyərli araşdırmalar aparmaları üçün şərait yaradırdı. Təqib olunanları bəzən özü tənqid edir, Moskvaya hər şeyin nəzarətdə olduğunu bildirir, sonra isə onları yüksək elmi idarələrdə rəhbər vəzifələrə təyin edir , onlara hər cür şərait yaradırdı.

Beləliklə, Azərbaycan xalqının bütün tarixi ərzində məktəb və maarif özünün ən yüksək inkişaf səviyyəsinə XX əsrin 70-80-ci illərində çatdı. Xalqın maariflənməsinə xüsusi diqqət verən Heydər Əliyev başlıca səylərini məktəb tikintisinə, büdcədən təhsilə ayrılan vəsaitlərin artırılmasına yönəldirdi. Onun siyasi rəhbərliyi illərində 1969-1982-ci illərdə Azərbaycanda 849 ümumtəhsil məktəbi tikilmişdi.Azəbaycan məktəbinin maddi-texnilki bazası ildən ilə yaxşılaşdırılır, təchizat səviyyəsi yüksəldilir, məktəb kitabxanaları fondu zənginləşirdi.

Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətdə olduğu 1969-1982-ci illərdə yüksək səviyyədə inkişaf etmiş təhsil, yetişdirilmiş bacarıqlı ixtisaslı kadrlar və fundamental, humanitar sahələrdə çalışan alimlər korpusu gələcək müstəqilliyin təməlini təşkil etdilər. Bütün bunlar Ulu Öndər Heydər Əliyevin Vətən və xalq qarşısında böyük tarixi xidmətlərinin bir istiqaməti idi.

Heydər Əliyev 1990-cı ilin yanvarın 20-də sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçılarının və icraçılarının cəzalandırılmasını tələb etmişdir.

Heydər Əliyevin dövlətçilik məharəti, siyasi idarəetmə qabiliyyəti 1991-1993-cü illərdə onun Naxçıvan Ali Məclisinin sədri vəzifəsində çalışdığı dövrdə özünü daha bariz surətdə biruzə verdi. Naxçıvana rəhbərlik etdiyi dövrdə Heydər Əliyevin təşəbbüsü ilə Muxtar Respublikanın adından Sovet Sosialist sözləri çıxarıldı, "Ali Sovet" "Ali Məclis" adlandırıldı, AXC-nin 3 rəngli bayrağı ilk dəfə Naxçıvan MR-nın dövlət bayrağı kimi qəbul edildi, Muxtar Respublikada Kommunist Partiyasının fəaliyyəti dayandırıldı. SSRİ-nin saxlanılması barədə referendumdan imtina edildi, 20 yanvar faciəsinə ilk dəfə Muxtar Respublikada siyasi qiymət verildi, dünya azərbaycanlılarının həmrəylik gününün qeyd edilməsi barədə qərarlar qəbul edildi. Bu cəsarətli

addımların atılması Naxçıvanı xalqımızın qurtuluş mübarizəsinin önünə çıxardı və Heydər Əliyevə ümumxalq məhəbbəti daha da artdı.

Heydər Əliyev 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində keçirilmiş Yeni Azərbaycan Partiyasının təsis qurultayında partiyanın sədri seçilmişdir. 1991-ci il oktyabr ayının 18-də xalqımızın apardığı azadlıq mübarizəsinin zəruri nəticəsi olaraq dövlət müstəqilliyini elan edən azərbaycan xalqı 1990-cı illərin əvvəllərində ciddi sınaq qarşısında qaldı. Ölkədə dərin və təhlükəli ictimai-siyasi, iqtisadi böhran yaranmışdır. 1991-1993-cü illər Azərbaycanın müstəqilliyi tarixində nəinki itirilmiş illər hesab olunur, həm də bu illərdə Azərbaycan "ölüm ya olum dilemması" qarşısında qalmışdır. Belə mürəkkəb bir zamanda Azərbaycan xalqının təkidli tələbi ilə müdrik el ağsaqqalı, zəngin dövlətçilik təcrübəsi olan görkəmli dövlət xadimi Heydər Əliyev 1993-cü il iyun ayının 15-də Respublika Ali Sovetinin (indiki Milli Məclis) sədri seçildi, ümumxalq səsverməsi yolu ilə 1993-cü il oktyabr ayının 3-də Azərbaycan Respublikasının Prezidenti seçildi. [2]

Ulu Öndərin yenidən hakimiyyətə qayıdışı ilə Vətən tarixinin Heydər Əliyev dövrü özünün yeni, daha şərəfli mərhələsinə daxil oldu. Ümummilli Liderin zəngin dövlətçilik təcrübəsi, siyasi idarəçilik məharəti, dəmir iradəsi və uzaqgörənliyi sayəsində ölkəmizin böyük çətinlikləri, milli dövlətçiliyimizin itirilməsi təhlükəsi aradan qaldırıldı.

**Nəticə:** Ulu Öndər ölkəmizin daxili və xarici siyasət proqramını hazırladı, dağıdılmış iqtisadiyyatın bərpa və inkişaf etdirilməsinin strategiyasını müəyyənləşdirdi, dərin və əhatəli sosial-iqtisadi, siyasi və mədəni islahatlar kursunu inkişaf etdirdi. Heydər Əliyevin böyük təşkilatçılığı və məqsədyönlü siyasəti nəticəsində ictimai-siyasi sabitlik bərpa olundu, müstəqil dövlətçiliyimizin möhkəmləndirilməsi üçün əsaslı zəmin yaradıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət strategiyası Azərbaycanın dövlət müstəqilliyini qoruyub daha da möhkəmləndirdi və dinamik inkişaf yoluna çıxartdı. Hedər Əliyevin siyasi-iqtisadi, sosial-mədəni və mənəvi sahələri əhatə edən inkişaf strategiyası onun siyasi varisi ölkə prezidenti İlham Əliyev tərəfindən böyük uğur və yaradıcılıqla inkişaf etdirilir.

## Ədəbiyyat


1. Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. Bakı, 1997-2001.
2. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild, Bakı,2008.
3. Azərbaycan tarixi. "Bakı Universiteti" Ali məktəblər üçün dərslik, Bakı,2017.
4. Azərbaycan Ensiklopediyası. Bakı, 2004.

5. Qaffarov T. Azərbaycan Respublikası. “1991-2001). Bakı, 2001.
6. Qasımlı M. Heydər Əliyev- İstiqlala gedən yol (1969-1987-ci illər). Bakı,2006.
7. “Kommunist” qəzeti, 1969-1982-ci illər.

# XX ƏSRIN ƏVVƏLLƏRİNDƏ ERMƏNİ-DAŞNAK BİRLƏŞMƏLƏRİNİN ŞUŞADA TÖRƏTDİKLƏRİ SOYQIRIMLARININ AZƏRBAYCANIN DEMOQRAFİK VƏZİYYƏTİNƏ TƏSİRİ XXI ƏSR VƏTƏN TARİXŞÜNASLIĞINDA

**Aydın Məmmədov**
Bakı Dövlət Universiteti
aydin.mmmdov.67@ mail.ru

**Açar sözlər:** Azərbaycan tarixşünaslığı, Şuşa, demoqrafik vəziyyət, soyqırım, etnik təmizləmə.

**Xülasə**

*Azərbaycanın XX əsrin əvvəllərində üzləşdiyi bir sıra ictimai-siyasi, sosial-iqtisadi çətinliklər, o cümlədən soyqırımlar uzun illər Sovet tarixşünaslığında ciddi surətdə təhrif olunmuş, milli-mədəni və milli-azadlıq hərəkatı ilə bağlı tarixi həqiqətlərimizin üzərinə isə qadağa qoyulmuşdur. Yalnız Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra alimlərimiz Vətən tarixinin uzun illər geniş ictimaiyyətdən gizli saxlanılan qaranlıq səhifələrinə işıq sala bildilər. Ötən əsrin 1905-1907, 1918- ci illərində erməni-daşnak birləşmələrinin Bakı, Şamaxı, Quba, Lənkəran, Zəngəzur, Naxçıvan və Azərbaycanın bir çox bölgələrində həyata keçirdikləri talanlarla müşayiət olunan qırğınlarda minlərlə dinc soydaşımız həyatlarını itirdilər. Sıx məskunlaşmış şəhərlərimiz, kənd və digər yaşayış məskənlərimiz planlı surətdə viran edildi. Bütün bu proseslər XXI əsr Azərbaycan tarixşünaslığında elmi-obyektiv müstəvidə öz əksini tapmışdır.*

# ВЛИЯНИЕ ГЕНОЦИДА, СОВЕРШЕННОГО АРМЯНО-ДАШНАКСКИМИ ОБЪЕДИНЕНИЯМИ В ШУШЕ В НАЧАЛЕ XX ВЕКА, НА ДЕМОГРАФИЧЕСКОЕ ПОЛОЖЕНИЕ АЗЕРБАЙДЖАНА В ОТЕЧЕСТВЕННОЙ ИСТОРИОГРАФИИ XXI ВЕКА

**Айдын Мамедов**

**Ключевые слова:** *азербайджанская историография, Шуша, демографическая ситуация, геноцид, этнические чистки*

**Резюме**

*Ряд общественно-политических, социально-экономических трудностей, с которыми столкнулся Азербайджан в начале XX века, в том числе геноциды, на долгие годы серьезно искажались в советской*

*историографии, а наши исторические истины, связанные с национально-культурным и национально-освободительным движением, были запрещены. Только после обретения Азербайджанской Республикой независимости наши ученые смогли пролить свет на темные страницы истории Родины, многие годы, скрывавшиеся от широкой общественности. В 1905-1907 и 1918 годах прошлого века тысячи наших мирных соотечественников погибли в резне, сопровождавшейся мародерством армяно-дашнакских отрядов в Баку, Шамахе, Губе, Лянкяране, Зангезуре, Нахчыване и многих районах Азербайджана. Планово уничтожались наши густонаселенные города, села и другие населенные пункты. Все эти процессы нашли отражение в азербайджанской историографии XXI века на научно-объективном уровне.*

## THE INFLUENCE OF THE GENOCIDE COMMITTED BY THE ARMENIAN-DASHNAK ASSOCIATIONS IN SHUSHA AT THE BEGINNING OF THE XX CENTURY ON THE DEMOGRAPHIC SITUATION OF AZERBAIJAN IN THE NATIONAL HISTORIOGRAPHY OF THE XXI CENTURY

**Aydin Mammadov**

**Key words:** Azerbaijani historiography, Shusha, demographic situation, genocide, ethnic cleansing

**Summary**

*A number of socio-political, socio-economic difficulties that Azerbaijan faced at the beginning of the XX century, including genocides, were seriously distorted in Soviet historiography for many years, and our historical truths related to the national cultural and national liberation movement were prohibited. Only after the Republic of Azerbaijan gained independence, our scientists were able to shed light on the dark pages of the history of the Motherland, which were kept hidden from the general public for many years. In the years 1905-1907 and 1918 of the last century, thousands of our peaceful compatriots lost their lives in massacres accompanied by looting carried out by Armenian-Dashnak units in Baku, Shamakhi, Guba, Lankaran, Zangezur, Nakhchivan and many regions of Azerbaijan. Our densely populated cities, villages and other settlements were destroyed in a planned manner. All these processes are reflected in the XXI century Azerbaijani historiography at the scientific-objective level.*

XX əsrin əvvəllərində erməni-daşnak birləşmələrinin xalqımıza qarşı yeritdikləri cinayətlərdən ən çox ziyan çəkən bölgələrimizdən biri də Şuşa

qəzası, Şuşa şəhəri olmuşdur. Belə ki, bu dövrdə sözügedən bölgənin əhalisinə qarşı bədnam qonşularımızın hər cür çirkin əməllərə əl ataraq, xüsusən də güc işlədərək xof yaratmaq siyasəti planlı və ardıcıl surətdə davam etdirilmişdir. Müstəqillik illərində sözügedən problemin tarixşünaslığı A.İsgəndərov, S.Rüstəmova-Tohidi, A.Paşayev, V.Abışov, K.Şükürov, Y.Mahmudov və bir çox bu kimi alimlərimizin qiymətli tədqiqat əsərləri ilə zənginləşdi. Bu tədqiqat əsərləri Qarabağda çarizmin köçürmə siyasətindən sonra ermənilərin sayının XIX əsrin əvvəllərindən etibarən qısa zaman kəsiyində artması səbəblərlərini, erməni-daşnak birləşmələrinin XIX əsr – XX əsrin əvvəllərində Qarabağ bölgəsində və Şuşada soydaşlarımıza qarşı yeritdikləri anti-Azərbaycan xarakterli demoqrafik siyasəti, soyqırım və talanları çoxsaylı konkret elmi faktlar əsasında, elmi-obyektiv müstəvidə aydın şəkildə əks etdirərək geniş ictimaiyyətə təqdim etmişlər.

Şimali Azərbaycana, o cümlədən Qarabağ bölgəsinə və Şuşaya köçürülən ermənilər buradakı soydaşlarımızı öz dədə-baba yurdlarından sıxışdıraraq didərgin salmağa, qovmağa başladılar. Məsələn, polkovnik Lazarev İranda yaşayan erməni əhalisinə müraciətində deyirdi: “Özünüzə seçəcəyiniz yerlərdə – İrəvanda, Naxçıvanda və Qarabağda dövlət hesabına əkilib becəriləcək bol məhsullu torpaq alacaqsınız. Siz 6 il müddətinə hər cür vergilərdən azad olunursunuz” [4, s.26]. Vəziyyətin belə bir hal alması bəzən soydaşlarımızın öz yurdlarını tərk etmələri ilə də nəticələnirdi: “...1805-1813-cü illərdə təkcə Qarabağı məcburi tərk etmiş azərbaycanlı ailələrin sayı 4845-dən çox idi” [4, s.27].

Məcburi surətdə yurdunu tərk edənlərin torpaqlarının ermənilər tərəfindən zəbt olunması amili də onların Şuşada kompakt kəndlər salmalarına, başlıcası isə bu taktikanı gələcəkdə də min bir üsulla, o cümlədən talan və qırğınlarla həyata keçirərək davam etdirmələrinə zəmin yaradırdı. Tarixçi A.İsgəndərov bu məqama diqqət yetirərək yazır: “XIX əsrin birinci yarısında Şimali Azərbaycanın müxtəlif bölgələrində başlanmış qaçqınçılıq və köçkünlük çar Rusiyasının müstəmləkəçilik siyasətinin, milli ədavətin, aramsız müharibələrin bilvasitə nəticəsi idi. Azərbaycanlı əhalinin məcburiyyət üzündən Şimali Azərbaycanı tərk etməsi xristianlaşdırma siyasətinin gerçəkləşməsinə daha geniş imkanlar açırdı” [4, s.27].

Məhz bu mənada XX əsrin əvvəllərində ermənilərin xalqımıza qarşı törətdikləri vəhşiliklərin səbəblərini XIX əsrin birinci yarısında Cənubi Qafqazda cərəyan edən siyasi proseslərdə axtarmaq gərəkdir: “Əslində hələ “XIX əsrin əvvəllərində baş vermiş Rusiya işğalları Şuşa şəhərinin də inzibati statusuna və demoqrafik vəziyyətinə ağır təsir göstərdi” [6, s.64].

Təəssüf doğuran hal odur ki, Qarabağ bölgəsində və Şuşa qəzasında azərbaycanlı əhalinin sayının XIX əsrin əvvəllərindən başlayaraq kəskin surətdə azalması, ermənilərinkininsə əksinə artması prosesi həmin əsrin sonlarına, o

cümlədən XX əsrin əvvəllərindək davam etmişdir: "Rus şərqşünası N.Şavrov məhz buna görə yazırdı ki, Zaqafqaziyadakı 1,3 mln. ermənінin 1 mln.-dan çoxu gəlmədir" [7, s.34]. M.İsmayılov bu acınacaqlı demoqrafik vəziyyəti: "Artıq 1886-cı ildə demək olar ki, indiki Dağlıq Qarabağın bütün ərazisini əhatə edən Şuşa qəzasında köçürülmə siyasəti nəticəsində ermənilər əhalinin 58,2%-ni, azərbaycanlılar isə 41,5% təşkil edirdilər" [17, s.234].

Vətən tarixşünaslığında erməni-daşnak birləşmələrinin XX əsrin əvvəllərində xalqımıza qarşı yeritdikləri soyqırımlarını tarixşünaslıq kontekstində ilk dəfə tədqiq edən A.İsgəndərov yazır. "Erməni-daşnak qüvvələrinin müsəlman əhalisinə qarşı soyqırım siyasəti özünü daha çox Qarabağ bölgəsində açıq şəkildə büruzə vermişdir. Çar hakimiyyət orqanlarının himayəçilik siyasətindən çox məharətlə istifadə edən ermənilər azərbaycanlı əhalini öz dədə-baba yurdlarından sıxışdırmağa başladılar" [5, s.335].

Lakin, Y.Mahmudov və C.Mustafayev birgə ərsəyə gətirdikləri "Şuşa – Pənahabad" adlı kitabda Şuşada müşahidə edilən əhali artımının heç də Şuşanın köklü sakinləri olan azərbaycanlıların hesabına baş vermədiyini təəssüf hissi ilə bildirirlər: "Rus çarizminin həyata keçirdiyi köçürmə siyasəti burada indiyə qədər mövcud olmuş etnik balansın pozulmasına, ermənilərin sayca artmasına gətirib çıxartdı. Nəticədə XIX əsrin sonu – XX əsrin əvvəllərində köçkün ermənilərin hesabına şəhərdə əhalinin mexaniki artımı təbii artımı bir neçə dəfə üstələmişdi. Belə ki, burada 1870-ci ildən 1917-ci ilə qədər baş vermiş 23924 nəfər əhali artımının 9400 nəfəri təbii artımın payına düşdüyü halda, 14524 nəfəri köçkün ermənilərin payına düşmüşdü" [6, s.67; 16, s.230-233].

H.Verdiyeva çarizmin köçürmə siyasətinə həsr etdiyi monoqrafiyasında yazır ki, XIX əsrin birinci yarısında ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürüldüyü 20 il ərzində onların burada xüsusən də, Qarabağ bölgəsində sayı 2 dəfə artdı. Türkmənçay sülh müqaviləsindən sonra ermənilərin Qarabağ bölgəsinə axını sonrakı illərdə də davam etdi [13, s.228-229].

Təbii ki, Şuşa qəzasında erməni əhalinin sayının durmadan artması onların Azərbaycan kəndlərini əhatəyə alan kompakt yaşayış məskənlərinin sayını artırmalarına münbit şərait yaradırdı. Şübhə yoxdur ki, süni surətdə belə bir demoqrafik fonun yaradılması regionda vəziyyəti gərginləşdirir, yaxın gələcəyə hesablanmış milli zəmində baş verə biləcək qarşıdurmalara, o cümlədən ermənilərin Şuşa qəzasında 1905-1907-ci illərdə törətdikləri qanlı olaylara münbit şərait yaradırdı. Lakin, yeni məskunlaşdıqları ərazilərdə ermənilər öz mövqelərini birdən birə biruzə vermir, yerli şəraiti diqqətlə öyrənir, məqsədlərinə çatmaq üçün ən optimal yolları diqqətlə arayırdılar [15, s.72-74]. Yeni məskunlaşdıqları, köçüb gəldikləri ərazilərdə ermənilərin istifadə edə biləcəkləri ən təsirli vasitələrdən biri də təbii ki, çar hakimiyyət orqanlarında işə girib, vəzifələr ələ keçirmələri idi. Məhz yeni şəraitə uyğun olaraq, hakimiyyət orqanlarında möhkəmlənməklə ermənilər öz soydaşlarının

xalqımıza qarşı artıq XX əsrin əvvəllərindən başlayaraq sistemli xarakter alan cinayətlərini ört-basdır edə, demoqrafik vəziyyəti öz xeyirlərinə daha effetiv şəkildə dəyişə bilərdilər.

Azərbaycan tarixşünaslığında bu məsələyə bir sıra tarixçilərimiz xüsusi həssaslıqla yanaşmışlar. Məsələn, sözügedən problemə dair sanballı monoqrafiyaları ilə tarixşünaslığımıza böyük töhfələr verən A.Paşayev "Açılmamış səhifələrin izi ilə" adlı kitabında yazır: "Hələ XIX əsrin əvvəllərində ruslar erməniləri bu yerə (Qarabağ bölgəsinə – A.M.) köçürdükdən sonra əsasən gəlmə ermənilər həmişə azərbaycanlılara qarşı hiylə və məkr yuvası olan erməni məlikliklərindəki ermənilərlə birləşərək xalqımıza qarşı əsl təhlükəyə çevrilməkdə idi. ...Həmişə "Yersiz gəldi, yerli qaç" prinsipi ilə hərəkət edən ermənilər çar hakimiyyət orqanlarının onlara qarşı himayəçilik siyasətindən məharətlə istifadə edərək yerli azərbaycanlıları getdikcə sıxışdırmağa başlayırlar" [11, s.269]. Azərbaycan tarixşünaslığında ermənilərin "Kiçik Ermənistan" adlandırdıqları Qarabağ torpaqlarına ilk açıq iddialarının məhz XX əsrin əvvəllərində Rusiyada baş verən siyasi təbəddülatlardan, 1905-1907-ci illər, sonra isə 1917-ci il Fevral burjua inqilabı və oktyabr çevrilişindən sonra başlamaları fikri ilə tez-tez rastlaşmaq olur. A.Paşayevin yuxarıda adı çəkilən kitabında oxuyuruq: "Onların (ermənilərin – A.M.) bu hərəkəti XX əsrin əvvəllərindən başlayaraq artıq sistemli şəkil alır və planlı surətdə həyata keçirilməyə başlayır. ... Ermənilərin bu bölgədə azərbaycanlılara qarşı ilk açıq düşmənçilik siyasətlərini başqa yerlərdə olduğu kimi 1905-1907-ci illər erməni-azərbaycanlı münaqişəsi zamanı göstərdilər" [11, s.269].

Beləliklə, müəlliflər XIX əsrin sonu – XX əsrin əvvəllərində Şuşada yaranan demoqrafik vəziyyəti təhlil edərək belə bir qənaətə gəlirlər ki, Şuşada ermənilər çar hökumətinin himayədarlığı ilə şəhərin köklü sakinləri olan azərbaycanlıları sıxışdırmağa başladılar. Erməni silahlı dəstələrinin 1905-1906-cı illərdə azərbaycanlılara qarşı təşkil etdikləri terror və soyqırımları Azərbaycanın digər yerlərini, o cümlədən Şuşanı da də əhatə etmişdi. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sədrliyi ilə 2007-ci ildə nəşr olunan "Azərbaycan" ensiklopediyasında sözügedən hadisələrlə bağlı yazılır ki, 1905-ci il fevralın 6-dan Bakıda başlanan qırğınlar bir müddətdən sonra Azərbaycanın başqa bölgələrinə də, o cümlədən 1905-1906 illərin qışı, yayı və payızında Gəncə, Şuşa və bütün Qarabağa yayıldı. Erməni daşnakların hərbi birləşmələrinin xüsusilə Qarabağda törətdiyi vəhşiliklər barədə hətta erməni qəzetləri yazılar dərc etmişdilər. Burada həmçinin "Difai" partiyasının "Qarabağ birlik məclisi" adlanan ən iri şöbəsinin Şuşada fəaliyyət göstərməsi, partiyanın proqramında təkcə Azərbaycan xalqının erməni qırğınlarından xilas etmək deyil, eləcə də müsəlmanların maariflənməsi uğrunda mübarizə aparılmasının başlıca mədsəd olması elan olunurdu [1, s.274; 3, s.92-97].

Digər tərəfdən erməni daşnak qüvvələri XX əsrin əvvəllərində çar Rusiyasında baş verən hər bir mühüm siyasi hadisədən öz xeyirlərinə maksimal dərəcədə bəhrələnməyə çalışırdılar. A.İsgəndərovun təbirincə desək, 1905-1907-ci illərdə baş verən birinci rus inqilabı dövründə çar hökumətinin Azərbaycanda milli qırğın siyasətinin həyata keçirilməsində erməni-daşnak qüvvələri həlledici rol oynadılar: "Ermənilər öz məkrli planlarını 1905-1907-ci illərdəki münaqişələr zamanı bütün çılpaqlığı ilə ortaya qoydular. "Böyük Ermənistan" planı ilə silahlanan ermənilər "kiçik Ermənistan" adlandırdıqları Qarabağ torpaqlarına olan iddialarını açıq şəkildə həyata keçirməyə başladılar" [5, s.335].

Həqiqətən də Çar hökumətinin himayəsi və fəal köməyi ilə Şuşada say üstünlüyünə nail olan ermənilər həmin şəhərin köklü sakinləri olan azərbaycanlıları sıxışdırmağa başladılar. 1905-ci il avqustun 16-da təpədən dırnağa qədər silahlanmış ermənilər azərbaycanlıların üzərinə hücuma keçdilər. Rus ordusuna xidmət edən erməni əsgər və zabitləri də onlara qoşuldular. Şuşanın Köçərli və Xəlfəli məhəllələrində yaşayan xeyli azərbaycanlı soyqırımına məruz qaldı. Lakin, tezliklə özlərinə gələn azərbaycanlılar erməni vəhşiliklərinin qarşısını nəinki aldılar, hətta əks-hücuma keçərək, qatillərə ağır zərbə vurdular. Yalnız qubernatorun və erməni arximandiritinin xahişindən sonra avqustun 19-da hücumlar dayandırıldı və ermənilərə evlərinə qayıtmağa icazə verildi.

Lakin özlərinin xəyanətkar xislətinə sadiq qalan ermənilər avqustun 21-də Cənubi Azərbaycandan gəlmiş 21 nəfər kəsbkarın başlarını kəsib amansızlıqla qətlə yetirdilər [10, s.52-58].

1905-ci ilin avqust hadisələri zamanı öz çirkin niyyətinə çatmayan ermənilər bunun əvəzini 1906-ci ildə çıxmaq qərarına gəldilər. Bu dəfə şəhərdə olan Rusiya hakim orqanları da aşkar şəkildə ermənilərə kömək göstərirdilər. Həmin ilin iyun ayında rus generalı Qalaşcanov Şuşanın azərbaycanlılar yaşayan Köçərli məhəlləsini topa tutmağı əmr etdi. M.S.Ordubadi yazır: "Ayın 12-də bir tərəfdən kazak dəstələri və piyada rus qoşunu digər tərəfdən ətrafdan yığılmış 10 minə yaxın erməni könüllü əsgəri, o biri tərəfdən də müharibədən qabaq şəhərdə nizam altında saxlanılmış erməni bölükləri və qaçaqlar müsəlmanlara qarşı hücuma başladılar. Beş gün ərzində erməni məhəllələrinin sərhədində olan bütün müsəlman evləri yandırılıb top zərbələri ilə dağıtdılar" [10, s.61].

Yuxarıda göstərilənlərdən bəlli olur ki, Qarabağda, xüsusən də Şuşada həyata keçirilən qırğınlar bu bölgədən azərbaycanlıları fiziki olaraq məhv etməklə etnik təmizləmə məqsədi güdürdü. Tarixin müxtəlif mərhələlərində əzəli torpaqlarımıza qarşı əsassız ərazi iddiaları ilə çıxış edən ermənilər Şuşada istər 1905-1907-ci illərdə, istərsə də 1918-1920-ci illərdə törətdikləri qanlı qətliamlar zamanı on minlərlə soydaşımızı amansızcasına qətlə yetirmiş,

oradakı bir çox yaşayış evlərini qarət və tamamilə yerlə-yeksan edərək dinc əhalini qaçqın və didərgin vəziyyətinə salmışlar.

1905-1907-ci illərdə erməni terrorunun getdikcə geniş miqyas alması azərbaycanlıları birləşməyə və təşkilatlanmağa məcbur edirdi. Məhz bu səbəbdən də "Difai" partiyasının 1907-ci ildə qəbul olunmuş proqramında müsəlmanları birliyə, milli özünüdərki inkişaf etdirməyə çağırır, milli düşmənçiliyi qızışdırmağa görə məsuliyyət məsələsinin qaldırılmasını tələb edirdi. Bu isə bir daha XIX əsrin əvvəllərində çarizmin köçürmə siyasəti nəticəsində ermənilərin Qarabağ bölgəsində və Şuşada sayının kəskin surətdə artmasından sonra Azərbaycan torpaqları hesabına özlərinə dövlət qurmaq siyasətinə rəğmən, azərbaycanlıların bu bədnam qonşularına qarşı nə qədər tolerant münasibət bəslədiyini, milli məsələlərə həssas yanaşdığını aydın şəkildə göstərir. Bütün bu məsələlər 7 cilddlik Azərbaycan tarixinin V cildində öz əksini tapmışdır: "Bu məqsədlə 1906-cı ildə yaradılmış "Difai" partiyasının ən iri şöbəsi "Qarabağ birlik məclisi" idi. Məclisin baş komitəsi Şuşada yerləşirdi. Onun fəaliyyəti bütün Qarabağı – Yelizavetpol quberniyasının Cavanşir –Qaryagin və Şusa qəzalarını əhatə edirdi. Kərim bəy Mehmandarovun başçılıq etdiyi bu şöbənin 400 nəfərlik döyüş drujinası var idi" [2, s.118].

Belə ki, 1918-ci il hadisələri öncəsi, 1915-ci ildə Şuşa qəzasında yaşayan 171954 nəfər əhalinin 77189 nəfərini azərbaycanlılar, 94785 nəfərini isə ermənilər təşkil edirdi [17, s.234].

Şuşa qəzasında məhz, belə bir demoqrafik vəziyyətin formalaşması 1918-ci ilin məlum hadisələri zamanı faciənin miqyasının genişlənməsinə ciddi təsir göstərdi. A.Paşayev "Açılmamış səhifələrin izi ilə" adlı kitabında məhz bu amilə diqqət yetirərək yazır: "Hər tərəfdən erməni əhatəsində olan Şuşanın vəziyyəti çox ağır idi. Əhalisinin çoxu azərbaycanlı olan Şuşa və ətrafdakı bir neçə müsəlman kəndi – 173 erməni kəndi tərəfindən üzük qaşı kimi əhatəyə alınmışdı" [11, s.280]. Təsadüfi deyildir ki, General Paskeviç göstəriş vermişdi ki, Qarabağa köçürülən ermənilərin məskunlaşmaları üçün yeni kəndlər salınarkən yerli azərbaycanlıların sıx yaşadıqları kəndlərin yaxınlığı nəzərdə tutulsun.

A.İsgəndərov sözügedən problemlə bağlı əsərlərində Fövqəladə Təhqiqat Komissiyasının ermənilərin özlərinin say çoxluğu amilindən xalqımıza qarşı törətdikləri soyqırımlarında həmişə faydalanmaq fürsətini əldən verməmələrinə dair: "Hər yerdə olduğu kimi, Şuşa qəzasında da ermənilər öz taktikalarına həmişəki kimi sadiqdirlər. O yerdə ki, onlar çoxluq təşkil edirlər, onda özgə xalqlara qarşı zülm etmək və güc işlətməkdə amansızdırlar. O vaxt ki, onlar azlıq təşkil edirlər, kimə istəsəniz qulluq etməyə həmişə hazırdırlar" – deyə, yazdıqlarının bu gün də aktual olduğunu qeyd edir [5, s.337].

Elə Şuşa qəzasının XX əsrin əvvəllərində erməni daşnak qüvvələrinin həyata keçirdikləri vəhşiliklərin acısını yaşayan şahidlərin ifadələrinə görə

həmin quldur dəstələri yalnız silahsız və tamamilə erməni kəndləri tərəfindən mühasirə olunaraq, heç yandan kömək ala bilməyən azərbaycanlılar qarşısında özlərini güclü və mütəşəkkil hiss edir və çox asanlıqla müvəffəqiyyət əldə edirdilər. Həqiqətən də, sözügedən bölgənin müsəlman kəndləri A.Paşayevin təbirincə desək: "Erməni kəndlərinin aralarında qaldıqlarından bir-biriləri ilə əlaqə saxlamaq üçün yalnız erməni kəndlərindən istifadə etməyə məcbur olduqları üçün ilk gündən özlərinin bu üstün vəziyyətini hiss edən həmin qəzada üstünlüyü öz əllərinə almışdılar" [12, s.5]. Erməni daşnak qüvvələri bu üstünlüyü qoruyub saxlamaq üçün də nəyin bahasına olursa olsun Qarabağın Şuşa, Cavanşir və Cəbrayıl qəzalarını bir-birindən ayrı salmağa çalışırdılar. Məhz bu səbəbdən də erməni-daşnak qüvvələri Şuşanı digər ərazilərdən tam təcrid etmək üçün buradakı yolları məqsədyönlü surətdə bağlayaraq nəqliyyatı tam iflic hala salıraraq aclıq, soyuq və xəstəliklər yoluyla da azərbaycanlı əhalinin kökünü kəsməyə çalışırdılar: "Şuşa – Qaryagen və Şuşa – Əsgəran yollarını ermənilər tamamilə nəzarət altına alır, həmin yollarla gedib-gələn azərbaycanlıları qarət edib silahlarını əllrindən alaraq tədricən həmin keçidləri tamamilə azərbaycanlıların üzünə bağlayırdılar" [12, s.15].

Buradan belə qənaətə gəlmək olar ki, istər 1905-1907-ci illərdə, istərsə də 1918-1920-ci illərdə erməni daşnak qüvvələri hərbi dəstələrdən deyil, qarətçi-quldur bandalarından ibarət imiş: "Bu quldur dəstələrini ermənilər daha mütəşəkkil hərbi formaya salırlar" [12, s.15].

Şuşanı Qarabağın digər əraziləri ilə bağlayan yollarla əlaqəsini kəsərək onu 8 ay ermənilər tərəfindən kəsilməsi nəticəsində – yəni türklər gələnə kmi Şuşa şəhəri və dağ zonasındakı azərbaycanlı kəndlərindəki azərbaycanlı əhalinin vəziyyəti həqiqətən də faciəli idi" [11, s.280].

Demək olar ki, eyni fikirlərlə H.Məmmədovanın "Azərbaycan Xalq Cümhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyət: erməni terrorizminin güclənməsi (1918-1920)" adlı kitabında da rast gəlirik. O, özünün sözügedən kitabında yazır: "Şuşa qəzasının kəndləri də Zəngəzur qəzasındakı kimi erməni kəndləri tərəfindən əhatəyə alınmışdır. Ermənilər həmişə olduğu kimi bu şəraitdən istifadə edərək Azərbaycan kəndləri üzərində hər cür zorakılıq törətmişdilər" [9, s.36].

Artıq yuxarıda deyildiyi kimi Şuşa qəzasına köçürülən ermənilər gələcəkdə fürsət düşən kimi buradakı kəndlərimizdən soydaşlarımızı qovub çıxartmaq üçün onları hər tərəfdən əhatəyə alırdılar: "Şuşa qəzasının ümumi vəziyyətini təsvir edərək onu əlavə etmək lazımdır ki, Şuşa şəhərinin özü və ətrafında yerləşən Azərbaycan kəndləri 175 erməni kəndi tərəfindən əhatəyə alınmışdır. Bax buna görə də içməli sudan, ərzaq məhsullarının gətirilməsindən məhrum olan azərbaycanlıların vəziyyəti doğrudan da faciəli olmuş, bu vəziyyət səkkiz ay, türklər gələnə qədər davam etmişdir [9, s.37; 14, s.43].

Həqiqətən də, Şuşa qəzasında soyqırımlarının davam etdiyi bir dövrdə AXC hökumətinin ermənilərin vəhşiliklərinin qarşısını almaq məqsədilə Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzaları əsasında yaratdıqları müvəqqəti Qarabağ general-qubernatorluğuna erməni əhalinin tabe olmaması da elə bu bölgədə onların xeyrinə formalaşan əlverişli demoqrafik vəziyyətlə bağlı idi. Bu azmış kimi Azərbaycan hökumətinin qəti addımlarından narahat olan Ermənistanın belə bir şəraitdə Dağlıq Qarabağa açıq iddia ilə çıxış etməsi buradakı onsuz da gərgin vəziyyəti daha da mürəkkəbləşdirirdi. Azərbaycan Hökuməti 1919-cu il yanvarın 31-də cavab notasında Qarabağın tarixən Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu bildirdirərək, general qubernatorluğunun yaradılmasına Ermənistanın etirazını Azərbaycanın suverenliyinə qəsd və onun daxili işlərinə qarışmaq cəhdi kimi qiymətləndirdi.

Sözügedən problemlə bağlı Fövqəladə Təhqiqat Komissiyasının sənədlərindən məlum olur ki, Şuşa qəzasındakı ermənilər Azərbaycan hökumətini tanımaq istəmir, vergi verməkdən, mükəlləfiyyət daşımaqdan imtina edərək Şuşa şəhəri də daxil olmaqla Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək istəyirdilər.

Şuşa qəzasında erməni əhalisinin, o cümlədən separatçılıq hərəkətlərinə başçılıq edən Erməni Milli Şurasının Şuşa şəhərində fəaliyyət göstərməsi səbəbindən burada burada törədilən soyqırımları daha amansız, mütəşəkkil xarakter daşımışdır.

Məsələ ilə bağlı M.İsmayılovun yuxarıda sözügedən məqaləsində oxuyuruq: “1918-ci ilin 28 mayında tərkibinə Qarabağ da daxil olan Azərbaycan Demokratik Respublikası yaradıldı. Mudros müqaviləsinə görə türklər Azərbaycanı, o cümlədən Qarabağı tərk etdikdən sonra burada ingilislər peyda oldular. 1918-ci ildə Qarabağda millətlərarası münasibətlər xeyli kəskinləşdi. Nəticə də burada 157 yaşayış məskəninə ciddi zərər dəydi” [17, s.240].

Ermənilər Qarabağı və onun mərkəzi olan Şuşa şəhərini ələ keçirmək və azərbaycanlılardan təmizləmək siyasətini 1918-1920-ci illərdə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə də davam etdirdilər. Erməni terrorçu təşkilatı olan “Daşnaksutyun” azərbaycanlılara qarşı yeridilən soyqırım siyasətinin əsas təşkilatçısı idi. Yaranmış ağır vəziyyəti nəzərə alan Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1919-cu ilin yanvarında mərkəzi Şuşa şəhəri olmaqla Qarabağ general-qubernatorluğu yaratdı. Qarabağın general-qubernatoru təyin edilmiş Xosrov bəy Sultanov erməni terrorçu dəstələrinə ağır zərbə vurdu. Vaxtilə Zaqafqaziya ölkə komitəsinin Dağlıq Qarabağda məsul nümayəndəsi yazırdı: “Daşnaksutyun” Şuşadan qovulduqdan sonra, ancaq ermənilərin məskunlaşdıqları dağlara qalxıb son damla qana qədər vuruşmaq, lakin türklərə təslim olmamaq haqqında qərar qəbul etdi.”

Təəccüb doğuran odur ki, Azərbaycanda istər sovet hakimiyyətinin mövcud olduğu illərdə, istərsə də bu rejim dağıldıqdan sonra da bədnam

qonşularımızın əzəli torpaqlarımıza, o cümlədən Dağlıq Qarabağa və onun ürəyi olan Şuşaya iddiaları davam etdi. Azərbaycan hökumətinin düşməni hər zaman konstruktiv olmağa, işğal etdikləri tarixi torpaqlarımızı beynəlxalq hüquq normalarına uyğun olaraq tərk etməyə yönələn çağırışlarına, o cümlədən bu münaqişəni sülh yolu ilə həll etməyə çalışan BMT-nin məlum 4 bəyənatına, ATƏT-in Minsk qrupunun 30 ilə yaxın göstərdiyi bütün səylərinə baxmayaraq, öz xislətinə sadiq qalan ermənilər hərb, talan və işğalçılıq yolunu seçdilər. Lakin, İkinci Qarabağ müharibəsində düşmənə öz gücünü, qüdrətini, yenilməzliyini nümayiş etdirən, Azərbaycan ordusu bütün dünyaya haqq işi uğrunda mübarizəsini göstərdi. "Dəmir yumruq" qarşısında duruş gətirə bilməyən düşmən xar olaraq işğal etdikləri torpaqlardan və doğma Şuşamızdan qovuldular. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il martın 15 də Xocavəndə səfəri zamanı Azıx mağarasında olarkən söylədiyi nitq Qarabağın Azərbaycana məxsus olduğunu və artıq bəşər tarixinin ən qədim dövrlərindən üzü bəri soydaşlarimiz tərəfindən məskunlaşdırıldığını bir daha bütün dünyaya bəyan etdi [8, s.249].

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində demişdir: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!..."

## ƏDƏBİYYAT

1. Azərbaycan Milli Ensiklopediyası. Azərbaycan. Bakı, "Azərbaycan Milli Ensiklopediyası" Elm Mərkəzi, 2007, 884 s.
2. Azərbaycan tarixi. Yeddi clddə. V cild. Bakı, Elm, 2008, 696 s.
3. Əzizov E. Difai: XX əsrin əvvəllərində erməni-azərbaycanlı münaqişəsinin ilkin tarixi şərtləri və səbəbləri. Bakı, CBS, 2009, 360 s.
4. İsgəndərli A. Azərbaycan həqiqətləri 1917-1920. Bakı, Elm və təhsil, 2012, 228 s.
5. İsgəndərov A. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı (1918-1920). Bakı, Adiloğlu, 2006, 396 s.
6. Mahmudov Y., Mustafayev C. Şuşa –Pənahabad. Bakı,Təhsil, 2012,152 s.
7. Mahmudov Y., Şükürov K. Qarabağ: real tarix, faktlar, sənədlər. Bakı, Təhsil, 2005, 380 s.
8. Məmmədov A. XX əsrin ikinci yarısı Azərbaycan tarixşünaslığında ibtidai dövrdə Qarabağda məskunlaşma ilə bağlı tarixi demoqrafiya məsələləri. Tarix və onun problemləri, 2022, №2, s.249-254.

9. Məmmədova H. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyət: Erməni terrorizminin güclənməsi (1918-1920). Bakı, Nağıl Evi, 2006, 150 s.
10. Ordubadi M.S. Qanlı illər. Bakı, Maarif, 1991, 144 s.
11. Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı, Azərbaycan, 2001, 536 s.
12. Paşayev A. Zəngəzur və Qarabağda Azərbaycanlılara qarşı soyqırımı. "Azərbaycan Xalq Cümhuriyyəti tarixinin aktual problemləri" toplusu. Beynəlxalq sessiya. V iclas. 31 mart Azərbaycanlıların soyqırımına həsr olunmuş xüsusi iclas. AMEA. Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi. Bakı Dövlət Universiteti. 2aprel 2003-cü il.
13. Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX – начале XX вв.).Баку,Алтай,1999,300 с.
14. Геноцид азербайджанского народа 1918 года: организаторы и палачи. Баку, ИПО «Турхан», 2013, 272 с.
15. Исторические факты о деяниях армян на азербайджанской земле. Бишкек, Магамедиа, 2009, 304 с.
16. Кавказский календарь на 1914 год. Тифлисъ, 1913, 649 с.
17. Карабах: история в контексте конфликта. СПб, Изд-во «Вестник», 2014, 404 с.

**TARİX, İNSAN VƏ CƏMİYYƏT-2022, 4 (37), s.137-145**

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ QARABAĞ BÖLGƏSİNDƏ TƏHSİLİN VƏZİYYƏTİ

**Bəxtiyar Həsənov**
AMEA A.A. Bakıxanov
adına Tarix İnstitutu
**Bosa6983@gmail.com**

***Açar sözlər:*** *Qarabağ, məktəblər, tədris, dərs vəsaitləri.*

**Xülasə**

*Məqalədə XX əsrin əvvəllərində Qarabağ regionunda təhsil sisteminin vəziyyəti, bu sistemin çar Rusiyasının maraqlarına uyğun qurulmasının təşviqi ilə bağlı əraziyə təyin edilmiş çar hökumətinin məmurları ilə bağlı məlumatlar işıqlandırılmışdır. O, cümlədən məqalədə bölgədə fəaliyyət göstərən məktəblər, şagirdlərə tədris olunan dərs vəsaitləri haqqında da məlumatlar verilmişdir. Həmçinin məktəblərdə tədris prosesində iştirak edən müəllimlərin vəziyyəti, bölgədə yaşayan əhalinin məktəblərə münasibəti, regiondakı çar Rusiyası məmurlarının məktəblərdəki tədrislə bağlı fikirləri arxiv sənədləri əsasında tədqiq edilmiş və oxucuların diqqətinə çatdırılmışdır.*

## СОСТОЯНИЕ ОБРАЗОВАНИЯ В КАРАБАХСКОМ РЕГИОНЕ В НАЧАЛЕ 20-ГО ВЕКА

**Бахтияр Гасанов**

***Ключевые слова:*** *Карабах, школы, образование, учебники.*

**Резюме**

*В статье рассматривается состояние системы образования в Карабахском крае в начале 20 века, приводятся сведения о чиновниках царского правительства, прикомандированных в этот район для содействия созданию этой системы в соответствии с интересами царской России. В статье также на основе архивных документов представлена информация о школах, действующих в регионе, и о методических материалах, которые преподают учащимся. Также было изучено положение учителей, участвующих в учебном процессе в школах, отношение населения, проживающего в регионе, к школам, мнения чиновников царской России в регионе относительно преподавания в школах, и доводится до сведения читателей.*

# THE STATE OF EDUCATION IN THE KARABAKH REGION AT THE BEGINNING OF THE 20TH CENTURY

**Bakhtiyar Hasanov**

***Keywords:*** *Karabakh, schools, teaching, textbooks.*

**Summary**

*In the article, the state of the education system in the Karabakh region at the beginning of the 20th century, the information about the officials of the tsarist government assigned to the area to promote the establishment of this system in accordance with the interests of tsarist Russia, is highlighted.*

*The article also provides information about the schools operating in the region and the teaching materials taught to the students. Also, the situation of the teachers, participating in the teaching process in the schools, the attitude of the population living in the region to the schools, opinions of the officials of Tsarist Russia in the region regarding the teaching at schools were studied on the basis of archival documents and brought to the attention of the readers.*

XX əsrin əvvəllərində mətbuatla yanaşı, o dövrdə Şimali Azərbaycanın Qarabağ regionunda təhsil sisteminin vəziyyəti də qənaətbəxş deyildi. Çünki XIX əsrdə Şimali Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra Rusiya bu ərazilərdə idarəçilik sisteminin qurulması ilə bağlı bir çox problemlərlə qarşılaşdı. Əsas səbəblərdən biri kadrların çatışmamazlığı idisə, digər isə yerli əhalinin böyük bir qisminin rus dilini bilməməsi idi. Hətta Rusiya öz siyasi maraqlarına uyğun Osmanlı və Qacarlar dövlətlərinin (Cənubi Azərbaycan) ərazisindən Cənubi Qafqaza köçürdüyü erməni əhalisi də rus dilini bilmirdi. Bununla bağlı Rusiya Xalq Təhsil Nazirliyinin Jurnalında Tiblis quberniyasına təhkim etdilmiş zavod sahibləri və işçilərin qarşılıqlı münasibətlərini tənzimləyən Qulişambarov yuxarı dairələrə yazırdı: "Buraya İran və Türkiyədən köçürülən qara fəhlə kimi zavodlarda çalışan ermənilər rus dilini bilmirlər. Bunları başa salmaq üçün hər dəfə ancaq tərcüməçi dalınca qaçmalısan. Bu ermənilər zavod işlərini bacarmamaqla yanaşı, həm də çox pis işləyirlər. Həmişə onlara nəzarət etmək və istiqamətləndirmək lazımdır" [19, s. 32].

Çar Rusiyası Cənubi Qafqazda təhsil sistemində rus imperiyasının siyasi maraqlarına xidmət edən kadr məsələsini həll etmək üçün yerlərdə rus dilli məktəblərin yaradılmasını təşkil etməyə başladı. Bu dövrdə Şimali Azərbaycanın Qarabağ bölgəsində təhsil mollaxanalarda və mədrəsələrdə aparılırdı. Burada da ancaq oğlanlar təhsil alırdı demək olar ki, qadınlar bu təhsil sistemindən kənarda qalırdılar.

Bölgədə dünyəvi təhsil də tədricən inkişaf edirdi. Ona görə də hələ XIX əsrin birinci yarısından başlayaraq, Qarabağ bölgəsində qəza məktəblərinin yaradılmasına başlanılmışdır. Maarifçiliyin qarşısına qoyduğu məqsəd və vəzifələri şərh edən Qarabağ maarifçilərindən birinin - S.Vəlibəyovun dediyi kimi: "Hər bir dövlətin və xalqın maddi vəziyyəti başlıca olaraq xalq həyatı yüksəlişinin nəinki təkcə dini, həm də iqtisadi münasibətlərinin bağlı olduğu maarifdən asılıdır" [13, s. 36].

Bölgənin təhsil sistemi ilə bağlı Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin fond materiallarına əsasən Qafqaz Təhsil Dairəsi İdarəsinin 1890-cı ilə olan hesabatında göstərilir ki, Xalq Təhsili Nazirliyi XIX əsrdə Qarabağ regionunun qəzalarında da kənd məktəbləri açmağa başlamışdı. Qarabağ bölgəsində ilk normal kənd məktəbləri 1876-cı il sentyabrın 1-də Zəngəzur qəzasının Gorus, Cəbrayıl qəzasının Cəbrayıl kəndində açılmışdı. Orta məktəblərin azlığı səbəbindən kəndli uşaqlarının orada təhsil ala bilməməsi və Zaqafqaziya Müəllimlər Seminariyasının məzunlarının artması ilə əlaqədar 1883-cü ildən başlayaraq, bölgədə kənd məktəblərinin sayı artmağa başladı [9, s. 201].

XIX əsrin 80-cı illərindən başlayaraq bölgədə rus-tatar məktəbləri ilə yanaşı, Qarabağın ziyalıları ana dilli məktəblər açmağ üşün dövlətin aidiyyatı qurumlarına müraciət etməyə başladılar.

1883-cü ildə Qori Müəllimlər Seminariyası Azərbaycan şöbəsində ibtidai məktəb müəllimi işləmiş pedaqoq Səfərəli bəy Vəlibəyov Şuşada üç aylıq ana dilli məktəb açdı. İkinci ana dilli məktəb isə əsrin 90-cı illərində Mir Möhsün Nəvvab tərəfindən açıldı ki, burada Azərbaycan dili, ədəbiyyat, fars dili, dünyəvi elmlər tədris edilirdi. M.M.Nəvvabın xidmətlərindən biri də məktəblər üçün dərslik tərtib edib məktəbdə onları tədris etmək idi. Onun müxtəlif sahələrdən bəhs edən "Kəşf-ül-Həqiqət", "Kifayət-ül-ətfal", "Vüzuh-ül-ərqam" və "Nəsihətnamə" adlı dörd dərsliyi məlumdur [8, s.498; 62, s.43].

Lakin XX əsrin əvvəllərində kənd məktəblərində vəziyyət heç də qənaətbəxş deyildi. 1904-1905-ci illərdə Cəbrayıl qəzasının Hadrud kənd məktəbində (1885-ci ildə açılmışdır) müəllim kimi fəaliyyət göstərmiş Üzeyir bəy Hacıbəyov "Kaspi" qəzetində kənd məktəblərindəki vəziyyətdən bəhs edən məqaləsində yazırdı ki, kənd ictimai məktəblərində işləmiş müəllimlər illərlə yarıac yaşayır, "ağır zəhmətə görə dilənçi maaşı", həm də beş ay gecikməklə alır [18, s.35; 20, s.715; 5, v.1,2].

Kənd məktəblərində təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün kənd icması 1890-cı ildə əsası qoyulmuş Minkənd kənd məktəbinin 1912-ci ildə birsinifli məktəbdən ikisinifli məktəbə çevrilməsini xahiş etmişdir. Bu xahiş dövlət tərəfindən nəzərə alınmışdır. Hələ XIX əsrin sonlarında başlayaraq Qarabağ bölgəsinin kənd ziyalıları müxtəlif mədəni-kütləvi tədbirlər həyata keçirməklə bölgənin təhsil sisteminin inkişafına çalışırdılar. Belə tədbirlərdən

Malıbəyli kəndində müəllimlik edən Məmməd Qarayevin rəhbərliyi ilə 1893-cü ildə Zaqafqaziya (Qori) Müəllimlər Seminaryasının məzunu Camal bəy Fətəlibəyov tərəfindən Şuşada rus-Azərbaycan məktəbi, Şuşada üçüncü dərəcəli xüsusi oğlan məktəbi açılmışdı. Bu məktəbin 1893-cü ildə 25, 1895-ci ildə 60, 1896-cı ildə 80 şagirdi olmuşdur. İldə hər şagirddən 6-12 manat təhsil haqqı alınırdı. Kasıblar təhsil haqqından azad edilirdi. Onlardan 12-si pulsuz oxuyurdu. Belə məktəblərdən biri də 1915-ci ildə Şuşada "Rəşad" adlı gizli yeniyetmələr cəmiyyətinin nəzdində müəllim Xudadat bəy Əzizbəyovun təşəbbüsü ilə açılmışdı. Məktəb qırx şagirdlə fəaliyyətə başlamışdı. Məktəbdə Qarabağın ən nüfuzlu müəllimləri, o cümlədən, Mirzə Cəlal Yusifzadə, Bəşir Səfərov və başqaları dərs deyirdilər. Onların səyi ilə tədrisin vəziyyəti xeyli yaxşılaşmış, şagirdlərin sayı artırılmışdı [20, s.715; 5, v.1; 18, s.35].

XIX əsrin ikinci yarısında Zəngəzur qəzasının mərkəzi Gorus kəndində məktəb açılmışdı. Azərbaycanlılardan Bəhiş bəy Köçərlinski, Fərhad Ağazadə bu məktəbdə dərs demişdi. Məktəbin direktoru milliyyətcə erməni olan Safrazbekyan olmuşdur. 1908-ci ildən 1912-ci ilədək bu məktəbin şagirdi olmuş Nəzər Heydərov yazır: “Məktəbin direktoru Safrazbekyan tez-tez şikayətlənirdi ki, məktəbdə müsəlman uşaqları oxuduğu üçün ermənilər onu danlayırlar. O, ermənilərin qarasına deyirdi: Bilmirən, bu it uşağı məndən nə istəyirlər?” [10, s.14-15].

XIX əsrin ikinci yarısında bölgədə fəaliyyətə başlayan məktəblərin çoxu XX əsrin əvvəllərində də öz fəaliyyətlərini davam etdirmişdi. Bölgədə Rusiya imperiyası XIX-XX əsrin əvvəllərində yerli islam dininə itaət edən xalqları itaət altında saxlamaq məqsədilə öz maraqlarına xidmət edən yeni tipli məktəblər açıb istifadəyə verirdi.

Belə məktəblərin açılması ilə bağlı XIX əsrdə admiral Mordvinov yazırdı: “Yerli əhalinin adətlərinə müvəffəqiyyətlə təsir göstərmək və bizim adət və qaydaları onlara aşılamaq üçün gənc knyazları və xalq ağsaqqallarının uşaqlarını tərbiyə etmək məqsədilə bizim məktəbləri şəhərlərə gətirmək faydalı olardı. Həm də bu məktəbləri elə təşkil etmək lazımdır ki, orada yerli əhali özünün adət-ənələrini, qayda-qanunlarını görsün” [15, s. 952].

Yuxarıda verilmiş bu faktdan aydın görünür ki, Mordvinov imperiyanın siyasətinə uyğun məktəblərin yaranmasına cəhd edirdi. Bölgədə olan imperiya məmurları dərslərin rus dilində keçirilməsini təklif edirdilər.

XX əsrin ilk onilliklərində Şuşada fəaliyyət göstərən müəllimlərin əksəriyyəti Şuşa şəhər məktəbinin yetirmələri idilər. Şuşada təşkil olunmuş “Gövhəriyyə”, “Nəşr-maarif”, “Rus-tatar”, “Ünas” məktəbində Xosrov Axundovla birlikdə o dövrün tanınmış müəllimləri Hüseyn Axundov, Mirzə Camal Yusifzadə, Mir Cabbar Vəzirov və başqaları dərs deyirdilər. Bu müəllimlər pedaqoji fəaliyyətlə yanaşı geniş ictimai-siyasi iş aparırdılar.

Ümumiyyətlə bu dövrdə Cənubi Qafqaz o cümlədən Qarabağ bölgəsinin məktəblərində əsasən rus dili fənni kimi əlifbadan sonra P.P.Maksimoviçin "Uşaqların dostu", Qalaxovun bir hissə müntəxabatı, Slavyanşünas filoloq A.X.Vostokovun "Qısa rus qramatikası", coğrafiya fənnindən əsas dərsliklər A.Q.Obodovskinin "Ümumi coğrafiyadan ümumi dərslik" və "Riyazi-coğrafiya dərsliyi", S.Baranovskinin "Müasir dünyanın bütöv coğrafi atlası" və digər dərsliklər tədris olunurdu [1, v.6,17; 2, v.6; 3, v.2-3,5].

Hələ 1859-cu ildə Mirzə Əbülhəsən Vəzirov tərəfindən tatar-Azərbaycan dili dərsliyi tərtib olunmuşdu. 1861-ci ildə isə çap olunan "Vətən dili" ("Ana dili") dərsliyinin böyük əhəmiyyyəti olmuşdu. Bu dərslikdə felin zamanları (növləri) haqqında M.Kazımbəyin müddəaları inkişaf etdirilirdi. Müəllifin özünün yazdığı kimi, onun yaratdığı kitabın məqsədi tərcüməçiləri Azərbaycaıı dili ilə tanış etmək idi [7, s.337].

XX yüzilliyin əvvəllərində Azərbayanda o cümlədən Azərbaycanın Qarabağ bölgəsinin qəzalarında maarifin inkişafına mane olan amillər təhsilin rus dilində aparılması, dərslik və dərs vəsaitlərinin çatışmaması olmuşdur. Çarizmin maarif sahəsində gördüyü tədbirlər müstəmləkəçilik siyasətinin həyata keçirilməsinə xidmət edirdi. Məktəblər çarizmə sədaqətlə qulluq edən məmurlar hazırlamalı idi. Təhsilin inkişafı üçün dövlət tərəfindən buraxılan vəsaitin miqdarı az idi. Bütün bu çətinliklərə baxmayaraq, Şimali Azərbaycanın Qarabağ bölgəsində maarifin inkişafında Ü.Hacıbəyovun Mir Möhsün Nəvvabın, N.Vəzirovun, A.Ə.Haqverdiyevin, S.S.Axundovun, Y.V. Çəmənzəminlinin və başqalarının xidmətləri böyük olmuşdur. Onlar, Azərbaycanda imperiyanın təhsil sahəsindəki müstəmləkəçilik siyasətini tənqid edir, mütərəqqi prinsiplərlə yeni məktəblərin yaradılmasını, təhsilin icbari və pulsuz olmasını tələb edirdilər [12, s.62].

Qafqazda Xalq maarifinin inkişafı çarizmin bilərəkdən yaratdığı bir sıra maneələrdən keçməli olurdu. Onların ən mühümü hökumətin maarifə buraxdığı vəsaitin məhdudluğu idi. Belə ki, bu vəsaitdən hər adama düşən pay 1902-ci ildə Bakı quberniyasında 79,3, Yelizavetpol quberniyasında 97 qəpik idi. Cənubi Qafqazda polisi saxlamaq üçün ildə orta hesabla 4,4 milyon rubl xərcləyən hökumət xalq maarifinin ehtiyacları üçün ən çoxu 1,7 milyon rubl ayırırdı [6, s.208] ki, bu da təhsilin inkişaf etməsinə imkan vermirdi.

1906-cı ilin avqustunda Azərbaycan müəllimlərinin I qurultayı keçirildi. Həmin qurultayda aşağıdakı mühüm məsələlərə baxıldı və qərarlar qəbul etdi: Türk xalqları yaşayan bütün bölgələrdə yeni tipli məktəblər yaratmaq, ibtidai icbari təhsilə keçmək, təhsilin ana dilində aparılması, rus dilində təhsil alan gənclərə ana dili və şəriət dərslərinin keçirilməsi, azərbaycanlıların milli və dini ənənələrini yaşadan tədbirlərin həyata keçirilməsi və sair [12, s.61].

Bütün bunları nəzərə alan Azərbaycan ziyalıları 1907-ci və 1916-cı illərdə "Nicatın" təşəbbüsü ilə Azərbaycan müəllimlərinin qurultayların

keçirdilər. 1907-ci ildə Ə.X.Axundov, N.Vəzirov və başqalarının təşəbbüsü ilə yaradılmış Müsəlman Ruhani Cəmiyyəti "Səadət" yaradılıdı. Cəmiyyətin qarşısında xalqı maarifləndirmə vəzifəsi qoyuldu. Cəmiyyət dini məktəbləri təkmilləşdirməyi lazım hesab edir, onların yayılmasına, ictimai kitabxanalar və qiraət zalları açılmasına çalışırdı. "Səadət" cəmiyyətinin 1908-ci ildə açılmış və orta təhsil verən məktəbində F.Ağayev (o, eyni zamanda müfəttiş idi), C.Hacıbəyov, Ü.Hacıbəyov, Ə.D.İsmayılov, H.Terequlov müəllimlik edirdilər. Məktəbin müdiri, Azərbaycan (türk) dili və ədəbiyyatı müəllimi Əli bəy Hüseynzadə idi. 1910-1911-ci tədris ilində "Səadət" məktəbində 302 şagird təhsil alırdı [16, s.46].

Bölgədə əhalinin sayı artdıqca təhsilə olan tələbat artır, məktəblərin sayı çoxalırdı. XX əsrin əvvəllərində də Qarabağın əhalisi, xüsusən kəndlərdə yaşayanlar öz uşaqlarını ənənəyə uyğun olaraq mollaxanalara verir, onların doğma dildə savadlanmasına və dini tərbiyəsinə ümid bəsləyirdilər. Əvvəllər olduğu kimi, rus məktəblərinə daxil olana qədər mollaxanalara getmək təcrübəsindən istifadə olunurdu [6, s.208].

XX yüzilliyin əvvəllərində bölgənin mərkəzi sayılan Şuşa şəhərində məktəblərin sayı bir qədər artdı. 1901-ci ildə Şuşada yeni mədrəsə fəaliyyətə başladı. Bu vaxt Azərbayanda 120 ruhani məktəbi var idi ki, bunun 9-u Şuşanın payına düşürdü. Bu dövrdə ruhani məktəblərində təhsil alanlan 3200 nəfərdən 130 nəfəri Şuşa ruhani məktəbində oxuyurdu. 1881-ci ildə Şuşada əsası qoyulmuş 6 sinifli realnı məktəbində 1901-ci ildə 452 nəfər, 1913-cü ildə isə 483 nəfər təhsil almışdır [12, s.62].

XX əsrin əvvəllərində Şuşa məktəblərinin bir neçəsində dərnəklər yaradılmışdı 1902-1904-cü illərdə Şuşada sosial-demokrat dərnəyi yaradıldı. Bu dərnək Şuşa realnı məktəbi yanında idi. Dərnəyə L. L. Stabrovski rəhbərlik edirdi. Mir Həsən Vəzirov, V. Kasparov və başqaları dərnəyin işində fəallıq göstərirdilər. Dərnəyin üzvləri insanlar arasında "Iskra" qəzetini yayırdılar [14, 79].

Qeyd edək ki, 1902-ci ildə Bakı və Yelizavetpol quberniyalarında müxtəlif tipli 230 ibtidai məktəb var idi. Bu məktəblərdə 14958 nəfər təhsil alırdı ki, onların da cəmisi 3643-ü (24,3%-i) azərbaycanlı idi. 1908-ci ildə isə bu məktəblərin sayı çox cüzi artaraq 236-ya çatmışdı. Burada təhsil alan 20618 nəfərdən isə yalnız 5456 (26,4%-i) nəfəri azərbaycanlı idi [11, s.37-64].

Bu dövrün ziyalıları məktəblərdə dərs vəsaitlərinin çatışmamazlığını nəzərə alır və müxtəlif dərs vəsaitləri çap etdirirdilər. Müxtəlif fənlər üzrə dərsliklər tərtib olunurdu: Ü. Hacıbəyov hesab dərsliyini (1908-ci il), Q.Mirzəzadə "Qafqaz coğrafiyası (1914-cü il) nəşr etdi. "Rus-türk" və "Türk-rus" lüğətləri, o cümlədən, 1907-ci ildə Ü.Hacıbəyov tərəfindən çap edilən lüğət nəşr olundu. Azərbaycan dilində təhsil alanlar üçün hazırlanmış aylıq pedaqoji jurnal "Rəhbər"in nəşri müəllimlər üçün qiymətli vəsait oldu. O, 1906-1907-ci

illərdə M.Mahmudbəyovun redaktəsi ilə çıxırdı. 1906-1908-ci illərdə şagirdlər üçün A.İ.Cəfərzadənin və M.H.Əfəndiyevin redaktəsi ilə şəkilli "Dəbistan", şagird və müəllimlər üçün Q.Mirzəzadə və A.Əfəndiyevin redaktəsi altında 1906- 1907-ci illərdə "Məktəb" jurnalları nəşr olunurdu. Azərbaycan uşaq bədii ədəbiyyatının inkişafında M.Ə.Sabir, A.Səhhət, R.Əfəndiyev, F.Köçərli, A.Şaiq və başqaları böyük rol oynadılar. Əsasını müəllimlər təşkil edən qabaqcıl ziyalıların nümayəndələri xalq təhsilinin inkişafı üçün zəruri olan biliklərin yayılmasına yönəlmiş ictimai fəaliyyətlə məşğul olurdular. Kitabxanalar, qiraət ocaqları, dram dərnəkləri, hətta qrupları yaradılırdı. Bu işdə müəllimlər, savad kursları, başqa mədəniyyət ocaqları fəal iştirak edirdi. Müəllimlər çalışdıqları yerlərdə öz işlərinə uyğun olaraq folklor, tarix, arxeologiya, etnoqrafiya, toponimika, ölkənin təbiəti və iqtisadiyyatı üzrə material toplayırdılar [6,s.216-217].

1910-1914-cü illərdə Şimali Azərbaycanın Qarabağ bölgəsində xalq maarifinin inkişafında müəyyən canlanma müşahidə edilmişdir. İbtidai məktəblərdə M.Mahmudbəyovun nəşr edilmiş “Ana dili” kitabı oxunurdu. Məktəblərin bir qismi rus-Azərbaycan məktəbləri idi. Bəhs etdiyimiz dövrdə, Şuşanın 8 ibtidai məktəbində 131 şagird təhsil alırdı. 1912-ci il “Əsasnamə”sinə görə şəhər məktəbləri ali ibtidai məktəblərə çevrildi. Ali ibtidai məktəblərə ibtidai məktəbləri bitirənlər daxil olurdu. Belə məktəblər Şuşada 2 hissədə fəaliyyət göstərirdi. Birinci hissəyə qızlar məktəbi daxil idi ki, bunun bünövrəsi 1894-cü ildən qoyulmuşdu. Şuşada “Marinskoe uçiliş” adı altında fəaliyyət göstərən bu təhsil oçağı Şuşanın ilk qadın orta məktəbi idi. Məktəbdə təhsil rus dilində aparılırdı. İkinci hissə isə oğlanlar məktəbi idi. Bu məktəblərdə şəriət, rus dili, latın dili, alman dili, riyaziyyat, coğrafiya, tarix, təbiətşünaslıq, rəsmxət və başqa fənlər tədris olunurdu. 1913-cü ildə Şuşanın orta məktəbində təhsil alan şagirdlərin sayı 483-ə, müəllimlərin sayı 42-yə çatdı. 1915-ci ildə Şuşada orta təhsil verən realnı məktəblərində 470 nəfər şagird oxuyurdu [12, s.62-63].

Bölgədə fəaliyyət göstərən Rus-tatar məktəbləri XX əsrin əvvəllərində birsiniflidən ikisinifliyə çevrilirdi [6, s.212].

XX yüzilliyin əvvəllərində xalq maarifi sahəsində diqqəti cəlb edən əlamətdar hadisələrdən biri, yalnız azərbaycanlı qızları üçün nəzərdə tutulan qız məktəblərinin yaradılması olmuşdu. 1907-ci ildə Şuşada da belə bir məktəb açıldı [12, s.63-64].

Bölgədə köhnə məktəblər, sayca nisbətən çox olmasına baxmayaraq, öz mövqelərini itirirdi. Bu məktəblər ümumtəhsil ibtidai məktəbləri və yeni üsulla işləyən məktəblər tərəfindən sıxışdırılırdı. 1915-ci il yanvarın 1-də Bakı və Yelizavetpol quberniyalarında Xalq Təhsili Nazirliyinin sərəncamında 103 şəhər və 609 kənd ibtidai məktəbi var idi. Bu məktəblərdə 46530 şagird təhsil alırdı kı, onlardan 1427 nəfəri qız (28,3 faiz) və 15776-sı (34 faizi) azərbaycanlı idi  [6, s.209].

Nəticədə 1916-cı ilin sonunda Qarabağ bölgəsinin mərkəzi hesab edilən Şuşada məktəblərin sayı 50-yə, şagirdlərin sayı 3000-ə, müəllimlərin sayı 79-a çatdı. 1917-ci ilin sonlarında isə Şuşada müəllimlərin sayı artıq 121 nəfəri keçmişdi [12, s.64].

1918-ci ildən isə Azərbaycan ərazilərində elan edilmiş Azərbaycan Xalq Cumhuriyyəti avqustun 28-də xalq maarifinin milliləşdirilməsi məsələsi ilə bağlı qanun qəbul etdi. Qarabağın qəzalarında yüksək vəzifədə işləyən rus və erməni məmurları milli kadrlarla əvəz edildi. Məktəblərdə Azərbaycan dilinə məcburi fənn kimi həftədə 3-4 saat ayrıldı. Bu məktəblərə müəllim hazırlamaq üçün qısamüddətli kurslar təşkil edildi. Bu tədbirlərin həyata keçirilməsi ilə təhsil sistemində yeni bir dövr başladı. Hətta bunu o dövrün rus müəllifləri bilmədən etiraf etmişlər.

Rus müəllifləri bir çox hallarda türkləri "dağda yaşayan, savadsız, mədəni səviyyə cəhətdən aşağı olan xalq kimi" qələmə verməyə çalışmış, onların sözü ilə desək guya Sovetlər birliyinin gəlməsi ilə bu xalqların mədəni səviyyəsi yüksəlməyə başlamışdır.

Çox maraqlıdır ki, Lyayster və Çursin birgə yazdıqları Qafqazın təbiəti, coğrafiyası və əhalisi əsərində belə bir məlumat verərək bəlkədə bilmədən özlərinin yalan məlumatlar verdiklərini etiraf etmişlər. Bu müəlliflər yazır ki, Azərbaycan türklərinin mədəni səviyyəsi ümumilikdə aşağıdır. Kənd əhalisinin böyük hissəsi savadsızdır. Maraqlıdır ki, onlar əhalinin mədəni səviyyəsinin və savadsızlığın azalmasını və artmasını aşağıdakı kimi qələmə almışlar. Rus imperiyasının 1897-ci il siyahıyaalmasına görə Bakı quberniyasının kənd əhalisi arasında savadlı kişilərin sayı 1,9 faiz, qadınlar 0,06 faiz (265000 qadından 147 savadlı ), Yelizavetpol quberniyasında, kənd kişiləri arasında 2,5 faiz, qadınlar arasında 0,1 faiz savadlı insanlar olub. Bu vəziyyət rus imperiyasının 1917-ci il siyahıyaalınmasında çox az miqdarda dəyişilmişdi, belə ki, Bakı quberniyasında kişilər arasında savadlıların sayı 2 faiz, qadınlar arasında isə 0,1 faiz olmuşdur. Yəni buradan aydın olur ki, rus imperiyasının bir əsrə qədər əsarətində olmuş Azərbaycan türkləri mədəni və təhsil səviyyəsində heç inkişaf etməmişdir və yaxud da imperiya bu işdə buna maraqlı olmamışdır. Sonra yazırlar, Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra türk əhalisi arasında bu vəziyyət yaxşılığa doğru dəyişməyə başladı. 1921-ci ilin məlumatlarına görə (1918-1920-ci illər Azərbaycan Demokratik Cumhuriyyəti dövrü-H.B) Azərbaycanda artıq kişilərin 7,2 faizi, qadınların 1,6 faizi, ümumi əhalinin isə 4,5 faizi savadlanmışdı. Şəhərlərdə kişilərin 23,7 faizi, qadınların 5 faizi, ümumi şəhər əhalisinin isə 14,4 faizi təhsilli idi [17, s. 340].

Bu faktlardan aydın olur ki, rus imperiyası Qafqazda yaşayan türklərin təhsil almasında maraqlı deyildir. Çünki, əgər bunun səbəbi Azərbaycan türklərində idisə necə olur ki, onların verdiyi məlumatlardakı türk əhalisi arasında savadlılığın artması, Sovet imperiyasının gəlişi ilə yox, məhz

Azərbaycan Demokratik Cumhuriyyətinin (1918-1920-ci illər) həyata keçirdiyi sosial-iqtisadi və mədəni tədbirlərin nəticəsi olaraq artırılmışdı. Əhalinin savadlanmasındakı bu faiz artımı 23 ay müddətində milli hökumətin-AXC-nin fəaliyyəti nəticəsində baş vermişdi, hansı ki, iki ilə qədər bir zamanda yüz illik rus əsarətindən 3-4 qat daha çox inkişaf etdirilmişdir.

XX əsrin əvvəllərində Qafqazda o cümlədən bəhs etdiyimiz Qarabağ bölgəsində çar Rusiyası imperiyası tərəfindən məktəblər haqqında qəbul edilmiş məktəb nizamnamələrinin heç biri təcrübədə özünü doğrultmamışdı. Belə ki, islahatlar məktəblərin və şagirdlərin sayının əvvəlki illərə nisbətdə artmasına təkan versə də, tədrisin keyfiyyəti aşağı olmuş və müsbət nəticə verməmişdir.

**Ədəbiyyat**


1. ARDTA: F. 313, siy. 1, iş 8, v. 2;
2. ARDTA: F. 313, siy. 2, iş 54, v. 6, 19;
3. ARDTA: F. 313, siy. 3, iş 185, v. 3, 6, 57
4. ARDTA: F. 406, siy. 2, iş. 75, v. 1
5. AR DTA: F. 524, siy.1, iş 28, v. 14-17
6. Azərbaycan tarixi. Yeddi cilddə. IV cild (XIX əsr). Bakı: Elm, 2007, 504 s.
7. Azərbaycan tarixi arxiv sənədlərində. XIX-XX əsrlər. II cild. AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu. Y.M.Bakı: Çaşıoğlu, 2012, 660 s.
8. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı: Şərq-Qərb, 2007, 407 s.
9. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1992, 478 s.
10. Hacıyev S. Türkiyə-Rusiya münasibətləri və erməni terroru. Bakı: Bakı Universiteti nəşriyyatı, 1998, 244 s.
11. Həsənov H. İnqilabdan əvvəl Azərbaycanda kitab işi. Bakı: 1965, 80 s.
12. Məmmədov N.R. Azərbaycan Respublikasının Şuşa şəhərinin tarixi. Bakı: Avrora, 2016, 960 s.
13. Məmmədov X. "Əkinçi"dən "Molla Nəsrəddin"ə qədər. (Bakı: Yazıçı, 1987) "İrşad" qəz., 1908, 22 may.
14. Şükürov K.K. Azərbaycan əhalisi: öyrənilməsi tarixi və qaynaqları (qədim zamanlardan müasir dövrədək). Bakı: 2004, 974 s.
15. Антология педагогической мысли Азербайджанской ССР. Москва: Педагогика, 1989, 591 с.
16. Гусейнов Р, Вердиева Х.Ю. "Родословная" армян и их миграция на Кавказ с Балкан. Баку: Элм, 2003, 216 с.
17. Ляйстер А.Ф., Чурсин Г.Ф. География Кавказа. Природа и население. Тифлис: Издание Коммун. Универс, 1924, 350 с.
18. Пчелин Н.А. Крестьянский вопрос при Мусавата (1918-1920). Баку: 1931, 65 с.
19. Обзор Елизаветпольской губернии за 1909 г., Тифлис: 1910.
20. http://www.history.az

**MÜNDƏRİCAT**

**Cəfər Cəfərov.** Ö N S Ö Z..........................................................................3
**Naibə Əhmədova.** XX ƏSRİN 70-80-Cİ İLLƏRİNİN SOVET TARİXŞÜNALIĞINDA QARABAĞ MƏSƏLƏSİ........................................7
**Həcər Əhmədova.** XVII ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİNİN ƏSGƏRİ TƏŞKİLATI (PYETRO DELLA VALLENİN "SƏYAHƏTNAMƏ" Sİ ƏSASINDA).......................................13
**Zakir Kərimov.** ŞUŞA MAARİF SİSTEMİNİN YETİŞDİRDİYİ İCTİMAİ-SİYASİ XADİMLƏR.....................................................................21
**Afiq Abdullayev.** HERALDİKANIN DİGƏR PREDMETLƏRİ : MİNİATÜRLƏR.............................................................................................30
**Mübariz Ağalarlı.**AZƏRBAYCANDA TƏHSİL ƏNƏNƏLƏRİ VƏ ŞUŞA ŞƏHƏRİ...........................................................................................41
**Aygün Bağırlı.** ŞUŞALI SÜLEYMAN SANİ AXUNDOV..........................56
**Zarina Murtuzayeva.** FAMILY-HOUSEHOLD RELATIONSHIPS OF THE LEZGINS AND ITS PRIMARY CHARACTERISTICS…………66
**Camal Mustafayev.** ŞUŞA ŞƏHƏRİ XVIII ƏSRİN İKİNCİ YARISI – XIX ƏSRDƏ ..................................................................................73
**Aynur Gasimli, Nermin Tapdigli.** 44 DAYS – THE HISTORY OF THE GLORIOUS VICTORY............................................................................82
**Türkan Qasımova.** XX ƏSRİN SONLARINDA CƏNUBİ OSETİYA – GÜRCÜSTAN MÜNAQİŞƏSİ VƏ ONUN TƏNZİMLƏNMƏSİ.......................................................................................89
**Фуад Агаев.** ПОВСЕДНЕВНАЯ ЖИЗНЬ ГОРОДА БАКУ В НАЧАЛЕ XX ВВ...........................................................................................101
**Eldar Haciyev.** TARİXİ ŞİRVAN ƏRAZİSİ : KÖÇÜRMƏ PROSESLƏRİNİN ETNİK TƏRKİBDƏ ƏKSİ............................................109
**Vaqif Hacıyev.** HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAFINDA ROLU.......................................................................118
**Aydın Məmmədov.** XX ƏSRIN ƏVVƏLLƏRİNDƏ ERMƏNİ-DAŞNAK BİRLƏŞMƏLƏRİNİN ŞUŞADA TÖRƏTDİKLƏRİ SOYQIRIMLARININ AZƏRBAYCANIN DEMOQRAFİK VƏZİYYƏTİNƏ TƏSİRİ XXI ƏSR VƏTƏN TARİXŞÜNASLIĞINDA.............................................................126
**Bəxtiyar Həsənov.** XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ QARABAĞ BÖLGƏSİNDƏ TƏHSİLİN VƏZİYYƏTİ .................................................137

# YAZI QAYDALARI

- Məqalələr **Azərbaycan, ingilis** və **rus** dillərində jurnalın elektron ünvanına – jhhsadpu@mail.ru göndərilir.

- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.

- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.

- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 12 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.

- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.

- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, 8].

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.

- Məqalələrin həcmi: 5-12 səhifə.

- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.

- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.

- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodiki jurnal 2022, 4 (37)*

***Çapa imzalanmış  20.12.2022-ci il***
***Kağız formatı 60x84 1/16, çap vərəqi 18***
***Sifariş 402,  sayı 100***

***Bakı, Ü.Hacıbəyli küçəsi, 68***
***Telefon: (+994 12)493 05 85***
***E-mail:*** *jhhsadpu@mail.ru*
***www.adpu.edu.az***